RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 10 (9465) 18 YANVAR 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Davamlı inkişaf, möhtəşəm quruculuq, böyük Zəfər



# Xoşbəxt gəmi

**Azərbaycanın dəniz nəqliyyatı tarixində 1957-ci ildən sonra ilk hadisə idi ki, hər hansı bir gəmiyə həyatda olan şəxsin adı verilmişdi...**

Bu həm, ölkəmizin neft sənayesinin canlı əfsanəsi Xoşbəxt Yusifzadəyə dövlətimizin diqqət və qayğısının ifadəsi, həm də Xoşbəxt Yusifzadənin timsalında qəhrəman neftçilərimizə, dənizçilərimizə verilən yüksək qiymətin ümumi təcəssümü idi.

Həmin mərasimdə, qocaman neftçi keçirdiyi xöşbəxtlik və minnətdarlıq hisslərini isə bu səmimi sözlərlə dilə gətirmişdi: "Bu gün mənim demək olar ki, ən xoşbəxt günlərimdən biridir. Hər şeyi gözləyərdim, amma dənizdə mənim adıma gəmi olsun, vallah, bunu heç yatıb yuxuda da görə bilməzdim..."

## Növbəti uğurlu səfər

Səhərə yaxın, saat 4:30-dur. Hələ dan üzü qızarmayıb, Günəş gözə görünmür. Bu zaman üfüqə qədər uzanan ucsuz-bucaqsız dəryanın beşik kimi yırğaladığı bir nəhəng gəmi aram-aram sahilə yaxınlaşır. Əsən soyuq küləyin vıyıltısının müşayiəti ilə suları yara-yara irəliləyən tankerin bütün heyəti bir nəfər kimi ayaq üstdədir. Çıxdıqları daha bir çətin və məsuliyyətli səfəri başa çatdırmalarına dəqiqələr qalıb...

Artıq saat 5 tamamı göstərir. Gah kükrəyən, gah sakitləşən dalğaların qoynunda lövbər vuran gəmi körpüyə yan alır. Bayaqdan bəri öz yerlərini alan gəmi heyəti də böyük məsuliyyətlə üzərlərinə düşən vəzifəni yerinə yetirməyə başlayır. Kapitan körpüsündən gəminin bütün hərəkətinə nəzarət edən kapitan köməkçilərinə göstərişlər verir. Bosman lövbər qurğusunun vasitəsilə kapitan köməkçisindən aldığı göstərişləri bir-bir yerinə yetirir. Nəhayət, kəndirlərlə bu dəniz nəhəngi körpüyə möhkəm-möhkəm bənd edilir...

→ 14

## Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Təbii ehtiyatlar, energetika və ekologiya, habelə Aqrar siyasət komitələrinin iclasları keçirilib

→ 2

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınmış namizədlərin siyahısı

| Sıra sayı | Soyadı, adı və atasının adı | Kim tərəfindən irəli sürülmüşdür | Fəaliyyət növü |
|---|---|---|---|
| 1 | Əliyev İlham Heydər oğlu | Yeni Azərbaycan Partiyası (YAP) | Azərbaycan Respublikasının Prezidenti |
| 2 | Oruc Zahid Məhərrəm oğlu | Öz təşəbbüsü ilə | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 3 | Nurullayev Razi Qulaməli oğlu | Milli Cəbhə Partiyası (MCP) | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 4 | Həsənquliyev Qüdrət Müzəffər oğlu | Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP) | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 5 | Mustafa Fazil Qəzənfər oğlu | Böyük Quruluş Partiyası (BQP) | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 6 | Musayev Elşad Nəbi oğlu | Böyük Azərbaycan Partiyası (BAP) | Böyük Azərbaycan Partiyasının sədri |
| 7 | Əliyev Fuad Ağasi oğlu | Öz təşəbbüsü ilə | "Vətəndaş Hüquqlarının Müdafiəsinə Dəstək" İctimai Birliyinin sədri |

## S.İ.Seyidovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Səməd İsmayıl oğlu Seyidov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 yanvar 2024-cü il*






















Prezidentliyə namizədlərin ödənişsiz təşviqat materialları → 4-10

## Beynəlxalq müşahidəçilərin seçkiyə böyük marağı var

Məzahir Pənahov fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini izləmək üçün ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyinin (MDB) Baş katibinin birinci müavini Leonid Anfimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Məzahir Pənahov qonaqları salamlayaraq görüşdən məmnunluğunu ifadə edib. Seçkilərdə aşkarlığın və şəffaflığın təmin olunmasında müşahidəçilik institutunun mühüm rol oynadığını vurğulayan MSK sədri rəhbərlik etdiyi ali seçki qurumunun beynəlxalq təşkilatlarla əməkdaşlığa daim xüsusi əhəmiyyət verdiyini diqqətə çatdırıb.

→ 3

## Paşinyan Putinin əleyhinə mitinq keçirəcək

### Hayastanda anti-Rusiya kampaniyası yeni vüsət alır

Hayastanda anti-Rusiya meyillərinin daha da artdığı müşahidə olunur. Bunu İrəvanda Rusiya əleyhinə keçirilən aksiyaların sayının çoxalması, az qala cəmiyyətin bütün təbəqələrində Moskvanın sərt tənqid hədəfinə çevrilməsi də təsdiq edir. Ümumiyyətlə, indiki mərhələdə Hayastan iqtisadi, siyasi, geosiyasi və hərbi sferalarda çox çətin duruma düşüb.

→ 15

## Demokratik, ədalətli seçkilər yeni dövrün başlanğıcı olacaq

### Prezident seçkiləri Azərbaycanın dövlətçilik tarixinə şanlı möhürünü vuracaq

Tarixinin ən qüdrətli Azərbaycanı növbəti mühüm seçim qarşısındadır. Xalq prezident seçkilərinə böyük coşqu ilə hazırlaşır. Bu, müstəqillik tariximizin sayca 9-cu prezident seçkiləridir.

Builki seçki ölkəmiz adına taleyüklü bir dövrdə keçirilir. Məhz buna görə də bir sıra özəlliklərinə görə diqqət çəkir. Belə ki, 30 ildən sonra ərazi bütövlüyünü təmin etmiş müstəqil Azərbaycanın tarixində ilk dəfə seçkilər bütün ölkə ərazisində keçiriləcək. Yəni bu seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir. Bu, həm də Zəfər seçkiləri olaraq Azərbaycanın siyasi tarixinə yazılacaq. 30 ildən sonra doğma torpaqlarına qayıtmış keçmiş məcburi köçkün soydaşlarımız öz yurdlarında seçici olaraq səsvermədə iştirak edəcəklər. Prezident seçkiləri qüdrətli Azərbaycanın tarixində yeni dövrün başlanğıcı olacaq.



İşğaldan azad edilmiş ərazilərimiz də daxil olmaqla, bütün ölkəboyu keçiriləcək ilk prezident seçkiləri həm də tarixi əhəmiyyət daşıyır. Bu, iqtisadiyyatımızın, eləcə də regional geosiyasi və geoiqtisadi mövqeyimizin daha da gücləndirilməsi baxımından mükəmməl fürsətdir. Birmənalı şəkildə deyə bilərik ki, prezident seçkiləri məhz bu mühüm proseslərin reallaşdırılması istiqamətində atılacaq addımlara, yeni dövrə xeyir-dua verəcək.

İstənilən seçki hər bir demokratik cəmiyyət üçün mühüm siyasi hadisə hesab edilir. Bu baxımdan qarşıdan gələn prezident seçkisinin istər Azərbaycan cəmiyyəti, istər beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanması və izlənilməsi təbiidir. Əsas odur ki, respublikamızda statusundan və məzmunundan asılı olmayaraq, hər bir seçkinin ədalətli və şəffaf keçirilməsi üçün olduqca böyük təcrübə, siyasi iradə və demokratik ənənələr var.

Xalqımız fevralın 7-də seçkilər vasitəsilə xoşbəxt gələcəyini, dövlətinin etibarlı idarəçisini müəyyənləşdirəcək. İndiyədək ölkəmizdə keçirilən əvvəlki prezident seçkiləri Azərbaycandakı demokratiyanın aynası rolunu oynayıb. Çünki ölkəmizin seçki təcrübəsi də çox unikaldır. Azərbaycanda seçkilərin demokratik keçirilməsi ilə bağlı kifayət qədər təcrübə və zəngin ənənə mövcuddur.

→ 13

## Parisin maskası yırtılıb

### Neokolonist siyasətini davam etdirən Fransa indi açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparır

Problem yalnız Fransanın, xüsusilə də bu ölkənin hazırkı iqtidarının ölkəmizə qərəzli münasibət bəsləməsindədir. Münasibətlərin gərginləşməsi İkinci Qarabağ müharibəsi zamanı başladı. Həmin vaxt 44 gün ərzində Fransa prezidenti dəfələrlə Azərbaycanın dövlət başçısına telefon açaraq müharibənin dayandırılmasını istəyirdi. Ancaq onun istəyi baş tutmadı və Azərbaycan öz qətiyyətini ortaya qoydu. Müharibə yalnız ölkəmizin şərtləri təmin olunmaqla dayandırıldı.

→ 15

## Bayden Trampa məğlub olacağını anlayır

"Deyəsən, Donald Tramp Ayova ştatında qalib gəlib. Hazırda o, müxalifətin aşkar favoritidir. Ancaq burada bir şey var: bu seçkilərdə həmişə siz və mən ifrat respublikaçıların əleyhinə olmuşuq. Bu mövqe dünən də doğru idi, sabah da doğru olacaq".

ABŞ Prezidenti Co Bayden Ağ Evin sabiq rəhbəri Donald Trampın Ayovadakı qələbəsindən sonra "X" sosial şəbəkəsində bu paylaşımı edərək onu respublikaçılar arasında aşkar favorit adlandırıb.

→ 15

# Hərbi qulluqçularla bağlı yeni qanun hazırlanıb



**Yanvarın 17-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2024-cü ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Ziyafət Əsgərov iclasın gündəliyinə 4 məsələnin - 2023-cü ilin payız sessiyası dövründə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində görülən işlər barədə hesabatın, komitənin 2024-cü il yaz sessiyası üçün iş planının və iki qanun layihəsinin daxil edildiyini söyləyib.**

Əvvəlcə, Ziyafət Əsgərov 2023-cü ilin payız sessiyası dövründə komitədə görülən işlər barədə hesabatı təqdim edib. O, diqqətə çatdırıb ki, 2023-cü ilin payız sessiyası ərzində komitənin 14 iclası keçirilib, 28 məsələyə baxılıb. Qeyd olunub ki, ötən sessiyada "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Milli təhlükəsizlik haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunlarda, Cinayət Məcəlləsində, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də və bir sıra digər qanunvericilik aktlarında əlavə və dəyişikliklərlə bağlı layihələr, habelə "Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına Əlavə Protokol"un təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" sənədlər müzakirə olunub və qəbul edilib.

Komitə sədri bildirib ki, payız sessiyasında komitənin ünvanına vətəndaşlardan, idarə və təşkilatlardan 78 ərizə və məktub daxil olub. Müraciətlərə baxılaraq, qaldırılan məsələlərin əksəriyyəti işçi qaydada öz həllini tapıb, bəziləri isə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara göndərilib.

Komitənin 2023-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı məqbul hesab olunub.

Sonra Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2024-cü il yaz sessiyası üçün iş planının layihəsini təqdim edib. O, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinə baxılacağını söyləyib. Komitə sədri 2023-cü ildə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsinə, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinə, bir sıra digər məsələlərin aktuallığına diqqət çəkərək "Hərbi qulluqçuların statusu haqqında" yeni qanun layihəsinin hazırlandığını bildirib. O, yaz sessiyası ərzində bu qanun layihəsinin də müzakirəsinin nəzərdə tutulduğunu deyib.

Komitənin 2024-cü il yaz sessiyası üçün iş planının layihəsi təsdiq edilib.

Daha sonra komitə sədri Ziyafət Əsgərov gündəlikdəki qanun layihələrindən danışıb. Bildirib ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" (birinci oxunuş) qanun layihəsində adıçəkilən qanunun 45.5-ci maddəsinə "Müvafiq icra hakimiyyəti orqanı toplanışlara cəlb edəcəyi hərbi vəzifəlilərin sayını müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müəyyən edir" cümləsinin əlavə edilməsi təklif olunur.

Qeyd edilib ki, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" (birinci oxunuş) qanun layihəsində isə uyğunlaşdırma xarakterli düzəlişlər nəzərdə tutulub.

Qanun layihələri birinci oxunuşda müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan bərpaolunan mənbələr hesabına enerji tələbatının 30 faizini iki il tez ödəyə bilər

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Davosda Dünya İqtisadi Forumu çərçivəsində "COP28 və qarşıdakı yol" mövzusunda sessiyada çıxış edib.**




AZƏRTAC xəbər verir ki, tədbirdə ABŞ Prezidentinin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Con Kerri, Beynəlxalq Enerji Agentliyinin baş direktoru Fatih Birol, ENGİE Qlobal Enerji Şirkətinin icraçı direktoru Ketrin Makqreqor mövzu barədə moderator, ABŞ-ın "The Washington Post" media qurumunun icraçı redaktoru Salli Bazbinin suallarını cavablandırıblar.

COP28-in əsas nailiyyətləri barədə fikirlərini bildirən Azərbaycanın iqtisadiyyat naziri enerji səmərəliliyinin, bərpa olunan enerji mənbələrinin artırılması, ənənəvi yanacaq növlərinin istifadənin azaldılmasına diqqət yetirilməsi və digər nəticələr baxımından uğurları diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycan COP29-un ev sahibi olaraq bu sahədə tədbirlərin uğurlu şəkildə həyata keçirilməsi öhdəliyini tam məsuliyyəti ilə anlayır. Ölkəmiz COP29-un əsas mövzusu olan enerji keçidində maliyyələşdirmə mexanizmlərinin təmin edilməsi məqsədilə bütün maraqlı tərəflərlə işləməyə hazırdır. Bildirilib ki, beynəlxalq maliyyə təşkilatları bu məsələdə mühüm tərəfdaşlardır. Bununla yanaşı, prosesə özəl sərmayənin cəlbi də təşviq edilməlidir. Enerji keçidində maliyyələşdirmə mexanizmlərinin təmin edilməsində hökumətlərdən çox şey asılıdır.

Sessiyada Azərbaycanın enerji keçidi prosesində həyata keçirdiyi tədbirlər, əldə edilən nəticələr və qazanılan təcrübə barədə məlumat verilib: "Biz ölkənin gəlirlərindən, o cümlədən qalıq yanacaqlardan əldə olunan gəlirlərdən enerjiyə keçidə başlamaq üçün istifadə etmişik. Xüsusilə, 2030-cu ilə qədər enerji tələbatının 30 faizinin bərpa olunan mənbələr hesabına ödənilməsi hədəfimizdən xeyli irəlidəyik. Bugünkü səviyyədə səylərimizi davam etdirsək, 2028-ci ilə qədər bu hədəfə nail ola bilərik".

# Tikinti obyektlərinin su təchizatı mexanizmi təkmilləşəcək



**Yanvarın 17-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2024-cü ilin yaz sessiyasında ilk iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qarşıdakı yaz sessiyasında deputatlara uğurlar diləyən komitə sədri Sadiq Qurbanov bildirib ki, müasir Azərbaycan sözün əsl mənasında dünya miqyasında güclü ölkədir. Komitə sədrinin sözlərinə görə, 44 günlük İkinci Qarabağ müharibəsindəki qələbə Azərbaycan tarixinin döyüş meydanında yazılan şanlı səhifəsi olmaqla dövlətimizi, xalqımızı böyütdü, dünyaya daha yaxından tanıtdı. Xankəndidə bayrağımızın qaldırılması ədalətin tam bərpası və Zəfərimizin son nöqtəsi oldu.

Daha sonra komitə sədri Azərbaycanın neft-qaz, bərpa olunan enerji sahələrində əldə etdiyi nailiyyətlərdən və qarşıya qoyduğu yeni hədəflərdən danışıb. Qeyd olunub ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası son 20 ildə təkcə neft hasilatının və ixracının rekord artımı ilə deyil, həm də tarixi əhəmiyyət kəsb edən çox mühüm hadisələrlə əlamətdar olaraq öz inkişafının zirvəsinə çatıb. Əgər 2003-cü ildə Azərbaycan 4 milyard kubmetr qaz idxal edirdisə, bu gün Avropaya iri və etibarlı qaz ixracatçısı kimi çıxış edir.

COP29-un Bakıda keçirilməsini Azərbaycanın "yaşıl enerji" siyasətinə ardıcıl dəstəyinin nəticəsi kimi vurğulayan Sadiq Qurbanov qeyd edib ki, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə evsahibliyi etməsi ilə bağlı qəbul edilən qərar ölkəmizin böyük uğurudur. COP29-un Bakıda keçirilməsi qərarı həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyi kimi başa düşülməlidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimizdən və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Bu həm də son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan Fransa kimi dövlətlərə və bəzi dairələrə tutarlı cavabdır.

Sonra gündəliyi təqdim edən komitə sədri bildirib ki, müzakirəyə dörd məsələ çıxarılıb. İlk iki məsələ Milli Məclisin 2023-cü ilin payız sessiyası dövründə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin gördüyü işlər barədə hesabatı və komitənin 2024-cü ilin yaz sessiyası üçün işlər planı layihəsidir. 3-cü məsələ birinci oxunuşda müzakirəyə çıxarılan "Su təchizatı və tullantı suları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 4-cü isə cari məsələlərdir.

Komitənin ötən sessiya ilə bağlı hesabatını deputat İltizam Yusifov təqdim edib. O bildirib ki, komitənin hesabat dövründə keçirilən 20 iclasında 48 məsələyə baxılıb. İltizam Yusifov baxılan məsələlər və qanun layihələri, komitənin ekoloji məsələlərlə bağlı təşkil etdiyi dinləmələr, tədbirlər barədə məlumat verib. O, "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlərdə komitə üzvlərinin fəal iştirakından bəhs edib.

Komitənin 2024-cü il yaz sessiyası üçün iş planını komitə sədri Sadiq Qurbanov təqdim edib. O bildirib ki, planda komitəyə daxil olan qanun layihələrinə, digər sənədlərə baxılması və müvafiq qərarın qəbul edilməsi ilə yanaşı, ekologiya və energetika, bərpa olunan enerji haqqında qanunvericilik və bu sahənin aktual məsələlərinə dair aidiyyəti qurumlarla müzakirələrin, tədbirlərin keçirilməsi öz əksini tapıb. Qeyd olunub ki, planda COP29 çərçivəsində Bakı şəhərində atmosferə atılan tullantıların idarə edilməsinə dair dinləmə də nəzərdə tutulub.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə sədrinin müavini Asim Mollazadə, komitə üzvləri İltizam Yusifov, Afət Həsənova, Məşhur Məmmədov və Əliabbas Salahzadə çıxış ediblər. Deputatlar komitənin ötən sessiyada işini qənaətbəxş sayıblar, komitənin qarşıdakı sessiyada iş planı ilə bağlı təkliflərini irəli sürüblər, qanun layihəsi haqqında qeydlərini bildiriblər. Millət vəkilləri bir sıra ekoloji məsələlər, o cümlədən Hacıqabul gölünün mövcud vəziyyəti, quraqlığın kənd təsərrüfatına təsirləri, suvarma ilə bağlı problemlər, "yaşıl enerji"nin təşviq edilməsi barədə fikirlərini bölüşüblər.

Müzakirələrin sonunda komitənin 2023-cü il payız sessiyası dövründə gördüyü işlərə dair hesabatı məqbul sayılıb, 2024-cü ilin yaz sessiyası üçün işlər planı təsdiqlənib, "Su təchizatı və tullantı suları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda cari məsələlər müzakirə olunub.

*R.CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Bakı Şəhər Prokurorluğunun 2023-cü ilin yekunlarına dair əməliyyat müşavirəsi olub

**Yanvar ayının 17-də Azərbaycan Respublikasının baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə Bakı Şəhər Prokurorluğu və Bakı şəhərinin rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə 2023-cü ilin yekunlarına dair əməliyyat müşavirəsi keçirilmişdir.**





Müşavirə iştirakçıları tərəfindən öncə Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyünün təmini uğrunda aparılmış mübarizədə şəhid olmuş əsgər və zabitlərimizin ruhu 1 dəqiqəlik sükutla yad edilmişdir.

Müşavirəni giriş nitqi ilə açan baş prokuror Kamran Əliyev bildirmişdir ki, başa vurduğumuz 2023-cü il Azərbaycan dövləti və Azərbaycan xalqı üçün ən uğurlu illərdən biri olmuşdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük təntənə ilə qeyd edildiyi 2023-cü ildə ölkəmizin həyatında bir sıra önəmli hadisələr baş vermiş, bunlardan ən önəmlisi Azərbaycan Respublikasının bütün ölkə ərazisi üzrə suverenliyinin bərpa edilməsi olmuşdur. 2023-cü ilin oktyabr ayının 15-də, ölkəyə rəhbərlik etməsinin 20 illiyinin tamam olduğu gün isə cənab Prezident tərəfindən dövlət bayrağımız tarixi Azərbaycan torpaqları olan Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə qaldırılmışdır.

Çıxışda həmçinin qeyd edilmişdir ki, Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydanına çevrilmiş, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə şəhərlərimiz və kəndlərimiz yenidən qurulmaqla, beş mindən artıq keçmiş məcburi köçkün öz doğma yurd-yuvasına qayıtmışdır.

Çıxışda vurğulanmışdır ki, "Yaşıl dünya naminə həmrəylik ili" olan 2024-cü ildə növbədənkənar prezident seçkilərinin keçirilməsi və COP29 beynəlxalq konfransının Bakı şəhərində keçirilməsi prokurorluq orqanlarının, o cümlədən paytaxtın prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr qoyur.

Müşavirədə çıxış edən Bakı şəhər prokuroru Elşən Abbasov hesabat dövründə paytaxtın prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması, Baş prokurorun rəhbər göstərişlərinin icrası istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, 2023-cü il ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 15 min 759 cinayət hadisəsi qeydə alınıb ki, onların 87,4 %-nin açılması təmin olunub.

Bakı şəhərinin daxili işlər orqanları ilə birlikdə qarşılıqlı işgüzar münasibətlər qurulmaqla həyata keçirilən tədbirlər nəticəsində 2023-cü ildə törədilən 51 qəsdən adam öldürmə cinayətindən 50-nin və 23 qəsdən adam öldürməyə cəhd cinayətinin hamısının, həmçinin ötən illərdən bağlı qalan 1 qəsdən adam öldürmə cinayətinin açılması təmin edilmişdir.

Qeyd edilmişdir ki, ümumilikdə şəhərin prokurorluq orqanları tərəfindən hesabat dövründə 279 cinayət işinin ibtidai istintaqı tamamlanmış, onlardan 197 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilmişdir. Bakı şəhəri üzrə prokurorluq orqanları tərəfindən ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə dövlətə, fiziki və hüquqi şəxslərə vurulmuş 7 milyon 151 min 170 manat məbləğində maddi ziyanın 5 milyon 141 min 511 manatının və ya 71,9 %-nin ödənilməsi təmin olunmuşdur.

Həmçinin hesabat dövründə Bakı şəhərinin rayon prokurorluqlarının icraatında olan cinayət təqibi materialları üzrə qanunvericiliyə müvafiq olaraq şəxsin məsuliyyətdən azad olunması üçün dövlət büdcəsinə 442 min 748 manat pul vəsaiti ödənilmişdir.

Xidməti, icra və əmək intizamının pozulması hallarına qarşı tələbkarlıq artırılmış, şəhər prokurorluq orqanları əməkdaşlarından 6 nəfər intizam məsuliyyətinə cəlb olunmuş, onlardan 1 nəfərə töhmət, 3 nəfərə şiddətli töhmət verilmiş, 1 nəfərə irad tutulmuş, 1 nəfər tutduğu vəzifədən azad edilmişdir.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev şəhər prokurorluqlarının struktur qurumları və tabe rayon prokurorluqlarının hər birinin fəaliyyətini təhlil edərək cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti, müraciətlərə baxılması, vətəndaşların qəbulu, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində konkret tapşırıqlar vermişdir.

# Aqrar siyasət komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

**Yanvarın 17-də Milli Məclisin Aqrar siyasət komitəsinin 2024-cü ilin yaz sesssiyasında ilk iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Tahir Rzayev bildirib ki, 2023-cü il xalqımızın həyatında unudulmaz hadisələrlə əlamətdar olub. Ötən il Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi qeyd edilib, keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olunub, üçrəngli bayrağımız Xankəndidə və işğaldan azad olunmuş bütün ərazilərimizdə ucaldılıb, Xankəndidə keçirilmiş hərbi parad xalqımızın qələbə sevincinə sevinc qatıb.

Tahir Rzayev qeyd edib ki, iclasın gündəliyinə 4 məsələ daxil edilib. Gündəliyin birinci məsələsi - 2023-cü ilin payız sessiyası dövründə Milli Məclisin Aqrar siyasət komitəsində görülən işlər barədə hesabatı diqqətə çatdıran komitə sədri bildirib ki, ötən sessiyada komitənin 8 iclası keçirilib və 5 məsələ müzakirə olunub. Payız sessiyasında komitənin ünvanına daxil olmuş 62 məktub, təklif, ərizə və şikayətlə bağlı müvafiq tədbirlər görülüb. Hesabat dövründə komitə üzvləri Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar ölkədə və beynəlxalq miqyasda keçirilən tədbirlərdə yaxından iştirak ediblər, seçicilərlə, şəhid ailələri və qazilərlə görüşlər keçiriblər.

Hesabat nəzərə alındıqdan sonra komitənin 2024-cü ilin yaz sessiyası üçün iş planı ilə bağlı bildirilib ki, layihədə komitəyə daxil olacaq qanun layihələrinin və digər sənədlərin müzakirəsi, onlara rəy və təkliflərin hazırlanması nəzərdə tutulub. Həmçinin Vətən müharibəsi şəhidlərinin ailələrinin ziyarəti, qazilərlə, müharibə iştirakçıları ilə, seçicilərlə görüşlər, işğaldan azad olunmuş ərazilərimizdə aqrar sahənin inkişafı üçün vacib məsələlərin müzakirəsi və digər tədbirlər nəzərdə tutulub. Sonra komitənin iş planı təsdiqlənib.

Gündəliyin üçüncü məsələsi olan "Zeytun yağı və süfrə zeytunlarına dair 2015-ci il tarixli Beynəlxalq Saziş"ə qoşulmaq haqqında Azərbaycan Respublikası Qanununun layihəsi barədə Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin əməkdaşı Nəzrin Əliyeva məlumat verib.

Sonra iclasda "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) müzakirə olunub. Bildirilib ki, qanun layihəsinə təklif olunan dəyişikliklər, əsasən dəqiqləşdirmə xarakterli düzəlişləri ehtiva edir. Qanunun 24-cü maddəsinə təklif olunan əlavədə deyilir ki, "Aparılan qiymətləndirmə nəticəsində qida obyektlərində aşkar edilmiş uyğunsuzluqların infrastruktur və avadanlıqla əlaqəli olduğu və təhlükəli qida və yem məhsullarının istehsalına və emalına səbəb olacağı halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qida obyektinin təsdiqindən imtina edilməsi barədə qərar qəbul edir."

Qanun layihəsi barədə çıxış edən komitə üzvləri Sabir Hacıyev, Aydın Hüseynov, Novruzəli Aslanov, Azər Badamov, Müşfiq Cəfərov, Emin Hacıyev qanun layihəsinin ölkəmizdə qida təhlükəsizliyinin təmin olunmasındakı əhəmiyyətindən danışıblar.

Müzakirələrdən sonra qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasa yekun vuran komitə sədri Tahir Rzayev fevral ayının 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərinin ölkəmizin bütün suveren ərazisində keçiriləcək ilk seçkilər olacağını qeyd edib və xalqımıza uğurlar arzulayıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Beynəlxalq müşahidəçilərin seçkiyə böyük marağı var

Yanvarın 17-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini izləmək üçün ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyinin (MDB) Baş katibinin birinci müavini Leonid Anfimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Məzahir Pənahov qonaqları salamlayaraq görüşdən məmnunluğunu ifadə edib. Seçkilərdə aşkarlığın və şəffaflığın təmin olunmasında müşahidəçilik institutunun mühüm rol oynadığını vurğulayan MSK sədri rəhbərlik etdiyi ali seçki qurumunun beynəlxalq təşkilatlarla əməkdaşlığa daim xüsusi əhəmiyyət verdiyini diqqətə çatdırıb. O, beynəlxalq müşahidəçilərin Azərbaycanda keçirilən seçkilərə böyük maraq göstərməsini yüksək qiymətləndirib.

Səmimi görüşə görə minnətdarlığını bildirən MDB Baş katibinin birinci müavini Leonid Anfimov prezident seçkiləri ilə əlaqədar həyata keçirilmiş layihələr və görülmüş işlər barədə məlumat verilməsini xahiş edib.

M.Pənahov qarşıdan gələn seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində atılmış addımlar, reallaşdırılmış genişmiqyaslı layihələrdən danışıb, onları maraqlandıran sualları cavablandırıb.

Görüş çərçivəsində, həmçinin qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib və fikir mübadiləsi aparılıb.

## Müstəqil Media Mərkəzinə baxış keçirilib

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə hazırlanıb azad, ədalətli və şəffaf keçirilməsi, eləcə də müxtəlif statuslu seçki subyektləri üçün hərtərəfli şəraitin və geniş imkanların yaradılması istiqamətində intensiv şəkildə silsilə layihələr reallaşdırılır.



AZƏRTAC xəbər verir ki, yanvarın 17-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov qarşıdan gələn seçkilərlə əlaqədar fəaliyyətə başlayan MSK-nın "Seçki-2024" Müstəqil Media Mərkəzində olub. Komissiya üzvləri və Katibliyin təmsilçilərinin də iştirakı ilə Mərkəzə baxış keçirilib. MSK sədri yaradılmış şəraitlə yaxından tanış olaraq, yerli və beynəlxalq media nümayəndələrinin prezident seçkiləri ilə bağlı sərbəst və asan məlumat əldə etmələrinin, seçki prosesinin digər iştirakçılarına da daha effektiv və keyfiyyətli xidmət göstərilməsinin zəruriliyini vurğulayıb, bu barədə öz tövsiyələrini bildirib.

Sonra M.Pənahov həm Müstəqil Media Mərkəzinin fəaliyyəti, həm də, ümumiyyətlə, prezident seçkilərinə hazırlıqların gedişi barədə media nümayəndələrinə açıqlama verib.

Tədbir çərçivəsində diqqətə çatdırılıb ki, Müstəqil Media Mərkəzinin yaradılmasında başlıca məqsəd seçkilərdə aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin edilməsində mühüm rolu olan yerli və beynəlxalq media nümayəndələrinə daha geniş imkanlar yaratmaqdır. Mərkəz seçkiləri hərtərəfli, operativ və obyektiv işıqlandırmaqda, habelə məlumatları almaqda və dərhal ictimailəşdirməkdə onlara yardımçı olacaq. Media nümayəndələri müasir informasiya-kommunikasiya texnologiyaları və zəruri texniki avadanlıqlarla tam təchiz olunan Mərkəzdəki kompüterlərdən, telefon və faks aparatlarından, o cümlədən ödənişsiz internetdən sərbəst istifadə edə bilərlər.

Müstəqil Media Mərkəzinin internet səhifəsi (www.secki-2024.az) Azərbaycan, ingilis və rus dillərində müntəzəm olaraq seçkilərə dair ən son məlumatları təqdim edir. Seçki prosesi ilə bağlı müxtəlif məsələlər barədə səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, habelə açıqlama və bəyanatlar dərhal ictimailəşdirilir, foto və videogörüntülər yayılır.

## Ağdamda aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib



Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib.

AZƏRTAC xəbər verir ki, treninqlərdə 118 saylı Ağdam şəhər və 119 saylı Ağdam kənd seçki dairələrinin 118 məntəqəsi üzrə, ümumilikdə 700-dən artıq aşağı seçki komissiyası üzvünün iştirakı nəzərdə tutulur. Məşğələlər Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi "Trenerlər üçün treninq" kursunda iştirak etmiş trenerlər tərəfindən aparılır. Beş gün davam edəcək treninqlər gün ərzində iki dəfə olmaqla, hər sessiyada 36 nəfər məntəqə seçki komissiyası üzvünün iştirakı ilə keçirilir.

Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün seçki günü prosedurları barədə aydın və müfəssəl məlumatlar əldə edirlər. Hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunur.

## Şimal bölgəsində məntəqə seçki komissiyalarının üzvləri treninqlərə cəlb olunub

**Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib.**



AZƏRTAC xəbər verir ki, yanvarın 17-dən başlayaraq Şimal bölgəsində olan 55 saylı Siyəzən-Quba-Xızı, 56 saylı Şabran-Xaçmaz, 57 saylı Xaçmaz şəhər, 58 saylı Xaçmaz kənd, 59 saylı Quba, 60 saylı Quba-Qusar və 61 saylı Qusar seçki dairələri üzrə məntəqə seçki komissiyalarının üzvləri treninqlərə cəlb olunublar.

Seçki dairələrindən bildirilib ki, treninqlər Mərkəzi Seçki Komissiyasının Treninq qrupu tərəfindən hazırlanan cədvələ əsasən, təxminən 40 nəfərədək aşağı seçki komissiyası üzvünün iştirakı ilə qruplar şəklində keçirilir. Hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Prezident seçkilərinin yüksək səviyyədə hazırlanıb, azad, ədalətli və şəffaf keçirilməsində müstəsna rolu olan treninq layihəsi, ümumilikdə 38 minə yaxın aşağı seçki komissiyası üzvünü əhatə edir.

Treninqlər seçki dairələri üzrə məntəqə seçki komissiyalarının sayına müvafiq olaraq 3-10 gün ərzində keçiriləcək.

## Masallıda maarifləndirici treninqlər təşkil edilib

Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar olaraq, 73 saylı Masallı-Cəlilabad seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi üçün treninqlər keçirilib.



73 saylı Masallı-Cəlilabad seçki dairəsinin dairə seçki komissiyasının sədri İlkin Hüseynov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, treninqlər məntəqə seçki komissiyaları üzvlərinin bilik, bacarıq və peşəkar vərdişlərinin gücləndirilməsində, seçkilərə hazırlıq, seçkilərin keçirilməsi, məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkilində xüsusilə mühüm rol oynayır.

Gün ərzində iki dəfə keçirilən treninqlərdə seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı və yekun protokolun doldurulması haqqında ətraflı məlumat verilib, müzakirələr aparılıb və suallar cavablandırılıb.

Treninq zamanı, həmçinin səsvermə proseslərinə dair praktiki tapşırıqlar da icra edilib.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunub.

## Polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr olunan seminar-müşavirə

Prezident seçkiləri ilə əlaqədar olaraq, Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində Şirvan şəhərində polisin seçkilərdə xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr olunan növbəti seminar-müşavirə keçirilib.



AZƏRTAC xəbər verir ki, Şirvan Şəhər Gənclər Mərkəzində keçirilən müşavirədə Mərkəzi Seçki Komissiyasının, Daxili İşlər Nazirliyinin nümayəndələri, dairə seçki komissiyalarının sədrləri, Şirvan şəhər və ətraf rayonların polis şöbələrinin əməkdaşları, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun uzunmüddətli beynəlxalq müşahidəçiləri iştirak ediblər.

Seminar-müşavirə Mərkəzi Seçki Komissiyasının üzvü Bəxşeyiş Əsgərov və Şirvan Şəhər Polis İdarəsinin rəisi Füzuli Əhmədovun çıxışları ilə başlayıb. Bildirilib ki, ölkəmizdə seçkilərin təşkili sahəsində böyük təcrübə qazanılıb və əvvəlki illərdə olduğu kimi, budəfəki seçkilər də demokratik, ədalətli, şəffaf, beynəlxalq standartlara uyğun keçiriləcək.

Bəxşeyiş Əsgərov seçki qanunvericiliyi, seçki komissiyalarının sistemi, seçki prosesi, onun mərhələləri və müddətləri, seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyətinin əsasları barədə ətraflı danışıb.

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndəsi Sənan Əliyev seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı görüləcək təhlükəsizlik tədbirləri barədə məlumat verib. Qeyd olunub ki, növbədənkənar prezident seçkilərinin ölkə qanunvericiliyinin tələblərinə uyğun təhlükəsiz və demokratik şəraitdə keçirilməsi, seçki günü vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsi məqsədilə Daxili İşlər Nazirliyində müvafiq Tədbirlər Planı təsdiqlənib və icrası xüsusi nəzarətə götürülüb. Seçki kampaniyasının təbliğat-təşviqat mərhələsində, eləcə də səsvermə günü seçicilərin, beynəlxalq müşahidəçilərin və seçki prosesində iştirak edən digər subyektlərin təhlükəsizliyinin təmin edilməsi, hüquqlarının qorunması, polis əməkdaşlarının vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi riayət etmələri və digər bu kimi məsələlər nazirliyin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır. Diqqətə çatdırılıb ki, seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün dairə və məntəqə seçki komissiyaları nümayəndələrinin polisin fəaliyyəti ilə bağlı qaldırdıqları bütün məsələlər operativ qaydada həll olunacaq.

Mərkəzi Seçki Komissiyasının üzvü Tofiq Həsənov isə seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi barədə danışıb.

Seminar-müşavirənin sonunda müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Abşeronda məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər baş tutub

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar olaraq, Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində 50 saylı Abşeron üçüncü seçki dairəsi üzrə məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər keçirilir.



AZƏRTAC xəbər verir ki, treninqdə seçki dairəsinin tərkibində olan 42 seçki məntəqəsinin sədr və katibləri iştirak ediblər.

Mərkəzi Seçki Komissiyasının (MSK) "Trenerlər üçün treninq" kursunda iştirak etmiş dairə üzrə ekspert qrupunun rəhbəri Mətanət Abbasova bildirib ki, beş gün davam edəcək treninqlər gün ərzində iki dəfə olmaqla, məntəqə seçki komissiyası üzvlərinin iştirakı ilə keçiriləcək.

Treninqdə səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki günü prosedurları, səsvermə məntəqəsinin açılması, seçki materialları və avadanlığının, seçki qutularının hazırlanması, səsvermə prosesində müstəsna hallar, daşınan seçki qutusu ilə səsvermə prosesi, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə məlumat verilib.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunub.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

## Əziz seçicilər!

7 fevral 2024-cü il tarixində Azərbaycan Respublikasının vətəndaşları Prezident seçkisində iştirak edəcək və öz konstitusion hüquqlarından istifadə edərək ölkənin gələcək rəhbərini müəyyənləşdirəcəklər.

Bu Seçki ilk dəfə Xalq-Ordu birliyi nəticəsində ərazi bütövlüyü və suverenliyi təmin olunmuş ölkəmizin bütün ərazisini əhatə edəcəkdir. Uşaqdan-böyüyə şanlı Vətən müharibəsi Zəfərində payı olan qalib vətəndaşlarımız bu Seçkidə yeni qalibiyyət dastanı yazacaqlar.

Azərbaycanın sərhədlərinin tamlığı, suverenliyi, dünya birliyində layiqli yerini tutması, ölkədə demokratiyanın daha da inkişaf etməsi və vətəndaşlarımızın layiqli həyat səviyyəsinin təmin olunması üçün siyasi proseslərdə təmsil olunan Böyük Azərbaycan Partiyası bu seçkilərdə mənim namizədliyimi irəli sürmüşdür.

Bu böyük məsuliyyət və vəzifəni dərk edərək Prezident seçkilərində iştirak edirəm. Namizədliyim üçün mənə dəstək göstərmiş minlərlə partiya üzvümüz və vətəndaşlarımızın etimadını doğrultmaq ən böyük amalımdır. Seçki Platforması ilə tanış olduqdan sonra bu seçkilərdə mənə etimad göstərəcəyinizə inanıram.

Sizləri seçkilərdə fəal iştirak etməyə dəvət edirəm.




Böyük Azərbaycan Partiyasının Azərbaycan Respublikası Prezidentliyinə namizədi

# Elşad Musayevin Seçki Platforması

# Böyük və Güclü Azərbaycan Naminə!

### Dövlətçilik və qanunçuluq

- Dövlətin vətəndaşlar qarşısında vəzifə qoymaqla yanaşı, həm də vətəndaşın hüquqlarının layiqli təminatçısına çevrilməsi;
- Demokratik hüquqi bazanın təkmilləşdirilməsi, daha demokratik və qanuni prinsiplər əsasında idarəçiliyin həyata keçirilməsi;
- Dövlətin bütün vətəndaşlar qarşısında bərabər imkanlar yaratması və hər kəsin savadı, qabiliyyəti müqabilində cəmiyyətdə mövqe qazanmasına nail olunması;
- Qanunların icra mexanizmlərinin təkmilləşdirilməsi;
- Tutduğu vəzifədən asılı olmayaraq, hamının qanun qarşısında bərabərliyinin ədalətli təmin olunması;
- Məhkəmələrdə və digər hüquq-mühafizə orqanlarında yalnız qanunlara əsaslanan qərarların verilməsinə nail olunması.

### Azərbaycanın milli təhlükəsizliyi və ordu quruculuğu

- Ölkənin milli təhlükəsizliyinin bütün sferalarda layiqli təminatı;
- Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasının uğurla həyata keçirilməsi;
- Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsinin milli ideya kimi gündəmdə saxlanması;
- Qazax rayonuna aid 7 kəndin və Kərki kəndinin işğaldan azad olunması;
- Ermənistanın sülhə məcbur edilməsi, delimitasiya və demarkasiya proseslərinin həyata keçirilməsi;
- Zəngəzur dəhlizinin açılması, tarixi torpaqlarımızla, Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın pozulmuş hüquqları ilə bağlı məsələlərin gündəmdə saxlanılaraq həll olunması;
- İşğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması;
- Böyük Qayıdışın təmin olunması;
- Azərbaycanda güclü ordu quruculuğunun davam etdirilməsi, müasir silahlı qüvvələrin formalaşdırılması, Azərbaycan Ordusunun dünyanın ən güclü orduları siyahısında mövqeyinin möhkəmləndirilməsi;
- Silahlı qüvvələrin maddi-texniki təminatının ən müasir silahlarla daha da gücləndirilməsi;
- Azərbaycanın silah-sursat istehsalının təkmilləşdirilməsi və genişləndirilməsi.

### Sosial-iqtisadi inkişaf

- İşsizliyin aradan qaldırılması, yüksək əməkhaqqı, pensiya, müavinətlər, uşaq pulu vermək üçün ölkənin daha güclü iqtisadi inkişafına nail olunması;
- Neft-qaz strategiyasının uğurla davam etdirilməsi;
- Qeyri-neft sektorunun inkişaf etdirilməsi, xırda və orta biznesin stimullaşdırılması;
- Alternativ enerji resurslarının inkişaf etdirilməsi, "yaşıl enerji" strategiyasının reallaşdırılması;
- İnvestisiyaların təşviqi, sahibkarlığın inkişaf etdirilməsi, əlverişli biznes mühitinin təmin edilməsi;
- Xüsusi mülkiyyətin toxunulmazlığına təminat verilməsi;
- Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün dövlətin maliyyə dəstəyinin təmin edilməsi, kənd təsərrüfatı infrastrukturunun yenidən yaradılması;
- Turizmin inkişaf etdirilməsi;
- Regionların sosial-iqtisadi inkişafına nail olmaq üçün infrastrukturun yenilənməsi, yeni xidmətlər və istehsal sahələrinin, yeni iş yerlərinin yaradılması, yerli səviyyədə büdcələrin formalaşdırılması;
- Yoxsulluğun aradan qaldırılması üçün dövlət siyasətinin dərinləşdirilməsi;
- Dövlətin sosial müdafiə və sosial təminat xərclərinin artırılması, əməkhaqlarının və sosial ödənişlərin artım dinamikasına nail olunması;
- Şəhid ailələrinə, əlillərə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, uşaqlara, tələbələrə güclü dövlət dəstəyinin təmin edilməsi;
- Uşaqların daha yaxşı qidalanması, maddi və tibbi ehtiyaclarının təmin edilməsi, anaların sosial hüquqlarının genişləndirilməsi, çoxuşaqlı ailələrə dövlət dəstəyinin artırılmasına nail olunması.

### Təhsil, səhiyyə və mədəniyyət

- Azərbaycanda müasir təhsil infrastrukturunun formalaşdırılması, təhsilin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin əməkhaqqının artırılması;
- Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin kəskin artırılması;
- Gənclərin xaricdə təhsil almaları üçün dövlət proqramlarının genişləndirilməsi;
- Rəqəmsal transformasiya, süni intellekt, müasir texnologiyalar kimi dövrün çağırışlarına gəncliyin cəlb olunması;
- Müasir texnologiyaların tətbiq olunmasında gəncliyin rolunun artırılması və stimullaşdırılması;
- Vətəndaşların sağlamlığının qorunması, göstərilən tibbi xidmətlərin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi;
- Əhalinin bütün tibbi xidmətlərə və dərmanlara əlverişli şərtlərlə çıxışının təmin edilməsi;
- Səhiyyə infrastrukturunun müasir tələblərə uyğun yenidən qurulması;
- Əhalinin ödənişsiz dispanserizasiyasının davamlı təşkil edilməsi;
- İcbari tibbi sığorta sisteminin inkişafı və əhatə dairəsinin, xidmətlər zərfinin genişləndirilməsi;
- Azərbaycan mədəni irsinin qorunması üçün yeni proqramların başladılması;
- Ölkəmizin mədəniyyət infrastrukturunun davamlı inkişaf etdirilməsi;
- Kino və teatr sənətinin inkişafı üçün dövlət proqramlarının hazırlanması və tətbiqi;
- İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus mədəni irsin bərpasının davam etdirilməsi və bu irsin dünyada tanıdılması.

### Gənclər və idman

- Gənclərin cəmiyyətdə rolunun artırılması, milli ruhda tərbiyə alması, intellektual inkişafı, cəmiyyət həyatına inteqrasiyası, dövlət idarəçiliyinə cəlb olunması üçün dövlət dəstəyinin artırılması;
- Gənclərin məşğulluğu, biznes fəaliyyətinin təşkili, karyera quruculuğu üçün dövlətin diqqəti və dəstəyinin artırılması;
- Vətən müharibəsindəki şanlı Zəfərin əldə edilməsində Azərbaycan gənclərinin möhtəşəm rolu nəzərə alınmaqla vətənpərvərlik hisslərinin daha da gücləndirilməsi üçün xüsusi proqramlar həyata keçirilməsi;
- Gənclər arasında sağlam həyat tərzinin təşviqi, onların zərərli vərdişlərdən, kənar təsir və ideologiyalardan qorunması üçün proqramlar həyata keçirilməsi;
- Azərbaycan idmanına dövlət dəstəyinin daha da artırılması.

### Dövlət və ictimai münasibətlər

- Ölkədə mövcud siyasi dialoqun daha da dərinləşdirilməsi;
- Ölkənin taleyi və milli maraqlarla bağlı məsələlərdə ölkədaxili siyasi qüvvələrlə məsləhətləşmələrin aparılması;
- Kənar qüvvələrin hakimiyyətlə müxalifət, siyasi qüvvələr arasındakı münasibətlərə müdaxilə etmə cəhdlərinin qarşısının alınması;
- Ölkəmizə qarşı aparılan qərəzli və çirkin kampaniyalara qarşı iqtidar və müxalifətin birgə fəaliyyətinin təmin edilməsi.

### Xarici siyasət

- Azərbaycanın milli maraqlarına və beynəlxalq hüquqa əsaslanan müstəqil, prinsipial və təşəbbüskar xarici siyasət aparması;
- Vətən müharibəsindən sonra ölkəmizin xeyrinə yaranmış yeni reallığın beynəlxalq müstəvidə qəbul etdirilməsi;
- Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanımağa, eyni zamanda sülh müqaviləsi bağlamağa məcbur edilməsi;
- Vətən müharibəsi dövründə və sonra Azərbaycan diplomatiyasının uğurlu fəaliyyətinin davam etdirilməsi;
- Vətən müharibəsindən sonra bəzi xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı aparılan qərəzli və çirkin kampaniyanın qarşısının alınması üçün tədbirlər görülməsi;
- Azərbaycanın dünyanın aparıcı təşkilatlarında və tədbirlərində təmsil olunmasının, beynəlxalq təşkilatlara rəhbərlik etməsinin təmin olunması;
- Qardaş Türkiyə ilə strateji müttəfiqlik əlaqələrinin daha da dərinləşməsinin təmin olunması;
- Türk Dövlətləri Təşkilatının gücləndirilməsi üçün ölkəmizin səylərinin daha da artırılması;
- Vətən müharibəsi dövründə Azərbaycana dəstək verən ölkələrlə münasibətlərin daha da dərinləşdirilməsi;
- Azərbaycanın İslam həmrəyliyi prinsipinə və müsəlman ölkələrinin legitim maraqlarına dəstək verməsi;
- Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqa verdiyi dəstəyin davam etdirilməsi.

**Əziz seçici,**
**Böyük və Güclü Azərbaycan Naminə**
**ELŞAD MUSAYEVƏ**
**səs ver!**

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# 7 fevral 2024

# VARLI VƏTƏNDAŞ VARLI ÖLKƏ!





## Prezidentliyə müstəqil namizəd Əliyev Fuad Ağasi oğluna SƏS VER!

- ✓ MİLLİ BARIŞ, MƏSULİYYƏTLİ HAKİMİYYƏT
- ✓ PREZİDENT XALQIN XİDMƏTİNDƏ OLMALIDIR
- ✓ NEYTRAL AZƏRBAYCAN
- ✓ İNSAN ZƏKASI NEFT VƏ QAZDAN DAHA ƏHƏMİYYƏTLİDİR
- ✓ SİZ DAHA YAXŞI HƏYATA LAYİQSİNİZ
- ✓ KORRUPSİYA YOX, YÜKSƏK QİYMƏTLƏRƏ YOX, İNHİSARÇILIĞA YOX
- ✓ AŞAĞI VERGİ, DÖVLƏT QAYĞISI, LAYİQLİ MAAŞ
- ✓ VARLI VƏTƏNDAŞ - VARLI ÖLKƏ

## Prezidentliyə namizəd Fuad Əliyevin "Vətəndaş Birliyi" seçki qərargahının TEZİSLƏRİ

- ❖ AZƏRBAYCANDA PREZİDENT ÜSULİ-İDARƏSİNDƏ VƏTƏNDAŞ CƏMİYYƏTLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ.
- ❖ ÖLKƏ ƏRAZİSİNDƏ İDARƏ ETMƏDƏ REFORMALAR ÇƏRÇİVƏSİNDƏ PREZİDENTİN 7 REGİON ÜZRƏ NÜMAYƏNDƏLİYİN FORMALAŞDIRILMASI. MÖVCUD İCRA HAKİMİYYƏTLƏRİNİN SƏLAHİYYƏTLƏRİNİ BƏLƏDİYYƏLƏRƏ VERİLMƏSİ.
- ❖ ÖLKƏDƏ NAZİRLƏR KABİNETİN SƏLAHİYYƏTLƏRİ VİTSE-PREZİDENTLİK İNSTİTUTU İLƏ ƏVƏZ EDİLMƏSİ.
- ❖ QƏRBİ AZƏRBAYCANLILARIN SÜLH YOLU İLƏ QAYIDIŞI.
- ❖ ORDU QURUCULUĞUNDA ÇAĞIRIŞ SİSTEMİNDƏN İMTİNA, PEŞƏKAR DÖYÜŞ QABİLİYYƏTLİ ORDU QURMAQ.
- ❖ Aİ, ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATINA (ŞƏT) və AVRASİYA İQTİSADİ BİRLİYİNƏ (EURAZES) QOŞULMAQ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN GÖSTƏRİLMƏSİ VƏ TÜRK DİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIĞININ GÜCLƏNDİRİLMƏSİ.
- ❖ AZƏRBAYCANIN NEYTRAL ÖLKƏ STATUSUNUN RƏSMİ ELANI.
- ❖ NATO VƏ KTMT-yə BİTƏRƏF MÜNASİBƏTİN SAXLANMASI.
- ❖ MÜƏLLİMLƏRİN VƏ HƏKİMLƏRİN MAAŞLARIN ARTIRILMASI İLƏ TƏHSİL SİSTEMİNDƏ VƏ TİBDƏ KORRUPSİYAYA QARŞI ÜNVANLL İSLAHATLARIN APARILMASI. HƏKİM VƏ MÜƏLLİMLƏRİN 5 İLDƏN BİR ƏLAVƏ SERTİFİKASİYA İMTAHANLARININ LƏĞV OLUNMASI.
- ❖ ALİ TƏHSİL SİSTEMİNDƏ RƏQƏMSAL, HABELƏ İNNOVATİV VƏ NANO TEXNOLOGİYALAR ÜZRƏ MÜTƏXƏSSİSLƏRİN HAZIRLANMASINA XÜSUSİ DİQQƏTİNİN AYRILMASI. MÜHƏNDİSLİK VƏ İNFORMASİYA TEXNOLOGİYALARI KİMİ İXTİSASLARIN POPULYARLAŞDIRILMASI.
- ❖ AZƏRBAYCAN TƏHSİLİNDƏ 1985-Cİ İLDƏN ƏVVƏL DÜNYADA ƏN YAXŞI HESAB EDİLƏN ORTA MƏKTƏB TƏHSİLİ ƏNƏNƏLƏRİNİN BƏRPA EDİLMƏSİ. KURİKULUMDAN İMTİNA EDİLMƏSİ.
- ❖ İDARƏÇİLİK SİSTEMİNDƏ BÜROKRATİYANIN QARŞISINI ALMAQ MƏQSƏDİLƏ DÖVLƏT İDARƏLƏRİNİN MÜƏYYƏN QƏDƏR İXTİSARI.
- ❖ BAKI ŞƏHƏRİNİN VƏ DİGƏR BÖYÜK ŞƏHƏRLƏRDƏ 7 MƏRTƏBƏDƏN YÜKSƏK BİNALARIN TİKİLMƏSİNƏ RƏSMİ QADAĞAN EDİLMƏSİ.
- ❖ VƏTƏNDAŞLAR ÜÇÜN VERGİLƏRİN AZALDILMASI (ƏDV və GƏLİR VERGİSİ).
- ❖ ÇÖRƏK İSTEHSALI, SATIŞI VƏ QİYMƏTLƏRƏ NƏZARƏT DÖVLƏTİN İNHİSARÇILIĞINDA OLMASI.
- ❖ ƏHALİ ÜÇÜN YANACAQ VƏ ELEKTRİK ENERJİSİ QİYMƏTLƏRİNİN 2024-CÜ İL APRELİN 1-DƏN QİYMƏTLƏRİN AŞAĞI ENDİRİLMƏSİ.
- ❖ AZƏRBAYCANDA YAŞAYIŞ MİNİMUMUN, HABELƏ SOSİAL MÜAVİNƏT VƏ PENSİYALARININ ARTIRILMASI. İNFLYASİYA GÖSTƏRİCİLƏRİ NƏZƏRƏ ALARAQ, MİNİMUM ƏMƏKHAQQININ VƏTƏNDAŞLARININ MİNİMUM 500 MANATA QƏDƏR ARTIRILSIN. PENSİYA YAŞININ KİŞİLƏR ÜÇÜN 62, QADINLAR ÜÇÜN 59 YAŞI MÜƏYYƏN EDİLMƏSİ.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

## Azərbaycan Respublikasının Prezidentliyinə Namizəd

# Fazil Qəzənfər Oğlu Mustafa

### Ömür yolu

1965-ci il oktyabrın 19-da Naxçıvan şəhərində anadan olmuşdur. 1982-ci ildə Naxçıvan şəhərində 10 saylı orta məktəbi bitirib. 1982-1984-cü illərdə 5 saylı Naxçıvan tikinti trestində fəhlə işləmişdir. 1984-1986-cı illərdə keçmiş Sovet Ordusunda əsgər kimi həqiqi hərbi xidmət keçmişdir.

1986-cı ildə daxil olduğu Bakı Dövlət Universitetinin Hüquq fakültəsini 1991-ci ildə bitirmişdir.

Milli Azadlıq hərəkatında fəal iştirak etmiş, "Çənlibel", "Yurd", "Şimali Azərbaycan Tələbə İttifaqı" kimi birliklərin rəhbərliyində olmuşdur. AXC Hüquq fakültəsindəki dayaq dəstəsinin sədri, eyni zamanda SSRİ Tələbə-Hüquqşünaslar Assambleyasının İdarə heyətinin üzvü olmuşdur.

1991-1992-ci illərdə Azərbaycan Xalq Cəbhəsi sədrinin müşaviri, AXC Analitik Mərkəzinin rəhbəri vəzifələrində çalışmışdır.

1992-1993-cü illərdə Azərbaycan Respublikası Prezidenti Aparatının Dövlət-Hüquq şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1995-1998-ci illərdə Türkiyədə AXC sədrinin özəl təmsilçisi olmuşdur. 1998-2001-ci illərdə Azərbaycan Xalq Cəbhəsi Partiyası sədrinin müavini vəzifəsində çalışmışdır.

2001-2003-cü illərdə ikinci dəfə həqiqi hərbi xidmətə çağırılmış və döyüş bölgəsində baş leytenant rütbəsi ilə tağım komandiri vəzifəsində xidmət keçmişdir.

2003-cü ildə Böyük Quruluş Partiyasını təsis etmiş və ilk qurultayda həmin partiyanın başqanı seçilmişdir. 2006, 2009, 2012, 2016 və 2020-ci illərdə yenidən partiya başqanı seçilib.

2005-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında "Azərbaycan türklərinin dini-fəlsəfi dünyagörüşü: fəlsəfi aspekt" mövzusunda dissertasiya müdafiə edərək fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsini almışdır.

2008-ci ildən Azərbaycan Hüquqşünaslar Konfederasiyasının İdarə Heyətinin üzvüdür.

2020-2023-cü illərdə Azərbaycan Xüsusi Olimpiya Komitəsinin prezidenti olmuşdur.

Üçüncü, dördüncü və beşinci çağırışlarda 26 saylı Birinci Sabunçu seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisinə yenə də Birinci Sabunçu seçki dairəsindən deputat seçilmiş və hazırda Milli Məclisin Mədəniyyət Komitəsinin sədridir. F.Mustafa eyni zamanda Milli Məclisin İnsan hüquqları Komitəsinin üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında və TÜRK Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının üzvüdür.

3 monoqrafiyanın, 27 kitabın və onlarca elmi məqalənin müəllifidir.

Rus və ingilis dillərini bilir.

Evlidir, 2 övladı var.




## Giriş sözü

Siyasətə orta məktəb illərindən və milliyyətçi dalğadan gəlmişəm. Sonradan universitetdə tələbə hərəkatı və Qarabağda erməni separatizminə qarşı mübarizə prosesində SSRİ-nin dağılması və müstəqil dövlət quruculuğunun zərurətini dərk etməyə başladıq. Ona görə də Azadlıq meydanını dolduranda sevinirdik, "Qalx ayağa millət, boğmasınlar səsimizi, bir bayraq altında birləşdir bizi" oxuyaraq yolları birlikdə addımlayırdıq. Ərazi itkiləri ilə, qaçqın və köçkün əzabları ilə, siyasi təlatümlərlə də olsa, bu dövlət müstəqilliyi əldə olundu və yaxşı-pis dünyanın sayılan dövlətləri ilə bir cərgədə üçrəngli bayrağımızı dalğalandırmaqdan qürur duyduq. İllər sonra müstəqil dövlətimizin güc sahibi olması nəticəsində rəşadətli ordum Qarabağda tam və qəti qələbə qazandıq və Azərbaycan torpaqları işğaldan azad oldu. Nəticədə bu gün dövlət müstəqilliyimiz üçün əvvəlki təhlükələr arxada qalmışdır.

Azərbaycan insanı üçün dövlət müstəqilliyimizin tamamilə yeni mərhələsi başlayır və daha vacib dəyərlər önə çıxmaqdadır. İnsanlar mülkiyyət sahibi olaraq demokratik, ədalətli cəmiyyətdə zəngin yaşamağı arzulayırlar və bu əhvali-ruhiyyədə məhz kommunist rejimlərdə olduğu kimi, hamını bir yumruq kimi birləşdirən dövlət anlayışı deyil, sözün əsl mənasında, öz sərvətini hamıyla, hər bır Azərbaycan insanı ilə paylaşan, bölüşən dövlət anlayışı əhəmiyyət qazanmağa başlayır. Artıq bir zamanlar əksəriyyətimizin arzuladığı müstəqil dövlətin xidmətçisi olan Azərbaycan insanı bu dövlətin təhlükəsiz mühitdə və rifah içində yaşayan vətəndaşı olmaq istəyir. Bizlər məhz bu istəyi gerçəkləşdirməyə borcluyuq. Bizlər insanı, onun marağını hər şeyin üstündə görürük. Bu gün vətənini sevən milyondan artıq insan öz vətənində tapa bilmədiyi çörəyi başqa inkişaf etmiş ölkədə axtararsa, onları vətəni az sevməkdə günahlandırmaq olmaz. "Qürbətdə xan olunca, vətənində dilən gəz!" fəlsəfəsi bizim üçün cəfəng və mənasız fəlsəfədir. Vətən dilənib gəzmək üçün deyil, vətən azad və rifah içində yaşamaq üçündür. Biz Azərbaycana məhz bu anlayışı, bu düzəni gətirmək istəyirik.

Demokratiya, liberalizm, sərbəst bazar iqtisadiyyatı, insan haqları, informasiya çağı, birdən dördəcən irəliləyən sənaye çağı kimi anlayışları biz kəşf etməmişik. Bununla belə, bizim digərlərindən fərqimiz dünyada yaxşı olan nə varsa onu alıb özümüzünküləşdirərək, dünya ilə aramızdakı fərqi azaltmaqdır. Azərbaycanın təbii sərvətinə arxayın olub tənbəlləşən bir insan zümrəsini, istehsal edən, düşünən və yaradan insana çevirməliyik. Dövlətdən asılı olmayan, istehsalla məşğul olan insan daha azad və sərbəst ola bilir, rəqabətə girməyə daha dözümlü olur. Bu isə həm insanımızın, həm də dövlətimizin zənginləşməsinə səbəb olacaq.

Azərbaycanın əsas problemi tədricən siyasi dövlətdən liberal dövlətə istiqamətlənməklə həll oluna bilər. Buna görə də dövlətin funksiya və güclərinin məhdudlaşdırılmasının, fərdin hər şeydən üstün tutulmasının vacibliyini vurğulayaraq, eyni zamanda bütün milli azlıqların və etnik qrupların hüquqlarının qorunmasını diqqətə alaraq xalqın qeyd-şərtsiz hegemon olduğu liberal-demokrat sistemə keçid zəruridir. Liberal dəyərlərə əsaslanan dövlət olmadan, demokratiya və azadlığı mənimsəmədən, dünyadakı zənginlikdən kifayət qədər pay almaq mümkün deyildir. Bilinən həqiqətdir ki, dünyanın ən inkişaf etmiş ölkələri insan hüquqlarına, sərbəst bazar iqtisadiyyatına və demokratiyaya ən çox sahib çıxan ölkələrdir. Qloballaşan dünyada özümüzü dünyadan təcrid etməmək üçün Azərbaycanın dəyişməsi, IV Sənaye İnqilabı çağının tələblərini anlayan, məhz bu dəyərlərə söykənən bir ölkəyə çevrilməsi qaçılmaz bir reallıqdır.

Əziz seçicilər! Bir prezidentliyə namizəd olaraq bu yığcam platforma "1 həyati və 50 vacib məsələ" adlanır. Müstəqillik dövrümüzdə böyük uğurlara imza atdığımız məqamlar yetərincədir. Mənim üçün həyati məsələ TƏHSİLdir. Bütün problemlərin düyün nöqtəsinin təhsillə əlaqəli olduğunu nəzərə alaraq bu sahədə problemlərə daha çox diqqət ayırmağı zəruri sayıram. Digər tərəfdən də cəmiyyət həyatımızı əhatə edən digər vacib problemlərin həlli yollarını göstərərək dəstəyinizi qazanmağa çalışacağam.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# Prezidentliyə namizəd Zahid Orucun Seçki Platforması

**➔ Qalib Gələcəyə - HƏ!**
**➔ 4-cü Respublika: Azərbaycanın Qalib Yüz İli!**
**➔ Ən böyük sərvət İnsandır!**

*2024-cü il fevralın 7-də xalqımızın Zəfər tarixində ilk dəfə taleyüklü hadisə - prezident seçkiləri keçiriləcək. Azərbaycan dövlətçiliyinin öz inkişafında növbəti yeni tarixi mərhələyə qədəm qoyacaq bu seçkilər bütün mənalarda xüsusi əhəmiyyətə malikdir. Seçkilərdə mən üçüncü dəfə namizədliyimi irəli sürmüşəm və qarşıdakı illərdə Azərbaycanın inkişafına dair ideya və baxışlarımı seçicilərə təqdim edirəm.*

### ➔ Qalib vətəndaşa müraciət

İlk olaraq mediada, ictimaiyyətdə mənə ünvanlanan və ünvanlanacaq: namizədliyimi 3-cü dəfə nə üçün irəli sürməyimlə bağlı sualı qısa cavablandırıram.

Azərbaycan torpaqlarını otuz illik işğaldan azad edən, Vətən müharibəsində qalibiyyət və Zəfər tarixini yazan xalqımıza hər zaman həqiqətləri söyləməyə çalışdıq. Siyasət səmimiyyəti əsla inkar etmir.

Hazırda dünya və ölkəmiz, bütün qlobal münasibətlər sistemi tamamilə dəyişib, əhatəmizdə tamamilə yeni reallıq yaranıb. Bu gerçəklik nəinki 90-cı illər, hətta 2018-ci ildəki seçkilərlə müqayisə edilə bilməz. Tariximizdə ilk dəfə, müstəqillik dövründə bütün seçkilərdə namizədlərin öz proqramlarında ayrıca vurğuladığı ümummilli problem: "Qarabağ münaqişəsi, onun həlli yolları" habelə "Qaçqın və məcburi köçkünlər" adlanan bəndlərin yer almadığı seçki prosesində iştirak edirik! Yaranan yeni tarixi reallığın ilk fərqli xüsusiyyəti budur.

Bu seçkilərə qədər Qarabağda Azərbaycanın prezidenti seçilməyib, indi tam suverenliyimizin təmin edildiyi bu ərazilərin əsl sahibləri ilk dəfə səs verəcək. Hesab edirik ki, Konstitusiyamızda qeyd edilən vahid hüquqi-siyasi, legitim məkanın bütövləşdiyi şəraitdə seçkilərə namizəd və səsverən vətəndaş kimi qatılmaq tarixi hadisədir, hər bir insanın tərcümeyi-halının parlaq səhifəsidir.

Dünyanın əksər dillərində eyni səslənən "Qələbə-qələbədir! Hər zaman alqışlanır!" deyimi var. Əksər sazişlərdə, sülh danışıqlarında onu "qazan-qazan" modeli də adlandırırlar.Yəni prosesdə iştirak edən bütün tərəflər qazanır, hamı uduşlu vəziyyətdə qalır. Seçkilərdə namizəd kimi iştirakımız bu deyimlə də izah edilə bilər. Hesab edirik ki, dövlətimizin qarşıdakı daha möhtəşəm hadisələrinə vəsilə olacaq 7 fevral seçkilərindən məhz bütün xalqımız, hər kəs qazanması üçün, hər kəs seçkilərə namizəd kimi qoşulması öz Konstitusion hüquqlarından biridir.

Bu fikri - dünyada ümumi geosiyasi fon və Azərbaycanla bağlı davam etdirərək, tarixi paralellərdə aydın görmək olar. Artıq, nəinki, 90-cı, 2000-ci, 2010-cu, hətta 2020-ci illərlə belə müqayisələr qeyri-məqbuldur. Bunlar bəşəriyyətin arxada qoyduğu tam bir epoxadır. Yeni dövrün konturları yeni təqvimdə, rəqəmlərdə deyil, baş verən cahanşümul proseslərdə aydın sezilir. Baş verənlər yüz il əvvəlki tarixlə səsləşən proseslərdir.

**ZAHİD ORUC MƏHƏRRƏM OĞLU**

Zahid Məhərrəm oğlu Oruc, ötən əsrin 50-ci illərində deportasiya olunan valideynləri Gədəbəy rayonu Əli İsmayıl kəndində məskunlaşdıqdan sonra 01 fevral 1972-ci ildə sadə zəhmətkeş ailədə dünyaya göz açıb. Orta və ali məktəbi əla qiymətlərlə başa vurduqdan sonra AMEA-nın Fizika İnstitutunda elmi işçi kimi əmək fəaliyyətinə başlayıb. Gənc yaşlarından aktiv siyasi proseslərdə iştirak edib.

2001-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin ən gənc deputatlarından biri seçilib. Parlamentin daxili və beynəlxalq münasibətlər sistemində, o cümlədən ölkəmizin ictimai-siyasi həyatında ən aktiv çalışmalarına, mühüm qanunvericilik təşəbbüsləri və xalqımızın həyati mənafelərinə uyğun olan çıxışlarına görə 22 il ardıcıl olaraq, Jurnalistlər Birliyi tərəfindən müəyyənləşdirilən 10 fəal millət vəkillərindən biri olub.

Zahid Oruc, Kütləvi İnformasiya Vasitələrində mütəmadi siyasi məqalələri ilə çıxış edərək son 30 ildə millətimizin Qarabağ Zəfərinə gəldiyi bənzərsiz yola, Ermənistanla aparılan hərbi-siyasi savaşa özünəməxsus töhvələr verən dövlət adamlarından biridir. O, xüsusilə də 2020-ci ilin 44 günlük müqəddəs müharibəsinin aparılması zamanı rəhbərlik etdiyi Sosial Tədqiqatlar Mərkəzi ilə birlikdə hazırladıqları elmi-analitik əsərlərlə, informasiya hücumu ilə ümumxalq mübarizəsinə faydalar verməyə, düşmən üzərində Qələbədə beyin mərkəzlərinin üzərinə düşən tapşırıqları uğurla yerinə yetirməyə çalışıb.

Zahid Oruc, keçmiş məcburi köçkünlərin daha çox məskunlaşdığı Bərdə rayonunun əhalisinin imanlı, mürvətli, ədalətli və yüksək dövlətçilik idealları ilə fərqləndiklərini hər zaman fəxarət hissi ilə deyir, belə dəyərləri daşıyan insanlara xidmətdən qürur duyduğunu söyləyir. O, 5 dəfə Milli Məclisə seçilməklə xalqın ona göstərdiyi etimadı hər zaman doğrultmağa çalışıb.

Milli Məclisinin İnsan Hüquqları komitəsinin sədri və əfv Komissiyasının üzvü kimi o, vətəndaşlarımızın hüquqi mənafelərinin qorunmasında hər zaman prinsipiallıqla iştirak etməyə çalışır. Xüsusilə də şəhid ailələri, Vətən müharibəsində yaralanan və iştirak edən qəhrəman igidlərimizin problemlərinə diqqət onun gündəliyində birinci yerdə dayanır.

Ailəlidir, iki övladı var.

Zahid Oruc, milli dəyərlərlə sədaqətini hər zaman belə bir devizlə-"ailə kiçik dövlət, dövlət böyük ailədir" sözləri ilə ifadə edir.O, 85 yaşlı Anasını Göyçə və Zəngəzur doğmalığının simvolu - göz bəbəyi kimi qorumağa çalışır.

Zahid Oruc 7 fevral 2024-ci ildə keçirilən seçkilərə 8 noyabr Zəfər və 20 sentyabr Bütövlük gününün-misilsiz tarixi Qələbəmizin davamı hesab edir.



**7 FEVRAL 2024-CÜ İL SEÇKİLƏRİ - ŞANLI ORDUMUZUN XANKƏNDİ PARADININ DAVAMINA QOŞULARKƏN BİZİM MƏRAMIMIZ NƏDİR:**

**PREZİDENT SEÇKİLƏRİ BÖYÜK ZƏFƏR MİSSİYASININ HƏYATA KEÇİRİLMƏSİNDƏ AZƏRBAYCAN XALQININ MİLLİ İRADƏSİNİN TƏSDİQİDİR.**

**QALİB GƏLMƏK ÜÇÜN – "QARABAĞ AZƏRBAYCANDIR!" ŞÜARI ƏTRAFINDA BİRLƏŞMƏYİMİZ VACİB İDİSƏ, YENİ DÖVRDƏ YENİ İDEYA, YENİ ŞÜAR, YENİ HƏDƏF MÜƏYYƏNLƏŞDİRİLMƏLİDİR.**

**YENİ DÖVRÜN DÜŞÜNCƏ İNFRASTRUKTURUNUN İNŞASI, GƏLƏCƏYƏ BAXIŞ KONSEPSİYASI – ZƏFƏR BAXIŞLARININ MƏCMUSUNA SÖYKƏNMƏLİDİR.**

**7 FEVRAL SEÇKİLƏRİNDƏ ZƏFƏR KONSEPSİYASINI ƏSAS TUTARAQ YENİ AZƏRBAYCAN MODELİ İLƏ BAĞLI İDEYALAR BÜTÜNÜNÜ GENİŞ İCTİMAİYYƏTİN DİQQƏTİNƏ ÇATDIRMAQ İMKANINI ƏLDƏ EDƏN, DÖVLƏT İDARƏÇİLİYİNDƏ MÜHÜM ROL OYNAYAN TƏDQİQAT-BEYİN MƏRKƏZİNİN RƏHBƏRİ KİMİ ZAHİD ORUC UĞURLU SEÇKİ KAMPANİYASI HƏYATA KEÇİRMƏKLƏ AZƏRBAYCANIN TARİXİ-SİYASİ YADDAŞINDA SİLİNMƏZ İZ QOYA, GƏLƏCƏK AZƏRBAYCANIN İNŞASINA MÜƏYYƏN TÖHFƏ VERƏ BİLƏR.**

Bu baxımdan, seçkilərə mütləq olaraq qalib gəlmək üçün qatılmaq ritorikası kökündən yanlışdır. Dünyada yüzlərlə olimpiadalar, bilik və idman yarışları keçirilir. Burada heç kim əvvəlcədən qalib olmayacaq deyə qatılmıram düşüncəsində olmur.

Amerikanı "Böyük Depressiya"dan çıxarıb "Yeni Amerika" quran prezident F.Ruzvelt növbəti seçkilərə gedəndə deyirdi: "Məni seçkilər maraqlandırmır, mən dövlət əhəmiyyətli məsələlərlə məşğulam! Mən Amerika xalqına "Yeni Kurs" vəd edirəm. Bu, sadəcə seçki deyil. Yeni Amerika uğrunda səfərbərliyə çağırışdır!"

F.Ruzvelt sayca 4-cü qələbəsindən həmən sonra, andiçmə mərasiminin səhərisi Yaltaya-yeni dünya düzənini qurmağa gəlmişdi.

Bu gün də, hazırda mövcud dünya nizamının dağılması prosesləri olduqca sürətlənib. Bu çağırışlara cavab verə bilməyən ölkələr nəinki həmişəlik geri qala, hətta siyasi xəritədən yox ola bilərlər. Otuz il əvvəl məhz bu proseslərin şahidi olduq, bəzi dövlətlərin adı yalnız tarixdə qaldı. Otuz il boyu, 2020-ci ilin Zəfər Gününə qədər biz müharibə şəraitində yaşamışıq, artıq başqa -quruculuq, yaradıcılıq dövrü başlayır.

Hər zamanın öz hökmu, çağırışları, öz bayraqdarı, öz sınağı, tələbləri, həll yolları var. 7 fevral, 2024-cü ildən müasir tarixdə qalib Azərbaycanın yeni yüz ilinin başlanğıc nöqtəsi olacaq.

80-nə yaxın ölkənin qoşulduğu qlobal seçki marafonunda Azərbaycanın ən öndə gedəcəyi seçkilərdə 7 illik sabit bir zaman müddəti üçün dövlətimizin yeni quruculuq mərhələsini şəkilləndirmək, region və dünyada gedən proseslərdən ən uduşlu şəkildə çıxması üçün namizəd kimi öz baxışımızı təqdim etməyi vətəndaş borcu hesab edir, baxışlarımızı Azərbaycan seçicisinə təqdim edirik. Hər kəsi də yeni dünya düzənində Azərbaycanın layiqli yer tutması uğrunda quruculuqda iştiraka, tarixi vəzifələrlə bağlı baxışlarını bildirməyə dəvət edirik!

Xalqımız məğlub xalqdan - Qalib Xalqa, "Hər şey Qarabağ üçün!" sədası isə- "Qalib Kimlik" zirvəsinə ucalıb.

Bütün səviyyələrdə dağılan dünya nizamında, laxlayan beynəlxalq təşkilatlar, barış üçün yaradılan, lakin qərəzli qətnamələrin və savaşın tribunasına çevrilən BMT institutları, insan hüquqlarını, humanitar hüquqları boş şüara çevirən qəddar müharibələr və s. debatlarda qarşıdurmalar, radikal siyasi ritorika, "əlbəyaxa" səhnələr, qərəz və ittihamlar və s. seçki paradiqmaları - bunlar artıq köhnəlib.

## Bizim hamımıza qalib Azərbaycan, qalib vətəndaş lazımdır - 3 cü yol!

Müstəqil namizəd kimi, hər kəsi "müxalifət-iqtidar qütbləşməsinin" fövqündə, hər kəsi yeni mərhələdə - yeni ölkə quruculuğunda fəal iştiraka dəvət edirik. Əminik ki, güclü ölkə - məhz güclü, fəal vətəndaşları ilə qurulur. Dünyada siyasi spektrin hər yerindən səsləri cəlb edən "3-cü tərəf/ yol" nümunəsi kifayət qədər rast gəlinən, əhalinin əhəmiyyətli hissəsinin qoşulduğu hərəkatlar və s. var.

Namizədlər arasında siyasi mədəniyyət, indi ilə keçmiş arasında sivil mübarizə formatında deyil, səngər məntiqi, mübahisələr, 90-cı illərin qütbləşmə zehniyyəti ilə düşünmək, yalnız hər birimizin deyil, həm də quracağımız böyük gələcək üçün ayırdığımız vaxtın itkisi deməkdir.

## Daxili siyasət

### ➔ Yeni: IV Respublika quruculuğu, Azərbaycanın Qalib Yüz İlinin inşası

Azərbaycanın yeni qalib yüz ilini, respublikanı birgə inşa edək!

Məlum deyimə görə, dünyada hər şeyin öz vaxtı var: savaşın öz vaxtı, sülhün və quruculuğun vaxtı. Qalib ölkəmizdə sülh və quruculuq vaxtıdır. Bu ilk növbədə tamamilə yeni qlobal və milli çağırışlara cavab verməyə qadir dövlət quruculuğudur. İndi quruculuq vaxtıdır. Bütün dünya güclərinin qarışdığı bir savaşı udan bir xalq öz firavanlığını təmin edən dövləti qurmağa qadirdir.

Əsrlər boyu yaşamış, əcdadlarımızın neçə nəsillərinin dövlətçilik arzuları müstəqilliyin bərpası ilə reallaşıb. 44 günlük müharibədə 30 illik işğal tarixinə son qoymaqla tam suverenliyini təmin etmiş Azərbaycan, dünyanın hər yerində hələ də haqsızlıqla üzləşən xalqlar üçün ədalət və ümid simvolu, işıq saçan ideyadır. Müzəffər Ordumuzun, şəhidlərimizin qanı ilə yazılan Zəfərimiz, XXI əsrin yeganə Qalib xalqı adı - milli gücümüz, qazandığımız misilsiz sərvətimizdir. Bu gün dövlətçilik tarixində ilk dəfə müstəqillik dövrünü nəinki 30 ildən çox qoruya bilən, hətta 30 illik işğala belə son qoyan ən güclü bir Azərbaycan var.

Bu əsasdan çıxış edərək, Azərbaycanda yeni siyasi eranın-IV Respublika quruculuğunun başlanmasını həm tarixi-epoxal, həm siyasi-ideoloji, həm də hüquqi-konstitusional əsaslara malik olmasını bəyan edir, ictimaiyyətin nəzərinə təqdim edirik.

Son otuz ildən çox müddətdə dövlətimizin bütün gücü ümummilli problem-Qarabağın azadlığı yönündə ortaya qoyulub. Onun qalibiyyətli həlli - qarşıdakı yeni milli hədəfləri müəyyən etməyə imkan yaradıb. Bu seçkilərin taleyüklü amalı tamamilə fərqlidir, görüləcək bütün bu işlər artıq 7 fevral seçkiləri və sonrası yeni məzmunla dolacaq. IV Respublikanın strateji hədəfləri bəlli olacaq.

### ➔ Fevralın 7-də qarşıdakı yeddiillik dövrdə inkişafımızı müəyyən edəcək böyük hədəflərlə bağlı xalqın yüksək diqqətinə hansı milli gündəliyi təklif edirik?

Əhatədəki qlobal çağırışlar imperiyaların çökdüyü, yeni dünyanın yarandığı tarixlə analogiya təşkil edir. Mövcud geosiyasi düzən dağılır, yenisi isə yaranmayıb. Onu yaradanlardan biri də Azərbaycandır. Biz xalqımızı daha təhlükəsiz və firavan sağlam gələcəyə apara biləcək yeni mərhələyə yeni strategiya, proqram və əzmlə başlayırıq.

Yeni dünya nizamının formalaşması ilə eyni dövrə təsadüf edən yeni dövlət: 4-cü Respublika quruculuğu yönündə - fikir, düşüncə, ideyalara geniş meydan açmaqdır.

"Azərbaycan möcüzəsi" əsri, Azərbaycan əsri-reallaşmağa qadirdir. Xalqımız "Sinqapur, Yaponiya möcüzələri" kimi nümunələr yaratmağa hazırdır. Yeri gəlmişkən, bu möcüzələrin yaradılmasına ən azı 4-5 onilliklər lazım olub.

Təkrar edək ki, bəli, müharibədə qələbə, mövcud iqtisadi göstəricilər, Ermənistanla qarşıdan gələn sülh müqaviləsinin imzalanacağı və sülhün verəcəyi potensial nəhəng imkanlar, ümidlər və s. bu proseslərin ən yüksək nəticə ilə bitəcəyinə əsas yaradır.

Bizim seçki proqramımız - ölkənin qarşıdakı inkişafı ilə bağlı baxışlarımız fərqlidir.

Bizim baxışımız Ədalətin Zəfər çaldığı IV Respublika inşasına çağırış, dəvətdir. Yeni dövlət quruculuğunda problemlərlə mübarizə deyil, onların üzərində köklü şəkildə qələbə çalan idarəçilik infrastrukturu bərqərar ediləcək. 30 illik ədalətsizliyi yox edən, haqqını bərpa edən, qələbə çalan bir xalq üçün problemlər üzərində qələbə çalmaq - bu mümkün məsələdir.

**IV Respublika - ədalət prinsiplərinə əsaslanan yeni siyasi eranın inşa edilməsidir. Tarix və təcrübə göstərir ki, inkişaf, rifah və iqtisadi uğur ədalətin hakim olduğu, hamının qanun qarşısında bərabərliyi və qanunun aliliyi ilə bilavasitə bağlıdır. Bu o deməkdir ki, Zəfərimizlə yanaşı, fundamental, ən başlıca dəyər - ədalətdir, insanların ədalət gözləntisi əsas dəyərə çevrilməlidir.**

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# QALİB XALQIN QALİB LİDERİ!

**2024-cü il fevralın 7-də Azərbaycan Respublikasında Prezident seçkiləri keçiriləcək.**

**2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atmışdır. Son 20 ildə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu yüksəlmiş, dünyada strateji əhəmiyyəti artmışdır.**




## Sosial dövlət, vətəndaş rifahı

2003-2023-cü illərdə dövlətin sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artmış, orta aylıq nominal əməkhaqqı isə 12 dəfə yüksələrək 923,1 manata çatmışdır. Son beş ildə 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunmuş, minimum pensiya məbləği 2,5 dəfə, orta pensiya məbləği 2,1 dəfə, sosial müavinət və təqaüd ödənişləri 5 dəfəyə yaxın artmışdır.

Ötən dövrdə 2,7 milyondan çox yeni iş yerinin yaradılması sosial siyasətin ən böyük uğurlarındandır. Yüksələn gəlirlər sayəsində banklara qoyulan əmanətlərin həcmi 50 dəfədən çox artaraq 12,9 milyard manatı ötmüşdür.







*Qarşıdakı 7 ilin hədəfləri:*

- ☑ Hər kəsə çəkdiyi zəhmətin daha layiqli dəyərini alması üçün imkanlar yaradılması;
- ☑ Dövlətin təqdim etdiyi imkanlardan bərabər faydalanmaq üçün yeni mexanizmlər və innovativ həllərin tətbiq olunması;
- ☑ Dayanıqlı və yüksək gəlirli iş yerlərinin ümumi məşğulluğa töhfəsinin davamlı artırılması;
- ☑ Məşğulluqda yüksək bilik və bacarığı olan peşəkarların payının əhəmiyyətli dərəcədə artırılması;
- ☑ Hər bir vətəndaşın özəl sektorda biliyinə, bacarığına və marağına uyğun iş seçimi imkanlarının artırılması;
- ☑ Cəmiyyətin ehtiyacı olan hər bir üzvünün davamlı və əlçatan qayğı ilə tam əhatə edilməsi, hər bir vətəndaşın sosial xidmətlərə əlçatanlığının davamlı yaxşılaşdırılması;
- ☑ Dövlət qayğısı və sosial müdafiə sahəsində ünvanlılığa diqqətin artırılması, əhalinin sosial təminatının gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması.

## İqtisadi inkişaf

2003-2023-cü illərdə Azərbaycan iqtisadiyyatı 3,6 dəfə artaraq 123 milyard manatı ötmüşdür. Milli iqtisadiyyatın strukturu əhəmiyyətli dərəcədə yaxşılaşmış, qeyri-neft-qaz sektoru 3,5 dəfə, qeyri-neft-qaz sənayesi 4,3 dəfə, kənd təsərrüfatı isə 2,1 dəfə böyümüşdür. İnformasiya və rabitə sektorunda yaradılmış əlavə dəyər 20,9 dəfə, turizm və ictimai iaşə sektorunda 17,5 dəfə, nəqliyyat sektorunda 4,1 dəfə artaraq qeyri-neft-qaz iqtisadiyyatının inkişafına mühüm töhfə vermişdir.

Azərbaycan özünün iqtisadi müstəqilliyini tam təmin edən ölkəyə çevrilmiş, dövlətin maliyyə imkanları əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. 2003-cü ildə 1,6 milyard ABŞ dolları təşkil edən strateji valyuta ehtiyatları 43 dəfə artaraq 68,5 milyard dollara çatmışdır.







*Qarşıdakı 7 ilin hədəfləri:*

- ☑ Sosial-iqtisadi modelin məzmununu və strukturunu keyfiyyətcə yeni prinsiplər əsasında qurmaqla, iqtisadiyyatın sürətli və dayanıqlı artımının təmin edilməsi;
- ☑ İqtisadi idarəetmənin müasirləşdirilməsi, inkişafın hərəkətverici qüvvəsi olan yaradıcı, rəqabətqabiliyyətli və məhsuldar sahibkar sinfinin gücləndirilməsi, yeni bilik və texnologiya gətirən özəl təşəbbüslərin, o cümlədən birbaşa xarici investisiyaların təşviq olunması;
- ☑ Daha sağlam rəqabətə əsaslanan, maneəsiz, tam şəffaf və sağlam biznesin inkişafına hərtərəfli dəstək göstərilməsi, dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi;
- ☑ İqtisadiyyatın müxtəlif sektorları, o cümlədən kənd təsərrüfatının, emal sənayesinin, bərpaolunan energetikanın, tibbin və turizmin müqayisəli üstünlüyə malik sahələrində dəyər zəncirinin formalaşdırılması;
- ☑ İnnovasiya yönümlü ideyaların təşviqi üçün dövlət dəstəyinin gücləndirilməsi.

## Böyük qayıdış

2021-2023-cü illərdə Qarabağ və Şərqi Zəngəzurda layihələrin həyata keçirilməsinə 7 milyard dollar ayrılıb, 2024-cü ildə dövlət büdcəsindən bu məqsədlər üçün minimum daha 2,4 milyard dollar vəsait yönəldiləcək. 2022-ci il iyulun 19-dan bu günədək iki şəhərə (Laçın və Füzuli şəhərləri) və üç kəndə (Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) 4516 keçmiş məcburi köçkün qayıdıb, bu, 1134 ailə deməkdir. Dövlət Proqramına əsasən, ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi planlaşdırılır. İşğaldan azad edilmiş 8 şəhərin Baş planı hazırlanıb.

Heydər Əliyev Fondu 10-dan çox məscidi yenidən tikir və ya əsaslı şəkildə bərpa edir.

*5 otel və konqres mərkəzi yenidən qurulub, bərpa edilib və istismara verilib;*

*Füzulidə və Zəngilanda beynəlxalq aeroportlar istifadəyə verilib, Laçın rayonunda aeroportun tikintisi sürətlə davam edir;*

*Ümumi uzunluğu 2138 kilometr olan 22 yol layihəsindən 7-nin tikintisi artıq icra olunub;*

*Uzunluğu 47,1 kilometr olan Bərdə-Ağdam və 110,4 kilometrlik Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi davam etdirilir;*

*12 hidroelektrik stansiyanın tikintisi və ya bərpası davam etdirilir;*

*Təmir və bərpa işlərindən sonra Suqovuşan və Xaçınçay su anbarları istismara verilib.*

*Qarşıdakı 7 ilin hədəfləri:*

- ☑ Ərazilərin minalardan təmizlənməsinin davam etdirilməsi;
- ☑ Təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili;
- ☑ Ərazilərdə müasir yaşayış məntəqələrinin - şəhər, qəsəbə və kəndlərin tikintisi;
- ☑ Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması;
- ☑ Əhalinin geri qayıdışının və dayanıqlı məskunlaşmanın təmin edilməsi, bu məqsədlə ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası;
- ☑ Ərazilərdə Azərbaycan xalqının milli-mədəni irsinin bərpası;
- ☑ Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi.

## Kənd təsərrüfatı

Azərbaycanda aparılan aqrar islahatlar kənd təsərrüfatının rəqəmsal transformasiyasına, qabaqcıl aqrotexnologiyaların, o cümlədən "yaşıl" metodikaların və becərilən torpağın hər hektarından məhsuldarlığı əhəmiyyətli dərəcədə artırmağa imkan verən qənaətli suvarma sistemlərinin tətbiqinə yönəldilib. Azərbaycanın aqrar sektorunun modernləşdirilməsi nəticəsində ərzaq idxalının əvəzlənməsi (taxıl məhsullarından başqa) sahəsində 80 faiz irəliləyiş əldə olunub, FAO bu göstəriciyə görə Azərbaycanı yüksək rifaha malik ölkələr siyahısına daxil edib.

Azərbaycanda bütün un növləri ilə özünütəminat səviyyəsi 93,3 faiz, buğda ilə təminat isə 56,7 faiz olub. Bu gün Azərbaycan özünü meyvə, tərəvəz, bostan məhsulları və yumurta ilə yerli istehsal hesabına 100 faiz təmin edir. Ət və süd məhsulları üzrə özünütəminat 83-86 faiz səviyyəsindədir. Hazırda Azərbaycanda 51 aqropark fəaliyyət göstərir.




## Müstəqil xarici siyasət

Ötən illər ərzində Azərbaycanın xarici siyasətində mühüm nailiyyətlər əldə edilmiş, ölkəmizin beynəlxalq nüfuzu daha da yüksəlmişdir. Vətən müharibəsində qazanılmış tarixi Zəfər təkcə döyüş meydanında deyil, həm də diplomatik cəbhədə Azərbaycanın gücünü və potensialını aydın göstərmişdir.

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və 27 il kağız üzərində qalmış qətnamələrin icrasını Azərbaycan özü təmin etmişdir.

Vətən müharibəsində şanlı Zəfər qazanmış Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması üçün beynəlxalq hüquqa əsaslanan 5 əsas prinsipi təqdim etmişdir.

Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınmış, bir çox uğurlu beynəlxalq layihələrə imza atmış, təşəbbüslərlə çıxış etmiş, regional liderliyini daha da möhkəmləndirmişdir. Azərbaycan 155 ölkənin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, 2019-2023-cü illərdə isə BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik edərək bir sıra institusional yeniliklərin müəllifi olmuş və Hərəkatın beynəlxalq çəkisinin artmasında əhəmiyyətli rol oynamışdır.

Azərbaycan COVID-19 pandemiyası ilə qlobal mübarizədə ön sıralarda olmuş, BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı xüsusi sessiyasının çağırılmasına və "vaksin millətçiliyi"nə qarşı qətnamələrin qəbul edilməsinə nail olmuşdur.

*Qarşıdakı 7 ilin hədəfləri:*

- ☑ Milli maraqlara və beynəlxalq hüquqa söykənən müstəqil və prinsipial xarici siyasətin davam etdirilməsi;
- ☑ Azərbaycan tərəfindən irəli sürülmüş 5 əsas prinsip əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması;
- ☑ Cənubi Qafqazda davamlı sülhün bərqərar olması və onun dayanıqlı inkişaf bölgəsinə çevrilməsi ilə bağlı səylərin davam etdirilməsi;
- ☑ Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsində, beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşdırılmasında və qlobal problemlərin həllində rolunun artırılması;
- ☑ Azərbaycanın geosiyasi təhlükələrdən və hibrid təhdidlərdən qorunması;
- ☑ Azərbaycanın qeyri-münaqişə gündəliyinin formalaşdırılması;
- ☑ Qonşu ölkələrlə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi;
- ☑ Türk dövlətləri ilə əlaqələrin və Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsi;
- ☑ Strateji tərəfdaşların və müttəfiqlərin sayının artırılması;
- ☑ Beynəlxalq təşkilatlarda fəal iştirakın təmin edilməsi;
- ☑ Multikulturalizm və tolerantlıq kimi dəyərlərə sadiq qalaraq, dünyada hökm sürən islamofobiya və neokolonializm meyillərinə qarşı mübarizə aparılması.

## Gənclər siyasəti

Son 20 ildə Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafı, gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində dövlət tərəfindən ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir.

*Qarşıdakı 7 ilin hədəfləri:*

- ☑ Gənclər və idman sahəsində infrastrukturun daha da təkmilləşdirilməsi;
- ☑ Gənclərin elmə və təhsilə həvəsləndirilməsi;
- ☑ Gənclərin idmana və sağlam həyat tərzinə bağlılığının artırılması;
- ☑ Gənclərin sahibkarlıq bacarıqlarının daha da inkişaf etdirilməsi;
- ☑ Gənclərin ölkənin ictimai-siyasi həyatında rolunun artırılması;
- ☑ Könüllülük hərəkatının bütün ölkəni, o cümlədən işğaldan azad olunmuş əraziləri və orada yaşayan gəncləri əhatə etməsi.

## Güclü ordu, möhkəm təhlükəsizlik

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində həyata keçirilən quruculuq fəaliyyəti nəticəsində Azərbaycan Ordusu dünyanın güclü orduları sırasına daxil olmuşdur. Ölkənin xarici hərbi-texniki asılılığının azaldılması məqsədilə qurulmuş milli müdafiə sənayesi ildən-ilə inkişaf etdirilir. Milli təhlükəsizlik sahəsində ölkəmizin qarşısında duran kompleks vəzifələrin son 20 il ərzində tam və effektiv həllinin nəticəsi olaraq Azərbaycan Ordusu 44 gün ərzində Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyaraq torpaqlarımızı işğaldan azad etdi. Bununla da xalqımıza, ərazi bütövlüyümüzə və suverenliyimizə qarşı ən böyük təhdid aradan qaldırıldı.

Bu gün milli təhlükəsizlik siyasətinin bütün istiqamətləri üzrə - xarici siyasət, hərbi, ictimai, iqtisadi, sosial, ekoloji, informasiya, milli, dini və digər sferalarda vəzifələrin tam yerinə yetirilməsi dövlətimizin və cəmiyyətimizin mümkün təhdidlərdən etibarlı müdafiəsini təmin edir. Buna görə də Azərbaycanda daxili təhlükə mənbələri mövcud deyildir, əsas təhdid və təhlükələr ölkə sərhədləri xaricində formalaşır.

*Qarşıdakı 7 ilin hədəfləri:*

- ☑ Azərbaycanın bütün sahələrdə təhlükəsizliyinin, suverenliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun hər cür təsirlərdən qorunması;
- ☑ Müasir müdafiə sənayesi və infrastrukturun davamlı inkişaf etdirilməsi, milli təhlükəsizlik potensialının artırılması, dövlətin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi;
- ☑ Hərbi quruculuq işlərinin və müasir ordu quruculuğu prosesinin davam etdirilməsi;
- ☑ Ölkədə ictimai-siyasi sabitliyin, qanunun aliliyinin, vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin hər cür təsirlərdən qorunması;
- ☑ Təhlükəsiz informasiya məkanının inkişaf etdirilməsi, ölkənin kibertəhlükəsizlik potensialının gücləndirilməsi;
- ☑ Regionda sülhün və təhlükəsizliyin təmin olunması ilə bağlı tədbirlərin davam etdirilməsi və bu istiqamətdə səylərin dəstəklənməsi.

## Uğurlu enerji strategiyası

Əsası Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuş neft strategiyası təkcə neft hasilatının və ixracının rekord artımı ilə deyil, həm də tarixi əhəmiyyətə malik əlamətdar hadisələrlə yadda qalmaqla, son 20 il ərzində inkişafının zirvəsinə yüksəlib. Hazırda Azərbaycanın neft hasilatının böyük hissəsi "Azəri-Çıraq-Günəşli" (AÇG) blokunun payına düşür. AÇG blokunun işlənilməsinə başlanıldığı bütün dövr ərzində ümumi neft hasilatı 4,3 milyard bareli ötüb. Blokun işə salınması layihəsinin həyata keçirilməsindən Azərbaycanın xalis mənfəəti 2001-ci ildən bəri 171 milyard dollar təşkil edib.







Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un cari ildə ölkəmizdə keçirilməsinə dair yekdil qərarın qəbul edilməsi də beynəlxalq ictimaiyyətin Azərbaycana olan böyük hörmət və etimadının bariz göstəricisidir.

*Qarşıdakı 7 ilin hədəfləri:*

- ☑ Azərbaycanın enerji diplomatiyasının inkişaf etdirilməsi;
- ☑ Alternativ və bərpaolunan enerji növlərinin artırılması hesabına "Yaşıl enerji" gündəliyinin irəli aparılması və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə töhfənin davam etdirilməsi;
- ☑ Ekoloji tarazlığın qorunması, bu məqsədə xidmət edən təşəbbüslərin dəstəklənməsi, ekoloji təmiz iqtisadi fəaliyyətin təşviq edilməsi;
- ☑ Azərbaycanın nəqliyyat və logistika mərkəzi rolunun daha da gücləndirilməsi;

**Hörmətli seçici!**

**Yeni Azərbaycan Partiyası növbəti yeddi ilə cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyini irəli sürmüş, bu təşəbbüs ölkəmizdə fəaliyyət göstərən çoxsaylı ictimai təşkilatlar tərəfindən dəstəklənmişdir.**

**İnanırıq ki, yaranmış yeni reallıqlar fonunda bu mürəkkəb missiyanın həyata keçirilməsi üçün siz cənab İlham Əliyevi dəstəkləyəcək, bununla da gələcək tərəqqi və rifahımıza dəyərli töhfənizi verəcəksiniz.**

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# ƏDALƏT, HÜQUQ, DEMOKRATİYA



## HƏSƏNQULİYEV QÜDRƏT MÜZƏFFƏR OĞLU

# ƏHDİMİZ ƏDALƏT, HÜQUQ, DEMOKRATİYADIR

**Əziz həmvətənlər,**
**Dəyərli seçicilər,**

*Azərbaycan Respublikasının Prezidentliyinə qeydə alınmış namizəd Qüdrət Müzəffər oğlu Həsənquliyevin "Böyük dəyişikliklər" adlanan seçki platformasının dövlət quruculuğu ilə bağlı hissəsini müzakirənizə təqdim edirik:*

- ☑ Qarabağ üzərində dövlət suverenliyinin bərpası münasibətilə geniş amnistiya aktının qəbulu;
- ☑ 9 ay ərzində dövlət idarəetməsinin parlament respublikası modelini əsas götürən yeni Konstitusiyanın qəbulu;
- ☑ 2025-ci ilin fevralında yeni Konstitusiyaya uyğun olaraq proporsional seçki sistemi əsasında yeni parlament seçkilərinin keçirilməsi;
- ☑ Yeni Konstitusiyada ölkəmizin Şimali Azərbaycan Cümhuriyyəti adlandırılması;
- ☑ Dövlət hakimiyyətinin həyata keçirilməsində hakimiyyətin bölünməsi (hakimiyyətin ayrı-ayrı qollarının bir-birinə nəzarət etməsi və balans yaratması) prinsipinə real məzmun verilməsi;
- ☑ Milli Məclisin Ali Məclis adlandırılması;
- ☑ Çoxpartiyalı sistemin inkişafı üçün parlamentdə ən azı 3 siyasi partiyanın təmsil olunmasının konstitusion əsasının yaradılması və hər bir partiyaya və ya partiyalar blokuna Ali Məclisə keçirilən seçkilərdə topladığı səsdən asılı olmayaraq, yerlərin 2/3-dən artığına sahib olmanın qadağan edilməsi;
- ☑ Yeni Konstitusiyaya uyğun olaraq yeni seçki məcəlləsinin qəbulu;
- ☑ Bürokratik aparatın müstəqil siyasi qüvvə kimi siyasi sistemdə çıxış etməsinə, o cümlədən siyasi vəzifələrə kadrlar seçməsinə son qoyulması;
- ☑ Parlamentdə 5 il müddətinə seçiləcək prezidentə məhdud səlahiyyətli "seremonial şəxs" status verilməsi, icra hakimiyyətinin başında Baş Nazirin dayanması;
- ☑ Baş Nazirin namizədliyinin parlament seçkilərində qalib gələn siyasi partiya və ya siyasi partiyalar bloku tərəfindən irəli sürülməsi və Ali Məclisdə seçilməsi;
- ☑ Dövlət idarəetmə orqanlarında struktur islahatlarının aparılması və dövlət aparatını çevik və yığcam etmək üçün məmurların sayının 1/3-dək azaldılması;
- ☑ Millət vəkillərinin 4 il müddətinə seçilməsi, onların sayının 151 nəfərə çatdırılması;
- ☑ Ali Məclisin Daxili Nizamnaməsində parlament fraksiyalarına idarəetmədə geniş yer verilməsinin nəzərdə tutulması, fraksiya nümayəndələrinin parlament sədrinin müavinləri, eləcə də komitə sədrləri və müavinləri səviyyəsində təmsil olunmaları;
- ☑ Yerli rəy sorğuları keçirmədən insanların normal həyatını pozan şəhərdaxili kütləvi mədəni və idman tədbirlərinin keçirilməsinin qadağan olunması, o cümlədən Bakı sakinləri arasında "Formula-1" yarışları ilə əlaqədar rəy sorğusunun keçirilməsi;
- ☑ Hesablama Palatası sədrinin və auditorlarının yarıdan çoxunun parlamentdə müxalifəti təmsil edən siyasi partiyaların təqdim etdiyi namizədlər sırasından seçilməsi;
- ☑ Büdcə və büdcəyə nəzarət komitəsinin yaradılması, adıçəkilən qurumun sədrinin və üzvlərinin yarıdan çoxunun Ali Məclisdə müxalifəti təmsil edən siyasi partiyalar və siyasi partiyalar bloklarının təmsilçiləri sırasından seçilməsi;
- ☑ Dövlətin idarəetmə xərclərini azaltmaq, regionların inkişafına nail olmaq, yerli hakimiyyət orqanlarının formalaşdırılmasında xalqın iştirakını təmin etmək üçün ölkədə mövcud olan rayonlar ləğv edilərək onların yerində inzibati ərazi vahidi kimi 15 regionun yaradılması;
- ☑ Regionun 25, yaxud 31 nəfərdən ibarət məclislərinin, məclisdə isə regionun rəhbərinin seçməsi;
- ☑ Hər yaşayış məntəqəsinin öz bələdiyyəsinin olması;
- ☑ Naxçıvan MR-də yerli əhalinin "nazirlər və məmurlar ordu"sundan xilas edilməsi, dövlət idarəetmə xərclərinin əhəmiyyətli səviyyədə azaldılması, Naxçıvanın muxtar dövlət statusunun ləğv edilməsi və muxtar ərazi kimi 15-ci region statusunun verilməsi (Qeyd: Naxçıvanın muxtar respublika statusunun saxlanılmasının tərəfdarları Moskva və Qars müqavilələrinə istinad edirlər (Həmin müqavilələrdə Naxçıvanın muxtar ərazi kimi Azərbaycanın tərkibində olması nəzərdə tutulur, respublika, vilayət, yaxud mahal kimi yox);
- ☑ Naxçıvanın azad iqtisadi zona elan olunması;
- ☑ Hakimiyyətin hədsiz mərkəzləşməsinə son qoyulması, mərkəzi icra hakimiyyəti orqanlarının regionlarda səlahiyyətlərinin ciddi şəkildə məhdudlaşdırılması və regionlara geniş özünüidarə səlahiyyətlərinin verilməsi;
- ☑ Konstitusiyaya nəzarət məqsədilə Baş Nazir tərəfindən regionlar üzrə valilərin (səlahiyyətli nümayəndələrin) təyin olunması;
- ☑ Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının dövlət hakimiyyət orqanlarında təmsil olunmayan, 50%-i parlamentdə müxalifəti təmsil edən siyasi partiyalar tərəfindən namizədliyi irəli sürülən müstəqil şəxslərdən təşkil edilməsi;
- ☑ Dövlət hakimiyyət orqanlarında siyasi vəzifə daşıyan, dövlət idarə, müəssisə və təşkilatlarında vəzifə tutan və vəzifə səlahiyyətlərindən istifadə etməklə cinayətin törədilməsində iştirak edən şəxslərin əməllərinin korrupsiya cinayətləri hesab olunması;
- ☑ Vergi ödəyicilərinin ödədiyi illik verginin həcminin ictimaiyyət üçün açıq olması;
- ☑ Dövlət satınalmalarında şəffaflığın artırılması üçün əlavə hüquqi mexanizmlərin yaradılması;
- ☑ Prezidentin, Baş Nazirin, deputatların və hakimlərin vəzifədən kənarlaşdırılmasının (vəzifə səlahiyyətlərinə xitam verilməsinin ) yalnız ağır cinayət törətdikdə və bu barədə Ali Məhkəmənin rəyi olduqda mümkün olması və həmin şəxslərin hamısı üçün vəzifədən kənarlaşdırmanın eyni prosedur qaydalarının tətbiq olunması;
- ☑ Məhkəmə sistemində islahatların davam etdirilməsi, vətəndaşları və sahibkarları məmur özbaşınalığından qoruya bilən, mülkiyyət toxunulmazlığına təminat verən güclü məhkəmə hakimiyyətinin formalaşdırılması;
- ☑ Andlı iclasçılar institutunun tətbiqi, hakimlərin ömürlük seçilməsi və onların sosial müdafiəsinin gücləndirilməsi, hakimlərin sayının 2 il ərazində Avropa standartlarına çatdırılması (Qeyd: Avropada hər 100 min nəfərə 20 hakim düşürsə, bizdə bu rəqəm 6-dır);
- ☑ Konstitusiya Məhkəməsinin ləğv olunması, qanunların izahının verilməsi hüququnun qanunu qəbul edən orqana - Ali Məclisə, qanunların izahı ilə əlaqədar Ali Məclisə müraciət hüququnun qanunvericilik təşəbbüsü subyektlərinə verilməsi;
- ☑ Vəkillərin sayının 2 il ərzində Avropa standartlarına çatdırılması (Qeyd: Avropada 100 min nəfərə 147 vəkil düşürsə, bizdə bu rəqəm 23-dür);
- ☑ Sahibkarlara qarşılıqlı razılıq əsasında xarici arbitrajlara müraciət etmək hüququnun verilməsi;
- ☑ İstisnasız olaraq birinci instansiya məhkəmələrində ən azı 5 il işləmiş hakimlərin Apellyasiya Məhkəmələrinin hakimi seçilə bilməsi, eyni qaydada ən azı 5 il Apellyasiya Məhkəməsinin hakimi işləmiş şəxsin Ali Məhkəmənin müvafiq kollegiyasına seçilmək hüququnun nəzərdə tutulması;
- ☑ Azərbaycan Respublikasının vahid Dövlət İstintaq Komitəsinin yaradılması, Baş Prokuror və Ədliyyə naziri vəzifələrinin birləşdirilməsi, prokurorluğun ədliyyə nazirliyinin tərkibinə daxil edilməsi;
- ☑ Böyük ictimai rezonans doğurmuş və cəmiyyət tərəfindən obyektiv araşdırılmasına şübhələr olan cinayət işlərinin istintaqının yenilənməsi və andlı iclasçıların iştirakı ilə məhkəmədə yenidən baxılması;
- ☑ Yuxarıda qeyd olunan vəzifələri həyata keçirmək üçün yeni parlament seçkilərinə qədər milli birlik hökumətinin formalaşdırılması.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı




## Azərbaycan Respublikası Prezidentliyinə namizəd, Milli Cəbhə Partiyasının sədri, deputat

# Razi Nurullayevin Seçki Platforması

*Azərbaycan yeni seçkilərə öz suverenliyini və sərhədlərini tam bərpa edən bir ölkə kimi gedir. İkinci Qarabağ müharibəsində qazanılan tam zəfər ölkənin sosial dövlət olaraq inkişafını zəruri edir. Bu inkişaf xalqımızı dünyanın ən varlı və xoşbəxt xalqlarından biri etmək missiyası daşımalıdır. Bunu əsas götürərək, Milli Cəbhə Partiyası və onun prezidentliyə namizədi Razi Nurullayev Azərbaycanın sosial dövlət olaraq inkişafını və sosial demokratiyanın cəmiyyətdə bərqərar olmasını vacib hesab edir.*

*Azərbaycan Respublikasının Prezidentliyinə namizəd olaraq Razi Nurullayev inanır ki, ölkənin gələcəyi və inkişafı, sosial layihələrin həyata keçirilməsi indi qarşımızda duran əsas vəzifədir. İnsan ləyaqətinin uca tutulması, yüksək təhsil, əhalinin yaşlı təbəqəsinin sosial hüquqlarının qorunması və sosial təminatının artırılması, gənclərin iş və sosial həyatının təminatı, asudə vaxtının səmərəli təşkili bizim üçün əsas prioritetdir. Biz bununla sosial-demokratiya ideyasını ölkədə gerçəkləşdirəcək, savadlı, sosial hüquqları qorunan və təminatı olan cəmiyyət formalaşdıracağıq. Bunun üçün kompleks islahatlar aparılmasını zəruri hesab edirik.*

*Azərbaycanın inkişafı və perspektivləri, ideoloji prinsiplərin təbliği, sosial dövlətin inkişafı, təhsil, sosial təminatlar, biznes mühitinin keyfiyyətinin yaxşılaşdırılmasından keçir.*

### 1. İdeologiya sahəsində

- ✓ Biz sosial-demokratiya ideoloji xəttini rəhbər tutaraq, insanların bərabərlik, azadlıq və həmrəylik prinsipləri əsasında yaşamasını təmin edəcək, sinfi bölünmənin qarşısını alacaq, bununla da xalqın azad və firavan yaşamasının təminatçısı olacağıq;
- ✓ Sosial-demokratik dəyərlərin cəmiyyətə aşılanması, öyrədilməsi və geniş xalq kütlələri tərəfindən qəbul edilməsinə nail olacaq və bu dəyərlərin müdafiəçisi olaraq, onun qorunmasını təmin edəcəyik;
- ✓ Azad və firavan yaşayan xalqın bütün sosial, siyasi, iqtisadi hüquqları tərəfimizdən təmin ediləcək, insan hüquqlarının müdafiəsi və qorunması əsas baza prinsiplərimizdən biri olacaqdır;
- ✓ Sosial dövlət olaraq bizim inkişaf yolumuz təhsil və əhalimizin yaxşı yaşamasıdır. "100 faiz keyfiyyətli təhsil, 100 faiz orta gəlirli stabil təbəqə" ideoloji xəttimizin əsas tezislərindən biridir və bunun bazasında sosial-demokratiya ideyası durur;
- ✓ Planlaşdırılan sosial təminatın yerinə yetirilməsi üçün dövlət öz üzərinə düşən öhdəlikləri birmənalı yerinə yetirəcəkdir.

### 2. Təhsil və elm sahəsində görüləcək işlər

- ✓ Yeddi il ərzində bütün kəndlərdə uşaq bağçaları təşkil olunacaq;
- ✓ Bütün orta məktəblərdə nəzəri dərslər, məşğələlər və təcrübi dərslərlə uzlaşdırılacaq. Yalnız nəzəriyyə ilə dərskeçmə prosesi birdəfəlik aradan qaldırılacaq;
- ✓ Bütün bölgələrdə mövcud olan peşə məktəbləri xarici təcrübə ilə yenidən qurulacaq və ciddi şəkildə daxili və xarici sərmayələr cəlb ediləcək. Yeddi il ərzində peşə təlimi sahəsində Azərbaycanın 70-80 faiz civarında öz kadr ehtiyaclarını təmin etmək vəzifəsini üzərimizə götürürük;
- ✓ Test üsulunun tətbiqi yüksəkkeyfiyyətli və əhatəli bilik, o cümlədən təhsil sisteminin qarşısında maneəyə çevrilib. Ona görə də bu imtahan sistemini dəyişib müasir təhsil sisteminin sintezini yaratmaqla, rəqabət mühitini formalaşdıracağıq;
- ✓ Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsilə büdcədən ayrılan vəsaitin digər sahələrdən daha çox olması təmin ediləcək;
- ✓ İdarəetməyə təyinat yox, seçki sisteminin daha çox fayda gətirəcəyi qənaətindəyik. Ona görə də rektorlar təyinatla yox, seçki yolu ilə seçiləcək;
- ✓ Dövlət ali təhsil müəssisələrində tədricən ölkə vətəndaşları üçün pulsuz təhsil tətbiq olunacaq; ilkin olaraq bütün qız uşaqlarının dövlət hesabına pulsuz təhsili təmin ediləcəkdir;
- ✓ Dövlət ali təhsil müəssisələri ilə yanaşı, özəl ali təhsil müəssisələrində də qız uşaqlarının dövlət hesabına oxumasını dövlət öz üzərinə götürəcək;
- ✓ Elmin inkişafı üçün əsaslı vəsait ayrılacaq. Həqiqi olaraq elm sahəsində çalışan, özünü, həyatını və karyerasını elmə sərf etmək istəyən hər bir şəxsə ciddi dövlət stimulu yaradılmaqla bərabər, onların özəl sektora cəlbi də təşkil ediləcək. Yaxın ilk il ərzində elmə ayrılan vəsait 5 dəfə artırılacaq.

### 3. Səhiyyə sahəsində

- ✓ Vətəndaşların sağlamlığının qorunması dövlətin konstitusion vəzifələrindən biridir. Səhiyyə sistemimiz hələ də yetərincə təkmilləşməyib. Səhiyyə sistemində ikili, bəzən üçlü (Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta və TƏBİB) idarəetmə sistemi nəticəsində problemlər ortaya çıxır.

*Bunu üçün ilk növbədə*

- ✓ TƏBİB Səhiyyə Nazirliyinin tabeliyinə verilməklə problemin müəyyən hissəsini həll etmək olar. Xəstəxanalar, klinikalar, dövlət poliklinikaları və digər tibb xidməti göstərən bütün müəssisələr Səhiyyə Nazirliyinin tabeliyinə verilir və TƏBİB isə fəaliyyəti təşkil edir.
- ✓ İcbari Tibbi Sığorta ilə bağlı yeni yanaşmalar tətbiq olunmalı, sığorta paketləri estetik əməliyyat və müalicələr istisna olmaqla, bütün digər xəstəlikləri əhatə etməlidir. Onkoloji xəstəliklərlə bağlı xüsusi sığorta paketləri tətbiq ediləcək.
- ✓ İcbari Tibbi Sığorta ilə bağlı mühüm yanaşma isə reseptlərin də sığorta paketinə daxil edilməsidir. Ambulator müalicə alan xəstələrin də dərmanları sığorta vasitəsilə ödəniləcək.
- ✓ Ölkədə yüksəkixtisaslı peşəkar həkim kontingenti çatışmazlığı hiss olunmur. Lakin ixtisaslı kiçik tibb işçiləri ilə bağlı problemlər var və tibb kolleclərinin sayını artırmaqla bu problem həll ediləcək.
- ✓ Xaricdə təhsil alaraq orada işləyən və ölkədən xaricə gedən həkimlərin geri qayıtması ölkəmizdə insanların sağlamlığının keşiyində durmaları üçün stimullaşdırıcı proqramların qəbuluna başlanılacaq.
- ✓ Xarici ölkələrdə təhsil alan, orada işləyib təcrübə qazanan həkimlərin ölkəyə gəlib işləməsi üçün Dövlət İmtahan Mərkəzində daimi şəkildə fəaliyyət göstərən komissiya işləyəcək.

### 4. Sosial sahədə

- ✓ Azərbaycan əhalisinin artım tempinin qorunub saxlanması və uşaqlara dövlət qayğısının təminatı üçün uşaq pulu veriləcək.
- ✓ Pensiya yaşı azaldılacaq. Qadınlar üçün 60, kişilər üçün 62 yaş pensiya yaşı kimi müəyyənləşdiriləcək;
- ✓ Bütün növ pensiyaların minimum məbləği üç-dörd il ərzində 700 manat həddində müəyyənləşdiriləcək və indeksləşdiriləcək;
- ✓ İşləmək üçün 65 yaş həddi kvotası aradan qaldırılacaq. İşləyib-işləməmək üçün sağlamlıq əsas meyar olaraq qəbul ediləcək.
- ✓ Təcrübəli yaşlı nəsillə işləməyə üstünlük veriləcək, yaşlı və gənc nəslin inteqrasiyası elə aparılacaq ki, cəmiyyətdə ayrı-seçkilik hiss olunmasın və illərlə toplanan dövləti idarəetmə təcrübəsi məhv olmasın;
- ✓ İpoteka şərtlərinin sadələşdirilməsi təmin ediləcək. Bununla da xeyli vətəndaş kateqoriyaları üçün ipotekanın əlçatanlığı mümkün olacaq. İpoteka məbləğinin artırılması, əməkhaqqı tələbininin aşağı salınması və faizlərinin azaldılması əsas prioritet olacaq.
- ✓ Qaz və işıq limitlərinə üçillik güzəşt tətbiq olunacaq. Ondan sonra iqtisadi artım, əhalinin gəlirləri və s. nəzərə alınaraq, limitlə bağlı məsələyə yenidən baxılacaq.
- ✓ Əməkhaqlarının yeddi il ərzində ilkin olaraq azı iki-üç dəfə artırılması həyata keçiriləcək. Daha sonra əməkhaqları indeksləşdiriləcək və inflyasiyaya uyğun tənzimlənəcək.
- ✓ Regionlarda, xüsusilə kənd yerlərində elə şərait yaradılacaq ki, kənddə yaşamaq şəhərdə yaşamaqdan daha rahat olsun. Biz kəndlərdə infrastruktur yaratmalıyıq, iş yerləri açmalıyıq ki, mövcud urbanizasiyanın qarşısını alaq.
- ✓ Ölkə boyu bütün rayon və şəhərlərdə sosial evlərin tikintisi ilə 7 il ərzində bu problemi birdəfəlik həll etmək niyyətindəyik.
- ✓ Müharibə veteranlarının mənzillə təmin edilməsinin dövlət proqramına əlavə edilməsi təmin ediləcək. Veteranlara verilən təqaüdün "Veteranlar haqqında" qanunun 1-ci maddəsinin tələblərinə uyğun olaraq minimum əməkhaqqı səviyyəsinə çatdırılması təmin olunacaq;
- ✓ Kənd əhalisi vəsait və texnika çatışmazlığından pay torpaqlarından səmərəli istifadə edə bilmir. Bu problemi aradan qaldırmaq üçün torpaqların korperativlərdə birləşdirilməsi və birgə fəaliyyətlə bağlı proqram və layihələr həyata keçiriləcək;
- ✓ Regionların inkişafı üçün dövlət universitetlərinin fakültələrinin bir hissəsini rayonlara köçürmək əsas ideyalarımızdan biridir.
- ✓ Mənəvi dəyərlərin aşınmaması, cəmiyyətdə geriləmə olmaması üçün milli mədəniyyətimizin inkişafı qorunacaq, çap mediası, sosial media və televiziyaya nəzarət gücləndiriləcək. Gənc nəslin mənfi yöndə tərbiyələnməsinə rəvac verən veriliş və proqramlar qadağan ediləcək.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 14

QƏRAR

Bakı şəhəri, 12 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 42 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"nda, 2006-cı il 4 dekabr tarixli 255 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarəti obyektlərinin baytarlıq (baytarlıq-sanitariya) ekspertizasının aparılması Qaydaları"nda, 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də, 2009-cu il 21 aprel tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"nda, 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda, 2010-cu il 25 noyabr tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrində iaşə və tibb xidmətinin təşkili Qaydası və Normaları"nda və 2011-ci il 9 mart tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"nın "1A004, c kateqoriyası"nın "Adları" sütununun "Qeyd" hissəsinin b) bəndində və "ML7 kateqoriyası"nın "Adları" sütununun "3. hərbi təyinatlı döyüş sursatlarına və ya materiallarına tətbiq edilməsi üçün xüsusi təyinatı olan ML7.h.1. yarımbəndində göstərilən "biokatalizatorlar"ın tətbiqi "texnologiya"sı" bölməsində ikinci halda "Qeyd" hissəsinin ikinci cümləsində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 4 dekabr tarixli 255 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarəti obyektlərinin baytarlıq (baytarlıq-sanitariya) ekspertizasının aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bəndin üçüncü abzasında "ərzaq və xammalda" sözləri "qida məhsullarında" sözləri ilə əvəz edilsin;

2.2. 2-ci hissənin altıncı abzasında "yem (heyvanların yemləndirilməsi üçün nəzərdə tutulan taxıl məhsulları, pambıq çiyidi və qabığı, qarışıq yem, qaba yemlər, cecə və s., sümük unu, ət unu, balıq unu və başqa yem əlavələri)" sözləri "yem məhsulları (heyvanların qidalanmasında istifadə olunan emal olunmamış, yarımemal olunmuş və tam emal olunmuş məhsullar, maddələr və yem əlavələri)" sözləri ilə əvəz edilsin;

2.3. 4.4-cü bəndin birinci cümləsində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 85-ci maddəsinin beşinci abzasının birinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2.3-cü və 1.2.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2.3. yem məhsulları - heyvanların qidalanmasında istifadə olunan emal olunmamış, yarımemal olunmuş və tam emal olunmuş məhsullar, maddələr və yem əlavələri;

1.2.4. yem əlavələri - yem məhsuluna və suya məqsədli şəkildə əlavə olunan, heyvanların rasionunda çatışmayan maddələrin, mineralların və vitaminlərin mənbəyi kimi istifadə olunan üzvi, mineral və (və ya) sintetik mənşəli maddələr;";

4.2. 3.6-cı bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İdxalçı ölkələr tələb etdiyi hallarda ixrac olunan məhsullara Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən verilən sağlamlıq sertifikatı qida məhsulunun qida təhlükəsizliyi göstəriciləri ilə yanaşı, heyvan mənşəli məhsullar üçün heyvan sağlamlığı göstəricilərinə uyğunluğunu da təsdiq edə bilərlər.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 13.3-cü, 17.7-ci bəndlərə və 17.8.23-cü yarımbəndin ikinci cümləsinə "texniki" sözündən əvvəl "qida təhlükəsizliyi sahəsində" sözləri əlavə edilsin;

5.2. 16.16-cı bəndin ikinci abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

5.3. 17.7-ci bəndin ikinci cümləsində "sanitariya-gigiyena tələblərinə" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.4. 17.8-ci bənddə "sanitariya-gigiyena normalarına" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.5. 17.10-cu bənddə "sertifikat, şəhadətnamə" sözləri "Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, idxal olunan məhsullara münasibətdə idxal sağlamlıq aktı" sözləri ilə əvəz edilsin;

5.6. 17.21-ci bənddə "ərzaqlar" sözü "qidalar" sözü ilə əvəz edilsin;

5.7. 17.25-ci bəndin ikinci və üçüncü abzaslarında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

5.8. 19.3-cü və 20.5-ci bəndlərə "sanitariya-gigiyena tələblərinə" sözlərindən sonra ", qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri əlavə edilsin;

5.9. 20.4-cü bənddə "ərzaqlarla" sözü "qidalarla" sözü ilə əvəz edilsin;

5.10. 42.1.12-ci yarımbəndə "baytarlıq sənədlərini" sözlərindən sonra ", Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, idxal olunan məhsullara münasibətdə idxal sağlamlıq aktını" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 noyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Təhsil müəssisələrində iaşə və tibb xidmətinin təşkili Qaydası və Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.2-ci bəndin birinci cümləsinə və 2.5-ci bəndə "qaydalarına" sözündən sonra ", qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə" sözləri əlavə edilsin;

6.2. 2.3-cü bəndin ikinci abzasında və 2.6-cı bənddə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

6.3. 2.6-cı bəndin birinci abzasına "keçməlidirlər" sözü "keçirilməli, habelə gigiyenik təlimlərə cəlb olunmalıdırlar" sözləri əlavə edilsin;

6.4. 2.6-cı bəndin birinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İlkin və dövri tibbi müayinələrdən keçməmiş, habelə müxtəlif yoluxucu xəstəliklərin daşıyıcıları olan və ya infeksion xəstəliklərə yoluxmuş əməkdaşların qida blokuna buraxılması qadağandır.".

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 9 mart tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 4.4.3-cü yarımbəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 15

QƏRAR

Bakı şəhəri, 12 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 13 sentyabr tarixli 209 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 22 yanvar tarixli 10 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 23 yanvar tarixli 11 nömrəli, "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın, "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 14 iyun tarixli 95 nömrəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanlarının yemləmə normalarının təsdiq edilməsi haqqında" 2013-cü il 8 yanvar tarixli 2 nömrəli, "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin və "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2015-ci il 4 avqust tarixli 274 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Yeyinti məhsullarına verilən uyğunluq sertifkatının və baytarlıq şəhadətnaməsinin formasının və uyğunluq sertifkatının və baytarlıq şəhadətnaməsinin verilməsi qaydalarının təsdiq edilməsi haqqında" 2007-ci il 25 sentyabr tarixli 142 nömrəli Qərarının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 sentyabr tarixli 209 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Baytarlıq normalarına cavab verən məhsulların sahibinə həmin məhsulların satışına icazə verən ekspertiza aktının təqdim edilməsi və ya məhsulun (ətin, heyvan və quş cəmdəklərinin, digər məhsulların) üzərində nişan qoyulması Qaydaları" üzrə:

1.1.1. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.8. Ətin nişanlanmasında qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən boyalardan istifadə olunur.";

1.1.2. 2.2-ci bəndin ikinci abzasının ikinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Heyvan xəstəliklərinin qarşısının alınması və dövlət baytarlıq nəzarətinə cəlb edilən yüklərin təhlükəsizliyinin təmin edilməsi Qaydaları" üzrə:

1.2.1. 3-cü hissənin üçüncü abzasında "baytarlıq-sanitariya cəhətdən keyfiyyəti müəyyənləşməmiş yem" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğun olmayan yem məhsulları" sözləri ilə əvəz edilsin;

1.2.2. 5.1-ci bənddə "yem" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin;

1.2.3. 5.2-ci bənddə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2.4. 5.4-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İdxal edilən heyvan mənşəli məhsullar və xammal, yem məhsulları və yem əlavələri qida təhlükəsizliyi sahəsində tələblərə cavab verdikdə, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən idxal sağlamlıq aktı təqdim edilir.".

2. "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 22 yanvar tarixli 10 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş "Yüksək toksiki-ekoloji təhlükəli preparatların siyahısı və tətbiqi Qaydaları"nın 3.9-cu bəndinin ikinci cümləsinə "yem" sözündən sonra "məhsulları" sözü əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması Qaydaları"nın 5-ci hissəsində "ərzaq" sözü "qida" sözü ilə, 14-cü hissəsində "ərzaq mallarının, yemin" sözləri "qida və yem məhsullarının" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 11 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Heyvanların planlı profilaktik və ya məcburi peyvənd edilməsi, heyvan xəstəliklərinin baş verməsinin və yayılmasının qarşısının alınması, xəstəlikləri ləğv etmək üçün epizootiya mənbələrində və qeyri-sağlam məntəqələrdə, heyvandarlıq binalarında, onların ərazilərində, nəqliyyatda və digər yerlərdə dezinfeksiya, dezinseksiya və deratizasiya işlərinin aparılması Qaydası"nın 3.4-cü bəndində "yem" sözü "yem məhsulları" sözləri ilə, 4.5-ci bəndində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Başqa ölkələrdən gətirilən heyvanların sağlamlığını müəyyənləşdirmək üçün onların təcrid olunmuş halda saxlanılması Qaydası və müddəti"nin 2.2-ci bəndinin ikinci cümləsində "yem" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş "Baytarlıq tədbirlərinin təşkili və həyata keçirilməsi Qaydaları"nın 2.1-ci bəndinin dördüncü və beşinci abzaslarında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə, 4.8-ci bəndində "yem" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsinin "060625 Texnoloji maşın və avadanlıqlar mühəndisliyi" ixtisasının "- Yeyinti sənayesi iaşə və ticarətinin texnoloji maşın və avadanlıqları" sətrində "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin;

4.2. "060644 İstehlak mallarının ekspertizası və marketinqi" ixtisası üzrə:

4.2.1. "- Ərzaq məhsullarının ekspertizası və marketinqi" sətrində "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

4.2.2. "- Qeyri-ərzaq məhsullarının ekspertizası və marketinqi" sətrində "Qeyri-ərzaq" sözü "Qeyri-qida" sözü ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanlarının yemləmə normalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 yanvar tarixli 2 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. mətn üzrə "Ərzaq məhsullarının" sözləri "Qida məhsullarının" sözləri ilə, "ərzaq norması" sözləri "qida norması" sözləri ilə əvəz edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sıravi və rəis heyətinin müalicə ərzaq payı Normaları"nın "Qeydlər"inin 5.1-ci bəndinin ikinci cümləsində "ərzaq məhsullarından" sözləri "qida məhsullarından" sözləri ilə, 6-cı hissəsində "ərzaq məhsullarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

6. "Yeyinti məhsullarına verilən uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin formasının və uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin verilməsi qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 16

QƏRAR

Bakı şəhəri, 12 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"ndə, 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə, 2015-ci il 16 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin Nizamnaməsi"ndə, 2018-ci il 22 dekabr tarixli 561 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət peşə təhsili müəssisəsini maliyyələşdirmə normativləri"ndə, 2018-ci il 29 dekabr tarixli 573 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ümumi prinsiplərinə əsasən Qeyri-Hökumət təşkilatları tərəfindən mühasibat uçotunun aparılması Qaydaları"nda və 2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. "I. Təhsil müəssisələrinin tikintisinə dair vahid normalar" üzrə:

1.1.1. 1.3.16-cı yarımbənddə "ərzağın" sözü "qidanın" sözü ilə əvəz edilsin;

1.1.2. 1.3.33-cü yarımbəndin birinci və üçüncü cümlələrində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.1.3. 1.3.34-cü yarımbənddə "Ərzaq" sözü "Qida" sözü ilə, "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.1.4. 1.3.36-cı yarımbəndin birinci cümləsində, 1.3.37-ci yarımbəndin ikinci cümləsində, 4.3.17-ci, 4.3.18-ci, 5.3.17-ci və 5.3.18-ci yarımbəndlərdə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2. "III. Təhsil müəssisələrində ümumi sanitariya-gigiyena tələbləri" üzrə:

1.2.1. 1.4.1-ci yarımbənddən "və ərzaq xammalının" sözləri çıxarılsın və həmin yarımbəndə "normalarına" sözündən sonra ", qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri əlavə edilsin;

1.2.2. 1.4.24-cü yarımbənddə "bioloji fəallığa malik qida əlavələrindən" sözləri "bioloji aktiv qida məhsullarından" sözləri ilə əvəz edilsin;

1.2.3. 1.4.30.2-ci yarımbənddən "ərzaq və" sözləri çıxarılsın;

1.2.4. 1.4.30.3-cü yarımbəndin birinci cümləsində, 1.4.32-ci, 1.4.36.1-ci yarımbəndlərdə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2.5. 1.4.31-ci yarımbəndin ikinci cümləsində "qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair reyestrdən çıxarışın surəti, qida təhlükəsizliyi sertifikatı" sözləri "qida zənciri obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışa, idxal olunmuş məhsullara verilən idxal sağlamlıq aktı" sözləri ilə, "saxlanma" sözü "yararlılıq" sözü ilə əvəz edilsin;

1.2.6. 2.3.4-cü yarımbənddə "ərzaqların" sözü "qidaların" sözü ilə əvəz edilsin;

1.2.7. 2.4.4-cü yarımbənddə (hər iki halda) "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "müddətinə" sözündən əvvəl "yararlılıq" sözü əlavə edilsin;

1.2.8. 2.5.1-ci yarımbənddə "gigiyenik cəhətdən hazırlıqlı olan" sözləri "gigiyenik təlimlərdən keçmiş" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.18-ci bənddə "ərzaqların" sözü "qidaların" sözü ilə, "istifadə müddətinə" sözləri "yararlılıq müddətinə" sözləri ilə əvəz edilsin və həmin bəndə "nəzarət" sözündən sonra "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa və" sözləri əlavə edilsin;

2.2. 5.3.5-ci yarımbənddə "müəyyən olunmuş normativlərə" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 16 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin Nizamnaməsi"nin 1.7-ci və 11.4-cü bəndlərində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 22 dekabr tarixli 561 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Dövlət peşə təhsili müəssisəsini maliyyələşdirmə normativləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1.7-ci yarımbəndin altıncı abzasında "Qeyri-ərzaq" sözü "Qeyri-qida" sözü ilə əvəz edilsin;

4.2. 2.1.8-ci yarımbəndin birinci və altıncı abzaslarında "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

4.3. 2.1.8-ci yarımbəndin ikinci abzasında, beşinci abzasında (hər dörd halda) və altıncı abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 29 dekabr tarixli 573 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ümumi prinsiplərinə əsasən Qeyri-Hökumət təşkilatları tərəfindən mühasibat uçotunun aparılması Qaydaları"nın 20.6-cı bəndinin ikinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1.7-ci yarımbəndin altıncı abzasında "Qeyri-ərzaq" sözü "Qeyri-qida" sözü ilə əvəz edilsin;

6.2. 2.1.8-ci yarımbəndin birinci və altıncı abzaslarında "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

6.3. 2.1.8-ci yarımbəndin ikinci abzasında, beşinci abzasında (hər dörd halda) və altıncı abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 17

QƏRAR

Bakı şəhəri, 12 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası"nın və "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş narkotik vasitələr və psixotrop maddələr, həmçinin müvafiq standartlara, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə cavab verməyən etil spirti, alkoqollu və tərkibində spirt olan məhsulların yenidən istehsala göndərilməsi və ya məhv edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2017-ci il 18 dekabr tarixli 564 nömrəli, "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" 2018-ci il 16 may tarixli 220 nömrəli, "Ticarət və ictimai iaşə sahəsində ərzaq məhsullarının təbii itki Normaları"nın təsdiq edilməsi barədə" 2018-ci il 17 iyul tarixli 307 nömrəli, "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli, "Peşə təhsili müəssisələrinin ayrı-ayrı peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlığın müəyyən edilməsi haqqında" 2019-cu il 11 mart tarixli 86 nömrəli və "Azərbaycan Respublikasının ərazisində dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün yeni smeta-normativ və qiymətqoyma sisteminin və onun əsasında qiymətqoymanın resurs metodunun tətbiq olunması ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2021-ci il 25 may tarixli 150 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası"nın və "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş narkotik vasitələr və psixotrop maddələr, həmçinin müvafiq standartlara, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə cavab verməyən etil spirti, alkoqollu və tərkibində spirt olan məhsulların yenidən istehsala göndərilməsi və ya məhv edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 18 dekabr tarixli 564 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası"nın 2.18-ci bəndində "Malların" sözü "Qida məhsullarının" sözləri ilə, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 12 fevral tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş "İstifadəyə yararsız yeyinti məhsullarının götürülməsi, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydaları"na uyğun olaraq" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş narkotik vasitələr və psixotrop maddələr, həmçinin müvafiq standartlara, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə cavab verməyən etil spirti, alkoqollu və tərkibində spirt olan məhsulların yenidən istehsala göndərilməsi və ya məhv edilməsi Qaydası"nın 2.7-ci bəndində "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 12 fevral tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş "İstifadəyə yararsız yeyinti məhsullarının götürülməsi, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydaları"na uyğun" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin2018-ci il 16 may tarixli 220 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə "qida məhsullarına dair digər beynəlxalq standartların qida məhsullarının" sözləri "qida və yem məhsullarına dair digər beynəlxalq standartların onların" sözləri ilə, "qida məhsullarının təhlükəsizliyi" sözləri "qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyi və qida məhsullarının minimum keyfiyyət" sözləri ilə əvəz edilsin;

2.2. 2.1-ci bəndə "insanların" sözündən sonra ", həmçinin heyvanların" sözləri əlavə edilsin;

2.3. 2.2.4-cü yarımbənddə "sanitariya norma və qaydalarının, habelə gigiyena normativlərinin" sözləri "sanitariya-gigiyena, baytarlıq, fitosanitar norma və qaydalarının" sözləri ilə əvəz edilsin;

2.4. 2.2.6-cı yarımbənddə "qida məhsullarının təhlükəsizlik və" sözləri "qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyi və qida məhsullarının" sözləri ilə əvəz edilsin;

2.5. 3.1.4-cü yarımbənddə "qida məhsullarının təhlükəsizliyinə" sözləri "qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyinə" sözləri ilə, "sanitariya norma və qaydalarını, habelə gigiyena normativlərini" sözləri "sanitariya-gigiyena, baytarlıq, fitosanitar norma və qaydalarını" sözləri ilə əvəz edilsin;

2.6. 3.1.6-cı yarımbəndə "insanların" sözündən sonra ", həmçi-nin heyvanların" sözləri əlavə edilsin;

2.7. aşağıdakı məzmunda 3.1.6-1-ci yarımbənd əlavə edilsin:

"3.1.6-1. qida məhsullarının zənginləşdirilməsi (fortifikasiya olunması) haqqında qərarın verilməsi üçün Agentliyə elmi əsaslandırılmış təklifləri verir;";

2.8. 3.1.9-cü yarımbənddən "insanlar üçün qida mənbəyi olan", "insan üçün qida mənbəyi olan" sözləri çıxarılsın və həmin yarımbənddə "yem və yem əlavələrinə" sözləri "yem məhsullarına" sözləri ilə əvəz edilsin;

2.9. 3.1.11-ci yarımbənddən "məhsullarının" sözü çıxarılsın;

2.10. 3.1.15-ci yarımbənddə "milli istinad" sözləri "laboratoriya-lararası müqayisəli və səriştəlilik sınaqlarının təşkili və sınaq metodlarının tətbiqi ilə bağlı əlaqələndirmənin təmin edilməsi məqsədilə istinad (referens)" sözləri ilə əvəz edilsin;

2.11. 3.1.17-ci yarımbənddə "göstəriciləri üzrə" sözləri "sahəsində" sözü ilə əvəz edilsin.

3."Ticarət və ictimai iaşə sahəsində ərzaq məhsullarının təbii itki Normaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 iyul tarixli 307 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağı-dakı dəyişikliklər edilsin:

3.1. adında və mətnində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Ticarət və ictimai iaşə sahəsində ərzaq məhsullarının təbii itki Normaları"nın adında "ərzaq" sözü "qida" sözü ilə, 52-ci hissənin adında və cədvəlində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

4."Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı" üzrə:

4.1.1. 1.1.4.5.1.2-ci və 1.1.4.5.2.2-ci yarımbəndlərdə "etil (yeyinti)" sözləri "etil (qida)" sözləri ilə əvəz edilsin;

4.1.2. 1.4.2.2.5.2-ci yarımbənddə "Qida təhlükəsizliyi sertifikatının verilməsinə görə" sözləri "İdxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara verilən idxal sağlamlıq aktının və ya ixrac olunan qida və yem məhsullarına sağlamlıq sertifikatının verilməsinə görə" sözləri ilə əvəz edilsin;

4.1.3. 1.4.2.2.5.4-cü yarımbənddə "Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınmasına" sözləri "Qida zənciri obyektinin (subyektinin) təsdiq olunmasına" sözləri ilə əvəz edilsin;

4.2. "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə"nin 1.4.4-cü yarımbəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

4.3. "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə" üzrə:

4.3.1. 6.9.0-cı yarımbəndin dördüncü abzasında və 11.2.2-ci yarımbəndin ikinci abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

4.3.2. 6.9.0-cı yarımbəndin beşinci abzasında "ərzağın" sözü "qidanın" sözü ilə əvəz edilsin;

4.3.3. 11.9.9-cu yarımbəndin altıncı abzasında "qida məhsulla-rının və onları qablaşdırma materiallarının dövlət qeydiyyatına alınmasını, xarici ölkələrə ixrac edilən qida məhsullarına qida təhlükəsizliyi sertifikatının" sözləri "qida zənciri obyektinin (subyektinin) qeydiyyata alınmasını və ya təsdiq olunmasını, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasını, idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara verilən idxal sağlamlıq aktının və ya ixrac olunan qida və yem məhsullarına sağlamlıq sertifikatının" sözləri ilə, "qida məhsullarının istehsalı, tədarükü, qablaşdırılması, saxlanması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları)" sözləri "qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi" sözləri ilə və "qida məhsulları istehlakçılarının" sözləri "qida və yem məhsullarının istehlakçılarının" sözləri ilə əvəz edilsin;

4.4. "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı"nın 221600-cı maddəsində "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

4.5. "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "221000. "Malların satınalınması" paraqrafında "Ərzaq" sözü "Qida" sözü ilə, "221600. "Ərzaq məhsullarının alınması və təminatı" paraqrafının adında "Ərzaq" sözü "Qida" sözü ilə və hər iki halda "ərzaq məhsullarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

5. "Peşə təhsili müəssisələrinin ayrı-ayrı peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlığın müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 86 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 1.3-cü bəndində "ərzaq mallarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasının ərazisində dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün yeni smeta-normativ və qiymətqoyma sisteminin və onun əsasında qiymətqoymanın resurs metodunun tətbiq olunması ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 25 may tarixli 150 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağı-dakı dəyişikliklər edilsin:

6.1. həmin Qərarla təsdiq edilmiş 7 nömrəli əlavə - "Müvəqqəti bina və qurğuların tikintisi üzrə sərflərin smeta normaları toplusu"na 1 nömrəli əlavə "Titul müvəqqəti bina və qurğuların tikintisi üzrə xərclərin smeta normaları"nın 1.13-cü bəndində "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin;

6.2. həmin Qərarla təsdiq edilmiş 8 nömrəli əlavə - "Tikinti-quraşdırma işlərinin qış vaxtında yerinə yetirilməsi ilə əlaqədar olan əlavə xərclərin smeta normaları toplusu"nun 1 nömrəli cədvəlinin 1.22-ci bəndində "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# 7 FEVRAL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

# Demokratik, ədalətli seçkilər yeni dövrün başlanğıcı olacaq

## Prezident seçkiləri Azərbaycanın dövlətçilik tarixinə şanlı möhürünü vuracaq



**Tarixinin ən qüdrətli Azərbaycanı növbəti mühüm seçim qarşısındadır. Xalq prezident seçkilərinə böyük coşqu ilə hazırlaşır. Bu, müstəqillik tariximizin sayca 9-cu prezident seçkiləridir.**

**Builki seçki ölkəmiz adına taleyüklü bir dövrdə keçirilir. Məhz buna görə də bir sıra özəlliklərinə görə diqqət çəkir. Belə ki, 30 ildən sonra ərazi bütövlüyünü təmin etmiş müstəqil Azərbaycanın tarixində ilk dəfə seçkilər bütün ölkə ərazisində keçiriləcək. Yəni bu seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir. Bu, həm də Zəfər seçkiləri olaraq Azərbaycanın siyasi tarixinə yazılacaq. 30 ildən sonra doğma torpaqlarına qayıtmış keçmiş məcburi köçkün soydaşlarımız öz yurdlarında seçici olaraq səsvermədə iştirak edəcəklər. Prezident seçkiləri qüdrətli Azərbaycanın tarixində yeni dövrün başlanğıcı olacaq.**

İşğaldan azad edilmiş ərazilərimiz də daxil olmaqla, bütün ölkə boyu keçiriləcək ilk prezident seçkiləri həm də tarixi əhəmiyyət daşıyır. Bu, iqtisadiyyatımızın, eləcə də regional geosiyasi və geoiqtisadi mövqeyimizin daha da gücləndirilməsi baxımından mükəmməl fürsətdir. Birmənalı şəkildə deyə bilərik ki, prezident seçkiləri məhz bu mühüm proseslərin reallaşdırılması istiqamətində atılacaq addımlara, yeni dövrə xeyir-dua verəcək.

### Siyasi, iqtisadi müstəqilliyin və böyük Zəfərin yaratdığı reallıq

İstənilən seçki hər bir demokratik cəmiyyət üçün mühüm siyasi hadisə hesab edilir. Bu baxımdan qarşıdan gələn prezident seçkisinin istər Azərbaycan cəmiyyəti, istər beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanması və izlənilməsi təbiidir. Əsas odur ki, respublikamızda statusundan və məzmunundan asılı olmayaraq, hər bir seçkinin ədalətli və şəffaf keçirilməsi üçün olduqca böyük təcrübə, siyasi iradə və demokratik ənənələr var.

Xalqımız fevralın 7-də seçkilər vasitəsilə xoşbəxt gələcəyini, dövlətinin etibarlı idarəçisini müəyyənləşdirəcək. İndiyədək ölkəmizdə keçirilən əvvəlki prezident seçkiləri Azərbaycandakı demokratiyanın aynası rolunu oynayıb. Çünki ölkəmizin seçki təcrübəsi də çox unikaldır. Azərbaycanda seçkilərin demokratik keçirilməsi ilə bağlı kifayət qədər təcrübə və zəngin ənənə mövcuddur. Respublikamızda vüsət alan demokratik inkişafın tərkib hissəsi kimi seçki sistemi də ildənilə təkmilləşdirilib. Xalq isə bütün seçkilərdə mütəşəkkillik nümayiş etdirərək layiq olan namizədə etimad mandatı verib.

Hər bir seçki Azərbaycanın demokratiya yolu ilə inkişafının, cəmiyyətdə demokratik dəyərlərin bərqərar olmasının təcəssümü kimi yadda qalıb. Bu seçkilərdə də dünya Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin yaratdığı mütəşəkkilliyə, birliyə şahidlik etmiş olacaq.

Son illərdə Azərbaycanın beynəlxalq nüfuzunun necə yüksəldiyini yalnız biz deyil, dünyanın ən güclü təşkilatları, reytinq platformaları da təsdiq edirlər. Azərbaycanın həm geosiyasi, həm də geoiqtisadi uğurları ən yüksək səviyyədə etiraf olunmaqdadır. Bunun üçün Avropanın aparıcı lider dövlətlərinin rəhbərlərinin Azərbaycan haqqında səsləndirdiyi fikirlər də yetərlidir. Bütün bunların səbəbi isə Azərbaycanın tam müstəqil siyasət yürütməsidir. Məhz bu amil Azərbaycanı dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Əgər Azərbaycana etibar edilməsəydi, ölkəmiz ən mötəbər təşkilatlarda təmsil olunmaz və ən böyük beynəlxalq toplantıların keçirilməsi üçün Azərbaycana etimad göstərilməzdi. Təkcə bu faktları göstərmək kifayətdir. 119 ölkənin yekdil qərarı ilə Azərbaycanın BMT-dən sonra dünyanın ikinci ən böyük təsisatı olan Qoşulmama Hərəkatının (QH) 2019-2022-ci illər üçün sədri seçilməsi və daha sonra yekdil qərar ilə sədrliyinin daha bir il uzadılması; BMT sistemində iki ən böyük tədbirin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) 2024-cü ildə və Dünya Urban Forumunun 2026-cı ildə Bakıda keçirilməsi barədə verilən qərarlar Azərbaycana olan inamın, etibarın göstəricisidir.

Ümumiyyətlə, ötən dövrdə Azərbaycanın milli maraqlara, beynəlxalq hüquqa əsaslanan müstəqil, prinsipial və təşəbbüskar xarici siyasət aparması, xarici siyasətdə digər dövlətlərin daxili işlərinə qarışmaması və eyni yanaşmanı özünə qarşı da tələb etməsi, ölkəmizin beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü və etibarlı tərəfdaşı, böyük hörmət və etimada malik dövlət kimi tanınmasını şərtləndirib.

Azərbaycan Cənubi Qafqazın lider ölkəsi kimi bəlkə də bir çox dövlətlərin 100 ildə qazana bilmədikləri nailiyyətləri əldə edib.

Yardım alan ölkədən donor ölkəyə çevrilən, 19 ölkə ilə strateji tərəfdaşlıq və 3 ölkə ilə müttəfiqlik sazişləri imzalayan Azərbaycan təkcə dünyanı ağuşuna alan qlobal pandemiya dövründə 46 ən az inkişaf etmiş ölkədən 43-nə, Afrikanın 54 ölkəsindən 53-nə, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin 50-sinə humanitar və inkişaf məqsədli yardımların göstərib. Ümumilikdə, son 20 ildə dünyanın 140-a yaxın ölkəsinə iki və çoxtərəfli əsasda beynəlxalq yardımın göstərilməsi Azərbaycanın iqtisadi qüdrətinin bariz təcəssümüdür.

Qlobal miqyaslı təşəbbüsləri ilə Azərbaycan Avropanın enerji xəritəsini dəyişib. Bir vaxtlar öz əhalisinin enerjiyə olan tələbatını idxalla ödəyən ölkəmiz bu gün dünyaya enerji ixrac edir və bu prosesdə ən etibarlı tərəfdaş statusu qazanıb. Azərbaycan hazırda Avrasiyada enerji körpüləri yaradır. 1994-2020-ci illər ərzində Azərbaycan "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars və "Cənub qaz dəhlizi" layihələrini reallığa çevirib. Bütün bunlar əlbəttə ki, siyasi və iqtisadi müstəqilliyin yaratdığı reallıqlar fonunda baş verib.

Azərbaycanın əldə etdiyi sosial-iqtisadi nailiyyətlərə diqqət etsək görərik ki, ölkəmiz Cənubi Qafqaz iqtisadiyyatında 64 faiz paya malik güclü iqtisadiyyat formalaşdırıb. 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 318,9 milyard ABŞ dolları təşkil edib. Ölkə iqtisadiyyatına qoyulmuş birbaşa xarici investisiyaların həcmi 100,6 milyard ABŞ dolları olub. Ölkədə Ümumi Daxili Məhsul 7,3 milyard ABŞ dollarından 72,4 milyard ABŞ dollarına çatıb. Bu isə 3,6 dəfə real artım deməkdir. 2003-cü ildə 1,6 milyard ABŞ dolları təşkil edən valyuta ehtiyatları 43 dəfə artaraq 68,5 milyard dollara çatıb. Dövlət büdcəsinin gəlirləri 1,2 milyard manatdan 35,6 milyard manata yüksəlib. Xarici ticarət dövriyyəsi 5,2 milyard ABŞ dollarından 51,2 milyard ABŞ dollarına çatıb. Ticarət tərəfdaşlarının sayı 55 ölkə artaraq 193-ə yüksəlib.

Bununla yanaşı, orta aylıq əməkhaqqının nominal məbləği 12 dəfə artaraq 76,8 manatdan 923 manata çatıb. Yoxsulluq səviyyəsi 44,7 faizdən 5,2 faizə enib. Uğurlu sosial-iqtisadi siyasət, icra olunan ardıcıl və məqsədyönlü dövlət proqramları yoxsulluğun kəskin şəkildə azalmasını şərtləndirməklə, ölkəmiz bu sahədə müsbət təcrübəsinə görə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə dair milli məsləhətləşmələrin aparılması üçün seçilmiş ölkələr sırasına daxil edilib. Kənd təsərrüfatı sektoru 2,1 dəfə, nəqliyyat sektoru 4,1 dəfə, turizm və ictimai iaşə sektorları 17,5 dəfə, informasiya və rabitə sahəsi isə 20,9 dəfə artıb.

Məhz bu dövrdə minimum əməkhaqqı 38, orta aylıq əməkhaqqı 12, minimum pensiya 14, orta aylıq pensiya 18, yaşa görə orta aylıq pensiya 19, əlilliyə görə pensiya 14, ailə başçısını itirməyə görə pensiya 19 dəfə artıb.

Bu uğurlar Azərbaycanı qüdrətli dövlətə çevirdi və bütün bunlar böyük Zəfərimizə - işğal altında olan torpaqlarımızın azadlığına zəmin yaratdı. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Azərbaycan ərazi bütövlüyünü təmin etdi, işğala son qoydu. Ötən il aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulması ərazi bütövlüyümüzün bərpasının simvolu oldu. Sentyabrın 19-da Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri Azərbaycanın bütövlüyünü, suverenliyini tam təmin etdi. Bununla da dünya erməniliyinin 200 illik avantürasını, "böyük Ermənistan" xülyasını 44 günə məhv edib, 23 saata tarixdən birdəfəlik silən Azərbaycan bir daha dünyaya hansı gücə sahib olduğunu göstərdi.

Savaşdan sonra isə Azərbaycan işğaldan azad etdiyi, erməni barbarlarının 30 ildə viran qoyduqları torpaqlarında misli görünməyən tikinti-quruculuq işləri aparıb Böyük qayıdışa start verməklə, həm də beynəlxalq aləmə iqtisadi qüdrətini nümayiş etdirdi. Dünya vandal ermənilərin 30 ilə daşı-daş üzərində qoymadıqları torpaqlarda Azərbaycanın cəmi 3 ildə necə xariqələr yaratdığına şahidlik etdi və bu gün də həmin proses davam edir.

Əlbəttə ki, bütün bunlar hər bir azərbaycanlını qürurlandırır, fərəhləndirir. Bu gün başımız uca, alnımız açıqdır. Amma hər kəs də şahiddir ki, Azərbaycanın əldə etdiyi bu uğurları həzm edə bilməyən dövlətlər, müxtəlif qüvvələr var. Vətən müharibəsindən sonra həmin qüvvələrin apardıqları çirkin kampaniyalar, Ermənistanla Azərbaycanın arasında sülh sazişinin imzalanmaması üçün ortaya atılan iddialar göstərir ki, həmin dairələr Cənubi Qafqazda sabitliyin bərqərar olmasını istəmirlər. Ara qarışdırmaqla, fitnə-fəsad törətməklə yenidən bölgədə savaş meydanı yaratmaq üçün əllərindən gələni edirlər. Azərbaycan isə bütün bu böhtanlara, iftiralara qətiyyətlə sinə gərir.

### Qarabağ və Şərqi Zəngəzurun 26 seçki məntəqəsində ilk səsvermə keçiriləcək

Bütün bunlar Azərbaycanın qələbəsini həzm edə bilməyən qüvvələrin istənilən təxribatlarının qarşısını almaqla yanaşı, siyasi sistemin gücləndirilməsini də strateji amil kimi ortaya qoyur. Bu səbəbdən də fevralın 7-də keçiriləcək prezident seçkiləri xalq-dövlət birliyinin bariz təcəssümü kimi yalnız Azərbaycanın demokratik tarixinə yox, ümumiyyətlə, dövlətçilik tarixinə öz şanlı möhürünü vuracaq.

Artıq yanvarın 15-dən prezidentliyə namizədlərin təşviqat kampaniyasına start verilib. Namizədi qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşləri üçün 125 seçki dairəsi üzrə 139-u açıq, 139-u qapalı olmaqla, ümumilikdə 278 yer ayrılıb. Bütün təşviqat subyektləri üçün ödənişsiz olan bu yerlərdə, heç bir icazə almadan, sadəcə digər namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların görüşləri ilə üst-üstə düşməsin deyə, aidiyyəti dairə seçki komissiyasını əvvəlcədən məlumatlandırmaqla seçicilərlə görüşlər keçirmək olar.

İlk dəfə seçki keçiriləcək işğaldan azad edilmiş ərazilərimizdə də hazırlıqlar görülür. Qarabağ və Şərqi Zəngəzurda - Ağdərə, Kəlbəcər, Laçın, Şuşa, Ağdam, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Xankəndi ərazisində 26 seçki məntəqəsi yaradılıb. Bu seçki məntəqələrində 22 minə yaxın seçici qeydə alınıb. Bu seçicilərin 3700 nəfəri həmin ərazilərə daimi yaşamaq üçün köçənlərdir. 18 min nəfərdən çoxu isə tikinti-quruculuq işlərində çalışan vətəndaşlardır.

Seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün bütün seçki məntəqələri lazımi texniki vasitə və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Vətəndaşların seçimlərini sərbəst şəkildə etmələri üçün səsvermə kabinələri quraşdırılıb, məntəqələrə seçki qutuları və lazımi inventar avadanlıqlar paylanılıb, seçici siyahıları və məlumat lövhələri asılıb.

Əminliklə deyə bilərik ki, Azərbaycan vətəndaşlarının bütün ölkə ərazisində olduğu kimi, işğaldan azad olunmuş ərazilərdə də rahat səs verməsi üçün hər cür şərait yaradılıb.

### Həmkarlar ittifaqlarının 1,5 milyon üzvü ən fəal seçici kütləsidir

Bu gün dünyanın müxtəlif regionlarında qanlı hadisələr, sonu görünməyən müharibələr baş verir. Belə bir şəraitdə Azərbaycan dünyada sabitlik, inkişaf, təhlükəsizlik adası kimi yalnız irəliyə gedir, şöhrəti bütün aləmə yayılır. Bütün Azərbaycan xalqı kimi, həmkarlar ittifaqları da zaman-zaman ölkəmizin məhz müstəqil siyasət kursuna görə hansı təzyiqlərə, çirkin kampaniyalara məruz qaldığını yaxşı bilir. Ancaq bütün bunlar Azərbaycanın əzminə, inkişaf yoluna mane ola bilmədi. Prezident seçkilərindən sonra isə həmin qüvvələrin bütün təxribatları bumeranq effekti verəcək.

Xalq seçkilərdə hər zamankı kimi, mütəşəkkillik nümayiş etdirərək layiqli namizədə etimad mandatını verəcək. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 1,5 milyon həmkarlar ittifaqı üzvləri də fevralın 7-də keçiriləcək prezident seçkilərində xalqımızla həmrəyliyi davam etdirərək, Azərbaycanın möhtəşəm uğurları, dayanıqlı inkişafı naminə səs verəcək.

Əlbəttə ki, 1,5 milyon həmkarlar ittifaqı üzvü mütəşəkkil qüvvələrdir. Onlar dairə və məntəqə seçki komissiyalarında təmsil olunurlar, eyni zamanda ən fəal seçici kütləsidir. 1993, 1998, 2003, 2008, 2013 və 2018-ci illərdə keçirilmiş prezident seçiklərində olduğu kimi, bu seçkidə də həmkarlar ittifaqlarının üzvləri mütəşəkkillik nümayiş etdirəcəklər.

İnanırıq ki, hər bir Azərbaycan vətəndaşı ilk dəfə ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi şəraitində keçirilən bu seçkilərdə fəal iştirak edəcək və seçki günü məntəqələrə gəlməklə bu şanlı tarixi prosesin bir hissəsinə çevrilərək onu imzası ilə möhkəmləndirməyə səs verəcək.

Ümumiyyətlə, ölkəmizdə uzun illərdir siyasi sabitlikdir, demokratiyanın bütün təzahürləri tam bərqərar olub. Həmçinin bizim cəmiyyət sivildir, savadlıdır, kamildir. Ayrı-ayrı xalqların və dinlərin mənsubları burada mehriban ailə kimi yaşayırlar, qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi mühit mövcuddur. Eləcə də vətəndaşlarımız yüksək siyasi mədəniyyətə sahibdirlər. Bunu illərin təcrübəsi sübut edir. İnanırıq ki, xalqımız bu seçkilərdə də öz sarsılmaz birliyini, həmrəyliyini qoruyaraq tərəqqiyə, inkişafa səs verərək layiqli namizədi özünə lider seçəcək.

### Bütöv Azərbaycanda ilk seçki Muxtar Respublikanın 100 illik yubileyinə töhfə olacaq

Ölkəmizdə keçirilən bütün prezident seçkilərində aktiv rol oynayan Naxçıvan Muxtar Respublikasında da bütöv Azərbaycanda baş tutacaq ilk seçkilərə ciddi hazırlıq görülür.




Milli Məclisdə təmsilçisi olduğum Naxçıvanda ümumilikdə 6 Dairə Seçki Komissiyası - 1 saylı Şərur-Sədərək, 2 saylı Şərur-Kəngərli, 3 saylı Babək-Şahbuz-Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək-Naxçıvan-Culfa və 6 saylı Ordubad-Culfa DSK-ları var. 1 saylı DSK-nın 46, 2 saylı DSK-nın 56, 3 saylı DSK-nın 60, 4 saylı DSK-nın 42, 5 saylı DSK-nın 43, 6 saylı DSK-nın 63 seçki məntəqəsi, yəni 6 DSK ürə 310 seçki məntəqəsi mövcuddur. Bütün seçki məntəqələrində seçicilərin rahat, sərbəst, şəffaf şəraitdə səs vermələri, müşahidələrin aparılması üçün hər cür şərait yaradılıb. Məntəqələrdə müşahidə kameraları yerləşdirilib ki, bu kameralar vasitəsilə seçki prosesini canlı izləmək mümkündür.

Nəzərə alaq ki, sərt iqlimi ilə seçilən Naxçıvanda bu seçki məntəqələrinin xeyli hissəsi dağlıq bölgələrdədir, qarlı ərazilərdədir. Məhz fəslin bu çağında həmin ərazilərin qardan təmizlənməsi, seçki günü seçicilər üçün əlverişli imkanların yaradılması da əsas şərtlərdən birincisidir. Lakin Naxçıvan sakinləri hər zaman seçkilərdə yüksək fəallığı ilə fərqlənib və bu gün də 7 fevral prezident seçkilərinə ciddi hazırlaşırlar. Seçicilərimlə keçirdiyim son görüşlərdə onlar hər zamankı kimi bu seçkilərdə də aktiv olacaqlarını, layiqli namizədə səs verəcəklərini qətiyyətlə vurğulayıblar.

Bu seçkilərin həm də Naxçıvan üçün xüsusi özəlliyi var. Çünki bütöv Azərbaycanda keçiriləcək 2024-cü il 7 fevral tarixli ilk prezident seçkiləri muxtar respublikanın 100 illik yubileyinə təsadüf edəcək. Bu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur. Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutan, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynayan Naxçıvan diyarı əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə yüksək töhfələr verib. Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf edib. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə, qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarıb, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirib. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazıblar.

Bu gün Naxçıvan Muxtar Respublikası dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika "yaşıl enerji" zonası elan olunub. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir. Zəngəzur dəhlizinin açılması isə Naxçıvanın hərtərəfli tərəqqisini şərtləndirəcək. Türk dünyasına açılan qapımızın yeni yüksəliş dövrü başlayacaq.

İnanıram ki, bu seçkilərdə də Naxçıvan əhalisi doğru seçim edəcək və muxtar respublikanın gələcək inkişafı əmin əllərdə olacaq. Bu seçkilərdə də həmişə olduğu kimi, demokratiya zəfər çalacaq. Çünki Azərbaycan cəmiyyəti sivil və kamil cəmiyyətdir. Ayrı-ayrı xalqların və dinlərin mənsubları ölkəmizdə mehriban ailə kimi yaşayırlar. Azərbaycanda qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühiti mövcuddur. Eləcə də vətəndaşlarımız yüksək siyasi mədəniyyətə sahibdirlər. Odur ki, xalqımız bu seçkilərdə də öz sarsılmaz birliyini, həmrəyliyini qoruyaraq tərəqqiyə, inkişafa səs verəcək.

Xalqdan etimad mandatı alacaq namizəd isə yeni milli ideya ilə yeni dövrə başlayacaq. Bu ideya Azərbaycanın daha çox inkişafına, müdafiə gücünün atırılmasına, xalqımızın milli birliyinin daha da möhkəmlənməsinə və xarici düşmənlərimizə qarşı daha mətinləşməsinə səbəb olacaq.

### Bütövlüyü, suverenliyi tam bərpa edilən bütün Azərbaycan səs verəcək

Yeni mərhələdə xalqımızın inandığı, güvəndiyi liderə etimad göstərəcəyinə şübhə yoxdur. Əlbəttə ki, bu inam və etimad ölkəmizin davamlı yüksəlişinə, möhtəşəm quruculuğa və daha böyük zəfərlərə doğru addımlamasına səbəb olacaq. Həm də bu seçkilər ölkəmizə düşmən gözü ilə baxanlara qarşı daha inamlı mübarizə aparmağımız üçün bizə yeni siyasi güc verəcək.

Hətta amerikalı ekspert, Avrasiyada beynəlxalq münasibətlər və geosiyasət üzrə tədqiqatçı Piter Teys də deyib ki, prezident seçkiləri Azərbaycan xalqının gələcək inkişafı və rifahı üçün mühüm fürsətdir. Bu seçkiləri Azərbaycanın müasir tarixində ən mühüm məqam adlandıran ekspert əlavə edib ki, ölkəmizdə seçki ənənəsi demokratiyanın mütərəqqi vəziyyətini mükəmməl şəkildə nümayiş etdirir. Budəfəki prezident seçkiləri ilk dəfə suveren Azərbaycan ərazisinin hər bir guşəsində baş tutacaq. Bu, əslində, Azərbaycanın müasir tarixində şanlı səhifədir.

*Beləliklə, Azərbaycan xalqı 2024-cü ilin 7 fevral seçkilərinə tariximizin ən möhtəşəm Zəfərinin yaratdığı reallıqlar fonunda ortaya çıxan siyasi, iqtisadi, hüquqi, ən əsası, qlobal zərurətlər kontekstində gedir. Xalq geriyə - xaosa, böhrana, fəlakətə deyil, sabaha, davamlı tərəqqiyə, yüksələn rifaha etimad mandatı verəcək. Bu dəfə ən layiqli namizədə ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən bütün Azərbaycan səs verəcək.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

## Davamlı inkişaf, möhtəşəm quruculuq, böyük Zəfər

# Xoşbəxt gəmi

**"Mən elə bu gün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə göstəriş verirəm ki, gəmiçiliyin yeni gəmisinə Xoşbəxt Yusifzadənin adı verilsin".**

**2020-ci il yanvarın 14-də Prezident İlham Əliyev bu möhtəşəm xəbəri elə görkəmli neftçi-alim və geoloq, akademik Xoşbəxt Yusifzadənin özünə bildirdi.**

**Üzərindən çox az, cəmi üç ilə yaxın keçdikdən sonra - 2022-ci il dekabrın 7-də isə dövlət başçısı İlham Əliyev elə yenə də əfsanəvi neftçinin özünün iştirakı ilə "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində iştirak edir, onunla bərabər tankerin istismara verilməsini bildirən lenti kəsirdi...**







Azərbaycanın dəniz nəqliyyatı tarixində 1957-ci ildən sonra ilk hadisə idi ki, hər hansı bir gəmiyə həyatda olan şəxsin adı verilmişdi...

Bu, həm ölkəmizin neft sənayesinin canlı əfsanəsi Xoşbəxt Yusifzadəyə dövlətimizin diqqət və qayğısının ifadəsi, həm də Xoşbəxt Yusifzadənin timsalında qəhrəman neftçilərimizə, dənizçilərimizə verilən yüksək qiymətin ümumi təcəssümü idi.

Həmin mərasimdə, qocaman neftçi keçirdiyi xoşbəxtlik və minnətdarlıq hisslərini isə bu səmimi sözlərlə dilə gətirmişdi: "Bu gün mənim demək olar ki, ən xoşbəxt günlərimdən biridir. Hər şeyi gözləyərdim, amma dənizdə mənim adıma gəmi olsun, vallah, bunu heç yatıb yuxuda da görə bilməzdim..."

### Növbəti uğurlu səfər

Səhərə yaxın, saat 4:30-dur. Hələ dan üzü qızarmayıb, Günəş gözə görünmür. Bu zaman üfüqə qədər uzanan ucsuz-bucaqsız dəryanın beşik kimi yırğaladığı bir nəhəng gəmi aram-aram sahilə yaxınlaşır. Əsən soyuq küləyin vıyıltısının müşayiəti ilə suları yara-yara irəliləyən tankerin bütün heyəti bir nəfər kimi ayaq üstündədir. Çıxdıqları daha bir çətin və məsuliyyətli səfəri başa çatdırmalarına dəqiqələr qalıb...

Artıq saat 5 tamamı göstərir. Gah kükrəyən, gah sakitləşən dalğaların qoynunda ləngər vuran gəmi körpüyə yan alır. Bayaqdan bəri öz yerlərini alan gəmi heyəti də böyük məsuliyyətlə üzərlərinə düşən vəzifəni yerinə yetirməyə başlayır. Kapitan körpüsündən gəminin bütün hərəkətinə nəzarət edən kapitan, köməkçilərinə göstərişlər verir. Bosman lövbər qurğusunun vasitəsilə kapitan köməkçisindən aldığı göstərişləri bir-bir yerinə yetirir. Nəhayət, kəndirlərlə bu dəniz nəhəngi körpüyə möhkəm-möhkəm bənd edilir...

Növbə gəminin gətirdiyi tonlarla yükü - xam nefti boşaltmağa çatır. Pompa maşinisti gəmidəki xüsusi sistemi işə salaraq yükü sahildəki anbarlara boşaltmağa başlayır, bu zaman gəminin müvazinətinin pozulmamasına xüsusi diqqət yetirir...

Milli istehsalımız olan və artıq bir ildən artıqdır ki, Xəzərin sularında üzərək yük daşıyan "Akademik Xoşbəxt Yusifzadə" tankerindən və onun peşəkar heyətindən danışırıq...

### Bu tanker xeyli özəlliklərə malikdir

Ölkəmizin iqtisadiyyatında bütün sahələr üzrə hərtərəfli və yüksək səviyyədə inkişaf gedir. O cümlədən də gəmiçilik sahəsində böyük nailiyyətlər, uğurlar əldə edilib ki, Bakı Gəmiqayırma Zavodunda dünya standartlarına cavab verən gəmilərin istehsalı da bunun əyani göstəricilərindəndir. Bu baxımdan milli istehsalımız olan və müasir avadanlıqlarla təchiz edilmiş "Akademik Xoşbəxt Yusifzadə" tankerinin qısa zamanda istismara verilməsinin özü də Azərbaycan iqtisadiyyatının yüksək potensialını, ölkəmizin sosial-iqtisadi inkişafını bir daha gözlər önünə sərir.

"Akademik Xoşbəxt Yusifzadə" tankerinin uzunluğu 141, eni 16,9 metrdir. 14 nəfərlik daimi gəmi heyətinə malik tankerin yükgötürmə qabiliyyəti 7800 tondur.













İnşasına 2019-cu ilin avqustunda başlanılan tankerdə "Wartsila Finland Oy" (Finlandiya), "Wartsila Svanehoy A/S" (Norveç), "Carrier" (ABŞ), "Gürdesan Gemi Mak.San" və "Tic. A.Ş." (Türkiyə), "Tranzas" (Norveç), "Alfa-Laval" (İsveç) kimi tanınmış istehsalçıların avadanlıqları quraşdırılıb.

Heyət üzvləri tamamilə yerli mütəxəssislərdən ibarət olan tanker üç yarusludur və 15 kayutu var. Xəzər dəniz su hövzəsində üzən tankerdə bütün sistem avtomatlaşdırılıb və birbaşa kapitan körpüsündən idarə olunur. Kapitan körpüsündə idarəetmə panelləri, radar, radioəlaqə, sükan mexanizmi, elektron xəritə, exoloq (dərinliyi göstərən) və sair müasir avadanlıqlar var...

Tankerdə baş köməkçi vəzifəsində çalışan Xanlar Bəşirov söyləyir ki, gəminin tam müasir avadanlıqlarla təchiz olunması onun idarə edilməsini, sahilə yan almasını, yükləmə və yükboşaltma işini xeyli asanlaşdırır.

Baş köməkçi deyir ki, gəmi müasir sükan sisteminə malikdir və 360 dərəcə fırlana bilir. Gəminin həm sükan, həm vinti vəzifəsini yerinə yetirən bu sistem sayəsində tanker yan alanda da əlverişli manevrə malik olur. Tankerin özəlliklərindən biri də, onun eyni zamanda iki ayrı yükü daşımağa qadir olmasıdır. Gəmidə hər trümün öz nasosu var. Digər gəmilərdə yalnız iki nasos burunda, iki nasos arxa hissədə olur.

O məlumat verir ki, tankerlə xam neft daşıyırlar. Qazaxıstanın Aktau, Türkmənistanın Türkmənbaşı limanlarından da yük daşınır, amma hazırda marşrut istiqamətləri Türkmənistanın Alaca limanıdır. Hazırda o limandan yük götürərək Səngəçal limanına gəliblər: "Həmin limana gedəndə gəmi boş olduğu üçün yolu təxminən 20, 22 saata qət edirik, amma yüklə qayıdanda 27 saata dönürük".

Baş köməkçi söyləyir ki, atası Sabir Bəşirov da vaxtilə dənizçi olub, ömrünün 40 ilini bu sahəyə həsr edib: "Uşaq vaxtımdan atama deyirdim ki, mən də sənin kimi dənizçi olacam və belə də oldu, bu peşəyə gəldim. Dənizçiliyin çətinliyi sadəcə ailədən uzaq olmaqdır, başqa heç bir problemi yoxdur. Düzdür, küləkli havalarda, fırtınalarda bir az narahatlıq olur, amma müasir gəmi olduğu üçün, hava proqnozunu əvvəlcədən alıb ona uyğun hərəkət edirik. Güclü külək olanda sığınacaqlarda dayanıb gözləyirik, sakitləşəndə səfərimizi davam edirik. Qaranlıq olanda isə lakatrlar "gəminin gözü" sayılır. Gecə vaxtı sırf onların nəzarəti altında hərəkət edirik. Dumanlı havalarda isə duman siqnallarından istifadə edirik".

Xanlar Bəşirov deyir ki, milli istehsalımız olan, Azərbaycanın əfsanəvi neftçisinin adını daşıyan, o cümlədən də peşəkar yerli heyətə malik olan bu cür müasir tankerdə çalışmasından böyük fəxr, qürur duyur.

### Gənc dənizçinin zəfər yolu

Azərbaycan Dövlət Dəniz Akademiyasının dəniz naviqasiya mühəndisliyi ixtisasını bitirən Kamran İmanov ötən ilin yanvar ayından bu tankerdə işləyir. Hazırda gəmidə növbə köməkçisi (kapitanın ikinci, üçüncü köməkçisi) vəzifəsində çalışan Kamran İmanov bundan əvvəl "Şah İsmayıl Xətai", "Zəngəzur" adlı gəmilərimizdə çalışıb.

Öyrənirik ki, Kamran İmanov həm də böyük Zəfərimizlə bitən Vətən müharibəsinin iştirakçısı olub. 2020-ci ilin iyul ayında hərbi xidmətə yollanan Kamran İmanov cəmi iki ay sonra işğal altında olan torpaqlarımızın azadlığı uğrunda haqq savaşına qatılıb: "Onsuz da düşməndən bir gün torpaqlarımızı işğaldan azad edəcəyimizi, qisasımızı alacağımızı, şəhidlərimizin qanını yerdə qoymayacağımızı bilirdim. Amma özümün də bu möhtəşəm qələbədə kiçik payımın olacağını, bu xoşbəxtliyi yaşayacağımı heç ağlıma da gətirməzdim".

Füzuli və Xocavənd istiqamətində döyüş əməliyyatlarında iştirak edən Kamran İmanov deyir ki, ilk gündən bütün döyüşçülərimizdə elə bir ruh yüksəkliyi var idi, sanki qanlı döyüşə getmirdik: "Biz düşmənə olan qisas, tapdaq altında olan yurdlarımızın azadlığının sevinc hissi ilə daim irəliləyirdik. 30 ildən sonra o torpaqlara ilk qədəm qoymağın qürurunu yaşayırdıq".

"Vətən müharibəsi iştirakçısı", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunan Kamran İmanov 2021-ci ildə hərbi xidmətini başa vuraraq tərxis olunub. O, dənizçi kimi peşə fəaliyyətinə ilk olaraq matrosluqdan başlayıb və zamanla öz sahəsində ixtisaslaşaraq, daha yüksək pillələrə qalxıb: "Dənizdə işləmək böyük məsuliyyət, eyni zamanda daim öz üzərində işləmək, öyrənmək tələb edir. Belə bir deyim var ki, dəniz nəhayətsizdir, onu nə qədər öyrənsən də, bitmək bilmir. Mən də çalışıram ki, daim bu sahəyə aid yeni bilgilər öyrənim, həm də peşəkar dənizçilərimizin təcrübəsindən yararlanım".

### Yükboşaltma əməliyyatı gedir...

Tankerdə olduğumuz müddətdə yükboşaltma əməliyyatı həyata keçirilirdi. Bu işi pompa maşinisti (donkerman) Eduard Atakişiyev yerinə yetirirdi.

54 yaşlı donkerman məlumat verir ki, borular stenderə birləşdirilir və gəmi nasoslarından istifadə edilərək yük boşaldılır. Hazırda isə birinci trümdə olan tankın nasosu işləyir. O bitəndən sonra stender digər boruya bağlanacaq. Ümumilikdə isə bütün yükboşaltma təxminən 16-17 saat çəkəcək: "Eyni zamanda gəminin müvazinətini saxlamasını tənzimləyirəm. Əgər yük borularla bərabər formada paylanmasa, tanker müvazinətini itirər, sağa-sola, önə-arxaya əyilər".

Eduard Atakişiyev vurğulayır ki, dənizçilik çətin peşədir. Dənizin soyuğu, dalğası, fırtınası var. İstər soyuq, istərsə də qar, çovğun olsun, onlar mütləq çöldə olmalı və yükü düzgün yükləyib boşaltmalıdırlar: "Yəni işimiz soyuğa, küləyə baxmır, elə olub ki, hətta dizə kimi qarda da işimizi yerinə yetirmişik. Bu, peşəmizə, dənizçiliyə olan bağlılığımızdan, sevgimizdən irəli gəlir".

Donkerman onu da qeyd edir ki, bu tankerin müasir avadanlıqlarla təchiz olunması, təbii ki, onların işini də xeyli yüngülləşdirib.

Gəminin göyərtəsində bosman İlqar Əsədovla da həmsöhbət oluruq. Dənizçi gördüyü iş barədə məlumat verərək, gəminin yanalma zamanında onun burun hissəsində bir kapitan köməkçisi, bir matros, bir də bosman olduğunu deyir: "Biz göstərişləri kapitanın köməkçisi vasitəsilə kapitandan alırıq. Yəni gəmi limana yanaşanda kəndirləri verməyi, yaxud gəminin lövbərə dayanmasını, çıxmasını kapitanın göstərişi ilə gerçəkləşdiririk".

Ömrünün yarısını, 32 ilini dənizdə keçirdiyini deyən 53 yaşlı bosman bildirir ki, tankerin lövbər qurğusunu idarə edir: "Bu qurğu iki cürdür. Biri hidravlikdir, bu kapitan körpüsünə bağlıdır. Tutaq ki, qəza vaxtı olanda hazırlayıram və yuxarı göndəriş edirəm, özləri lövbəri verirlər. Digəri isə mexanikidir və lövbəri mən verirəm. Kilidlər var, hər birinin arası 27 metrdir. Məsələn, kapitanın baş köməkçisi deyir ki, lövbərin verilməsinə tutaq ki, 6, yaxud beş kilid gedəcək, bəzən bu, metrlə də ifadə olunur, mən də o göstərişə uyğun bunu tənzimləyirəm".

### Növbəti səfərlərə yelkən açıldı

Tankerin sözün əsl mənasında ən isti, qaynar məkanı isə maşın şöbəsidir. Gəminin ən alt hissəsində yerləşən bu şöbədə adlarını bilmədiyimiz və ilk dəfə gördüyümüz müxtəlif və nəhəng avadanlıqlar var.

Maşın şöbəsindəki mexanizmlərə nəzarət edən növbə mexaniki Etibar Məmmədov bizi məlumatlandırır ki, burada baş və köməkçi mexanizmlər var. Bu mexanizmlərə qazanlar, dizel generatorları, kompressorlar, nasoslar, müxtəlif qurğu nasosları və sair daxildir.

Növbə mexaniki tankerin maşın şöbəsinə daxil olub, oradakı mexanizmlərə nəzarət edir və işlək vəziyyətdə olub-olmamasına baxır. Həmçinin lazımi mexanizmləri yanacaqla, su ilə təmin edir. Nasazlıq aşkar etdikdə dərhal baş mexanikə xəbər edir və ona uyğun da bu nasazlıq aradan qaldırılır: "Açığı, müasir gəmidir deyə, burada ciddi nasazlıq olmayıb. Xırda-para nəsə olanda da tez aradan qaldırılır. Həmçinin tankerin müasir olması işimizin də köhnə gəmilərdəkindən daha rahat olmasına səbəb olub".

Bu, "Akademik Xoşbəxt Yusifzadə" tankerində keçirdiyimiz bir iş gününün xülasəsi idi. Ölkəmizin milli istehsalı olan müasir tankerimizə getdik və onun peşəkar yerli heyətinin iş prosesini maraqla müşahidə etdik. Biz orada olduğumuz müddətdə tankerin gətirdiyi yük böyük ustalıqla boşaldıldı və peşəkar gəmi heyəti növbəti səfərlərinə uğurla yelkən açdı...

*Yasəmən MUSAYEVA,*
*İlham Babayev (foto),*
*"Azərbaycan"*








# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Parisin maskası yırtılıb

### Neokolonist siyasətini davam etdirən Fransa indi açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparır

**"Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində, sülhyaratma prosesində yer almağa cəhdlər göstərən Fransa, əslində, birtərəfli və qərəzli yanaşma ortaya qoyur. Son zamanlar Fransanın rəsmi şəxsləri tərəfindən tez-tez anti-Azərbaycan bəyanatlarının, Parisin BMT Təhlükəsizlik Şurasına təqdim etməyə çalışdığı qətnamələrin şahidi olmuşuq".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Onun sözlərinə görə, Fransa tərəfindən Ermənistan yeni müharibəyə təhrik edilərək silahlandırılır. Bütün bunlar rəsmi Parisin Azərbaycana qarşı yönəlmiş siyasətinin nümunələridir.

Azərbaycanın Fransaya münasibətdə hər hansı bir qərəzi olmadığını deyən Sevinc Fətəliyeva qeyd edib ki, dövlətimiz çoxvektorlu xarici siyasət kursuna sadiq qalaraq bu ölkə ilə də qarşılıqlı maraqlar əsasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsində hər hansı bir problem görmür. "Problem yalnız Fransanın, xüsusilə də bu ölkənin hazırkı iqtidarının ölkəmizə qərəzli münasibət bəsləməsindədir. Münasibətlərin gərginləşməsi İkinci Qarabağ müharibəsi zamanı başladı. Həmin vaxt 44 gün ərzində Fransa prezidenti dəfələrlə Azərbaycanın dövlət başçısına telefon açaraq müharibənin dayandırılmasını istəyirdi. Ancaq onun istəyi baş tutmadı və Azərbaycan öz qətiyyətini ortaya qoydu. Müharibə yalnız ölkəmizin şərtləri təmin olunmaqla dayandırıldı", - deyə o əlavə edib.



Komitə sədrinin müavini vurğulayıb ki, müharibənin bitməsindən sonra da rəsmi Paris qərəzli mövqeyini davam etdirir. Fransa başda E.Makron olmaqla, Ermənistanı birtərəfli qaydada dəstəkləməkdə davam edir: "İkinci Qarabağ müharibəsindən sonra Fransa ilə münasibətlər gərgin olsa da, əlaqələr mövcud idi. Təsadüfi deyil ki, Azərbaycan Fransa prezidenti Makronun Praqadakı görüşdə iştirakına razılıq verdi və başqa səviyyələrdə də təmaslar oldu - Fransa xarici işlər nazirinin Azərbaycana səfəri baş tutdu. Antiterror tədbirlərindən sonra isə münasibətlər mahiyyətcə dayandırıldı ki, bu da ölkəmizin deyil, məhz Fransanın günahı ucbatından baş verdi. Bu ölkə artıq heç bir beynəlxalq normalara əməl etməyərək açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparmağa başladı".

Sevinc Fətəliyeva qeyd edib ki, postmüharibə dövründə məğlub Ermənistanda müəyyən revanşist qüvvələr baş qaldırıb. Beləleri həm hakimiyyət komandasında, həm də müxalifətdə var. Sülh danışıqlarından danışan Ermənistan eyni zamanda silahlanmaya rəvac verir. Fransa bunda da müəyyən rol oynayır. Bu gün demokratiyadan danışan Fransanın, əslində, tarixboyu müstəmləkəçi siyasət yürütdüyü, Afrikada soyqırımlar törətdiyi bütün dünyaya məlumdur. Rəsmi Paris bu gün də neokolonist siyasətini davam etdirir, Afrikanın bir sıra xalqlarını müstəmləkə altında saxlamağa çalışır. Azərbaycan isə sülhü tərənnüm edən bir ölkə kimi müstəmləkəçilikdən azad olmaq uğrunda mübarizəni həmişə müdafiə edib, bu istiqamətdə dəstəyini əsirgəməyib. Qoşulmama Hərəkatının sədri qismində müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi yeni müstəmləkəçi və neokolonial təcrübələrə qarşı mübarizədə prinsipial mövqeyini ortaya qoyub. Ölkəmizin müstəmləkəçiliyə qarşı barışmaz münasibəti bundan sonra da birmənalı olaraq davam edəcək.



Sevinc Fətəliyeva deyib ki, bu baxımdan ötən il yaradılmış Bakı Təşəbbüs Qrupunun fəaliyyəti əhəmiyyətlidir. Bu, Fransanın müstəmləkə siyasətinə qarşı mübarizədə mühüm platformadır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Simon KOPADZE: "Ermənistanın Azərbaycan ilə sülh prosesində tutduğu destruktiv mövqenin arxasında Fransa dayanır"

**"Ermənistanın Azərbaycan ilə sülh prosesində tutduğu destruktiv mövqenin arxasında Fransa dayanır. Paris və İrəvan əlbir olub oyun qurub, amma onlar heç nə əldə edə bilməyəcəklər.**

Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Simon Kopadze söyləyib. O bildirib ki, 2020-ci ildən 2023-cü ilə qədər mərhələli şəkildə cərəyan edən bütün proseslərdə Azərbaycan Ermənistana sülh danışıqlarının aparılmasını təklif edib. Sülh təklifi hər zaman Azərbaycan tərəfdən gəlib. Rəsmi Bakı həmişə şərait yaradırdı ki, İrəvan getdiyi səhv yoldan qayıtsın. Amma Ermənistanda elə düşünürdülər ki, Fransa ilə hansısa formada əlbir olub nəyəsə nail olacaqlar. Bu, onlarda alınmayacaq, qurduqları oyun baş tutmayacaq. Ermənistan tərəfi hansısa irəliləyiş istəyirsə, bu zaman ən azı ilkin mərhələdə ekspertlər səviyyəsində Tbilisidə görüşlər keçirməyə razılıq verməlidir. Çünki Cənubi Qafqazda sülh istəyiriksə, burada olan 3 ölkə bunu etməlidir. Amma Ermənistanın atdığı addımlar onu dünyadan təcrid etdi, bütün iqtisadi layihələrdən uzaqlaşdırdı.

"Düşünürəm ki, Ermənistanın etdikləri onun xeyrinə olmadı. Ermənistan öz səhvlərinin qurbanı oldu. Bu uğursuz siyasətlə onlar Azərbaycanın qarşısında dura bilməyəcəklər. Çünki artıq heç nəyi tələb edə bilməzlər. Tələb edəcəkləri nəsə olsaydı, çoxdan edərdilər. Azərbaycan nə insan hüquqlarını pozub, nə əsirlərə qarşı işgəncələr verib, nə də beynəlxalq hüquqa zidd hərəkət edib. Azərbaycan hər şeyi beynəlxalq hüququn norma və



prinsipləri çərçivəsində edib", - deyə S.Kopadze vurğulayıb.

Gürcü politoloq deyib: "Azərbaycanın mövqeyi ondan ibarətdir ki, sülh olarsa, həyat inkişaf edəcək, iqtisadiyyat güclənəcək və region xalqları gözəl şəraitdə yaşayacaqlar. Amma bu proses bir çox ölkələri narahat edir. Azərbaycan isə bütün ölkələrlə gözəl əlaqələr qurmağı bacarıb, dünyanın investisiya yatırdığı dövlətlərdən birinə çevrilib. Artıq demək olar ki, hər kəs Azərbaycan ilə yaxşı münasibətlər qurmağa çalışır. Bunu etmək istəməyənlər isə uduzacaq. Azərbaycan çox sürətlə inkişaf edir və bu inkişafı heç kim saxlaya bilməyəcək". Onun sözlərinə görə, nəinki Azərbaycanın, dünyanın istənilən dövlətinin ərazi bütövlüyünün bərpa olunması, həmin ərazilərin yenidən qurulması müsbət haldır.

İşğaldan azad olunmuş Zəngilan və Ağdama səfər edən S.Kopadze həmin ərazilərdə yenidənqurma prosesi ilə yaxından tanış olduğunu və gördüklərindən təəccübləndiyini gizlətməyib: "İşlərin hansı sürətlə getdiyini sadəcə görmək lazımdır. Hələ mən hansısa bir ölkənin işğaldan azad olunmuş ərazilərində belə sürətli yenidənqurmanın şahidi olmamışdım. Qətiyyətlə deyə bilərəm ki, həmin ərazilər tezliklə abad, gözəl və yaşayış üçün ən yaxşı məkanlardan birinə çevriləcək".

## Fransız deputat ölkəsində irqçiliyin artmasından narahatlığını bildirib

**Bu yaxınlarda Romans-sur-Isere komunasında dəmir dəyənəklərlə silahlanmış və əllərində hücum edəcəkləri insanların adı, soyadı, yaşadığı ünvanı, telefon nömrəsi olan və 10-dan çox maskalı şəxsin törətdiyi irqçi cəza ekspedisiyası, eləcə də Viroflay merinin müavinin evini hədəfə alan hadisə, içərisində möminlər olan Morlaix məscidinə atəş cəhdi, hətta ötən həftə Parisdə icazə verilmiş ifrat sağçıların nümayişi kimi irqçi hərəkətlərə son qoyulmalıdır.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Yenilməz Fransa" (La France İnsoumise- LFİ) siyasi partiyasının üzvü, deputat Matild Panot Milli Assambleyada mətbuat konfransında Anadolu Agentliyinin sualına cavab olaraq bildirib. Deputat belə əməlləri qətiyyətlə pisləyərək kiçik ifrat sağçı qrupların Fransa Respublikası üçün yaratdığı qorxunc təhlükəni vurğulayıb və ölkədə islamofobiya hərəkətlərinin artdığını xatırladıb.

Fransız deputat bu yaxınlarda Romans-sur-Isere-də baş vermiş hadisəni, dəmir dəyənəklərlə silahlanmış onlarla maskalı şəxsin əlində insanların adı, soyadı, yaşadığı ünvan və telefon nömrələrinin olduğunu xatırladıb. Diqqətə çatdırıb ki, belə qruplarda bu məlumatlar olmamalıdır. M.Panot Milli Assambleyadakı LFİ sədrinin, həmçinin yerli seçilmiş məmurların məruz qaldığı hücumlardan və onlara qarşı edilən irqçi ifadə-



lərdən, xüsusən də Saint-Brevin-Les-Pinsdə (Luara-Atlantik) şəhər merinin ailə üzvləri evdə yatdığı zaman onun evinin yandırılmasından, eləcə də Grabels (Herault) bələdiyyə başçısına edilən hücumdan söz açıb. O, Emmanuel Makronun mandatı dövründə prefekturaların belə hadisələrə reaksiya vermədiklərini vurğulayıb.

Deputat 2018-ci ildə LFİ tərəfindən ifrat sağçı qrupların yaratdığı təhlükələrlə bağlı yaradılmış araşdırma komissiyasının əhəmiyyətini bir daha vurğulayaraq verilən tövsiyələrə əməl edilməməsinə təəssüflənib.

## Paşinyan Putinin əleyhinə mitinq keçirəcək

### Hayastanda anti-Rusiya kampaniyası yeni vüsət alır

**Hayastanda anti-Rusiya meyillərinin daha da artdığı müşahidə olunur. Bunu İrəvanda Rusiya əleyhinə keçirilən aksiyaların sayının çoxalması, az qala cəmiyyətin bütün təbəqələrində Moskvanın sərt tənqid hədəfinə çevrilməsi də təsdiq edir.**




Ümumiyyətlə, indiki mərhələdə Hayastan iqtisadi, siyasi, geosiyasi və hərbi sferalarda çox çətin duruma düşüb. Hər tərəfdə yaranmış problemlərin altında əzilən ölkənin baş naziri Nikol Paşinyan çıxış yolunu Qərbə sığınmaqda görür, onun verdiyi vədlərə güvənir. Hər halda, Paşinyan hakimiyyətinin nümayiş etdirdiyi xarici siyasətdə konkret seçim etdiyi görünür, Rusiyanın xeyrinə olmayan bu istiqamətdə israrlı davranmağa çalışır.

Erməni saytları Rusiyanın əleyhinə silsilə yazılar dərc edir, siyasətçilər, ziyalılar tez-tez Rusiya əleyhinə açıqlamalar verirlər. Məsələn, erməni ictimai xadimi Karen Verdiyan iddia edib ki, artıq bir çox əcnəbi banklar İrəvanın müttəfiqinə görə Hayastanla maliyyə əməliyyatlarından və ümumilikdə əməkdaşlıqlardan yayınmağa başlayıblar: "Bəzi məlumatlara görə, xarici banklar, maliyyə mərkəzlərinin əksəriyyəti Hayastanda sövdələşmə əməliyyatlarından imtina ediblər. Sövdələşmələri davam etdirən yalnız 2-3 bank var. Səbəb ölkəmizdə olan Rusiya kapitalının dövriyyəsidir. Bununla əlaqədar ölkəmizə müəyyən məhdudiyyətlər qoyulub. Əgər daha konkret məlumatınız varsa, bizimlə paylaşın".

"Hraparak" qəzeti isə yazıb ki, Hayastanda anti-Rusiya kampaniyası yeni vüsət alır. Paşinyan yeni "günah keçisi" axtarışındadır. Bildirilib ki, Nikol Paşinyan başda olmaqla mövcud rejimin nümayəndələri Rusiyaya qarşı yeni təbliğat kampaniyasına başlayıblar. Belə təəssürat yaranır ki, Nikol Paşinyan və ətrafı nəhayət Hayastanı müttəfiqsiz qoymaq istəyirlər. Son vaxtlar Hayastan-Rusiya münasibətləri istiləşib və konstruktiv görünə bilər. Xüsusilə, buna Nikol Paşinyanın ötən ilin sonunda Sankt-Peterburqa getməsi şərait yaradıb. Lakin Paşinyan həftəsonu partiya üzvləri ilə görüşündə anti-Rusiya kampaniyasının yeni mərhələsinə başlayıb. O, adlarını çəkmədən mümkün müharibənin bütün məsuliyyətini və günahını üçüncü ölkənin üzərinə atmağa çalışıb. Aydındır ki, Paşinyan Rusiyanı nəzərdə tuturdu.

Daha sonra qəzet Paşinyanın tərəfdarlarının sayının artmasına toxunub: "Paşinyanın ən qalmaqallı və anti-erməni fikirlərini komanda yoldaşlarının səsləndirməsi artıq ənənə halını alıb. Bu dəfə parlamentin spikeri Alen Simonyan Paşinyanın siyasət niyyətlərini açıqlayıb. O, Paşinyanın fikirlərini davam etdirərək, regionda sülhə "üçüncü dövlət"in mane olduğunu deyir. Sülh müqaviləsinə gəlincə, Hayastan üzərində təsir rıçaqlarına sahib olmaq istəyən tərəflər təbii ki, hər iki ölkəyə təsir imkanlarını təmin etmək üçün heç olmasa "yaxşı vasitəçi" olmaq istərdilər".

Nəşrin yazdığına görə, yanvarın 21-də Rusiyaya qarşı növbəti mitinq keçiriləcək. Bunun üçün artıq razılıq alınıb. Anti-Rusiya kampaniyası çərçivəsində İrəvan meriyası Navalnı tərəfdarı olan Rusiya vətəndaşı Riçard-Roman Kinqə yanvarın 21-də İrəvanda Putin əleyhinə mitinq keçirməyə icazə verib.

Beləliklə, gedən proseslər Hayastanın sürətlə məhvə doğru yaxınlaşdığını bir daha təsdiqləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Bayden Trampa məğlub olacağını anlayır

**"Deyəsən, Donald Tramp Ayova ştatında qalib gəlib. Hazırda o, müxalifətin aşkar favoritidir. Ancaq burada bir şey var: bu seçkilərdə həmişə siz və mən ifrat respublikaçıların əleyhinə olmuşuq. Bu mövqe dünən də doğru idi, sabah da doğru olacaq."**

ABŞ Prezidenti Co Bayden Ağ Evin sabiq rəhbəri Donald Trampın Ayovadakı qələbəsindən sonra "X" sosial şəbəkəsində bu paylaşımı edərək onu respublikaçılar arasında aşkar favorit adlandırıb.

Xatırladaq ki, ABŞ-nin keçmiş prezidenti Donald Tramp respublikaçıların Ayova ştatında keçirilən kokusunda səslərin çoxunu qazanıb. Bu, Respublikaçılar Partiyasından prezidentliyə namizəd seçmək üçün ilk səsvermə idi.

Səslər hesablandıqdan sonra Tramp onların 51 faizini, Florida ştatının qubernatoru Ron Desantis 21,2 faizini, ABŞ-nin BMT-dəki keçmiş səfiri Nikki Heyli 19,1 faizini toplayıb. Səslərin təxminən 7 faizini Vivek Ramasvami qazanıb və bundan sonra yarışı tərk etdiyini açıqlayıb. Prezident seçkilərində respublikaçıları təmsil etmək üçün mübarizə aparan digər üç namizədin hər biri 1 faizdən az səs toplayıb.

Tramp Ayova ştatında səsvermənin nəticələri ilə fəxr etdiyini bildirib: "Layiqli rəqiblərə qalib gəlməyim böyük şərəfdir". Tramp həmçinin prezidentlik yarışından çəkildiyini elan edən iş adamı Vivek Ramasvami ilə işləmək niyyətində olduğunu bildirib. Nyu-Hempşirdə tərəfdarları qarşısında çıxışı zamanı o, Ramasvamini fantastik və "çox ağıllı oğlan" adlandırıb: "Onun böyük ideyaları var və parlaq gələcəyi olan gəncdir. O, bizimlə işləyəcək".

Ramasvami də çıxış edərək tərəfdarlarını Trampa səs verməyə çağırıb. O, digər nami-



zədləri - Ron Desantisi və Nikki Heylini də seçkidən imtina etməyə və Donald Trampın vahid namizədliyini dəstəkləməyə çağırıb.

Sabiq prezident Nyu-Hempşirdə tərəfdarlarına deyib ki, ABŞ-ni axmaqlar idarə edir. Bundan əvvəl Tramp Rusiya və Çin liderləri Vladimir Putini və Si Cinpini çox ağıllı insanlar adlandırıb. O, həmçinin bildirib ki, Co Bayden prezident seçkilərindən əvvəl ABŞ-ni məhv edə bilər.

Tramp Rusiya Prezidenti Vladimir Putinlə yaxşı yola getdiyini və Ağ Evə rəhbərlik edəcəyi təqdirdə Ukraynadakı münaqişənin tezliklə həllinə çalışacağını bildirib.

O, Putinlə anlaşdığını və Ukraynadakı münaqişəyə son qoya biləcəyini deyib: "Biz Putinlə yaxşı anlaşırıq, bu pis deyil, yaxşıdır. Rusiya hücum etməzdi, İsrailə hücum olmazdı. Ukraynada vəziyyət dəhşətlidir, İsraildə baş verənlər dəhşətlidir... Mən Putini yaxşı tanıyıram, Zelenskini də yaxşı tanıyıram. Onları əlaqələndirəcəyik. Biz bunu çox tez həll edəcəyik. Bu, baş verməməli idi və olmayacaqdı, amma indi insanların düşündüyündən də böyük miqyasda baş verib. Biz müharibəni dayandıracağıq, çünki bu, kədərlidir, heç başlamamalı idi".

Siyasətçi Ayovada çıxışı zamanı ABŞ-dəki problemlərə də toxunub və onların 90 faizinə görə ölkədə saxta xəbərləri yayanları günahlandırıb.

Bu arada, almaniyalı siyasətçi Fridrix Merts Almaniyanı və digər Aİ ölkələrini Donald Trampın yenidən ABŞ prezidenti seçilməsi ehtimalına diqqətsiz və hazırlıqsız olduqlarına görə tənqid edib. N-TV telekanalı Fridrix Mertsdən sitat gətirib: "Aİ-nin və xüsusilə onun ən böyük üzv dövlətinin bu potensial problemə nə qədər diqqətsiz yanaşmasından narahatam".

Onun fikrincə, avropalıların mümkün qədər qısa bir zamanda Amerika ilə A, Amerikasız B planı hazır olmalıdır. Merts öz ölkəsindən və Aİ-dən təhlükəsizlik siyasəti haqqında yenidən strateji düşünməyi tələb edir.

Son məlumara görə, ABŞ-nin keçmiş prezidenti Donald Tramp Manhettendə məhkəmə qarşısına çıxmaq üçün seçki kampaniyasına qısa fasilə verib. Orada ona qarşı böhtan ittihamı ilə bağlı işə baxılır. Mülki iddia, Trampın keçən il zorlama cəhdinə görə məhkəməyə verildiyi yazıçı və jurnalist Cin Kerroll tərəfindən açılıb.

Bu, 1996-cı ildə baş verən hadisələrə əsaslanan ikinci məhkəmədir. Kerrollun sözlərinə görə, o, həmin il Trampla Nyu-York univermağında tanış olub. İddialara əsasən, Tramp ondan başqa qadına hədiyyə olaraq seçdiyi paltarı geyinməyi xahiş edib. Qadın razılaşıb və bundan sonra, dediyinə görə, Tramp paltardəyişmə otağında ona hücum edib. 2023-cü ilin mayında münsiflər heyəti Trampı yazıçıya təcavüz cəhdində təqsirli bilib. Daha sonra andlılar heyəti Trampın Kerrolla cinsi təcavüz etdiyi, lakin onu zorlamadığı barədə qərar çıxarıb və məhkəmə Trampı yazıçıya 5 milyon dollar təzminat ödəməyə məcbur edən hökm çıxarıb.

Eks-prezident bunları yalan, hökmü isə biabırçılıq və ən böyük "əcinnə ovu" adlandırıb. O, apellyasiya şikayətində bu hökmü ləğv etdirəcəyinə ümid edir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi İlahiyyat İnstitutunda olub

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadənin dəvəti ilə Azərbaycanda səfərdə olan Gürcüstan Müsəlmanları İdarəsinin (GMİ) rəhbəri Şeyx Faiq Nəbiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan İlahiyyat İnstitutunu (Aİİ) ziyarət edib.

Aİİ rektoru, dosent Aqil Şirinov Şeyx Faiq Nəbiyevi GMİ-yə rəhbər seçilməsi münasibətilə təbrik edib. Rektor ölkələrimiz arasında dostluq münasibətlərindən danışıb, Azərbaycan - Gürcüstan əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib. Azərbaycanda yüksək dini-mənəvi mühitin mövcud olduğunu diqqətə çatdıran A.Şirinov dövlət-din siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu və bunun hazırda uğurla davam etdirildiyini vurğulayıb.

Ali təhsil müəssisəsi haqqında geniş məlumat verən Aqil Şirinov institutun tarixi, vəzifələri, qarşıda duran hədəf və məqsədləri barədə bəhs edib.

Rektor daha sonra Azərbaycanın haqq mübarizəsi olan 44 günlük Vətən müharibəsinə diqqət çəkib. Bildirib ki, qəhrəman Azərbaycan Ordusu bu işğala 44 gün ərzində son qoydu və ölkənin ərazi bütövlüyü bərpa olundu. Erməni vandallarının tarixi abidələrimizə, məscidlərimizə qarşı törətdikləri cinayət əməlləri haqqında bəhs edən rektor bildirib ki, bu əməllər bütövlükdə islami dəyərlərə qarşı yönəldilib.



Aİİ-nin rəhbərliyinə təşəkkür edən nümayəndə heyəti Azərbaycana səfərindən, xüsusilə Bakı şəhərində keçirilən görüşlərdən məmnunluğunu ifadə edib. Gürcüstan Müsəlmanları İdarəsinin rəhbəri Şeyx Faiq Nəbiyev Azərbaycan və Gürcüstanın dini qurumları arasında sıx münasibətlərin qurulmasından, ölkələrimiz arasında bu sahədə mövcud əlaqələrin daha da möhkəmlənməsindən və gələcəkdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsindən əminliyini ifadə edib.

Qonaqlar sonda institutun kitabxana fondu ilə tanış olublar.

***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

Dövlət Sosial Müdafiə Fondunun Aparatında əmək haqlarının, dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin və digər struktur bölmələrində əmək haqlarının, əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriyalı şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması üzrə 28.11.2023-cü il tarixdə elanı verilmiş açıq tenderdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq tender təkliflərinin təqdim olunma tarixi və vaxtı 17.01.2024-cü il saat 17:00-dan 25.01.2024-cü il saat 17:00-a, təkliflərin açılış tarixi və vaxtı 18.01.2024-cü il saat 11:00-dan 26.01.2024-cü il saat 11:00-a dəyişdirilmişdir.

***Tender komissiyası***

## Müştərilərin nəzərinə!

Dövlət Sığorta Kommersiya Şirkətinin (Azərsığorta) baş ofisi yeni məkana köçürülmüşdür.

Şirkət müştərilərinə bundan sonra yeni ünvanda (Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi, 31) xidmət göstərəcəkdir.

**Əlaqə: 1200**

***Rəhbərlik***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti dielektrik xalçaların satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 26 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan struktur idarələri üçün əlvan metalların satın alınması məqsədi ilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti BGTZ və ZGTTZ-nin tərsanə bölməsinə tələb olunan malların satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi *açıq tender elan edir*

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Oğuz, Balakən, Neftçala, Beyləqan, Şirvan, Ağsu və Salyan rayonlarında 2 və 3 otaqlı mənzillərin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Əlaqə nömrəsi: (012) 526-01-01(2637)) ünvanından ala bilərlər.

**İştirak haqqı: 400 AZN**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**
**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. İştirak haqqının ödənilməsi ilə bağlı bank sənədi.*
*3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Sənədin əsli təqdim edilməlidir və ya surəti olduğu təqdirdə notarial qaydada təsdiq edilməlidir).***
*4. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*5. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
*6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən ayı və sonrakı dövrü əhatə etməlidir).***
*7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, 2022 və ya 2023-cü il üzrə).***
*8. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
*9. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması.*
*10. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.*
*11. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
*12. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
*13. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
*14. 'Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

*Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları rəsmi sorğu vasitəsilə Tender komissiyasına ünvanlaya bilərlər.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **09 fevral 2024-cü il saat 15:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 fevral 2024-cü il saat 18:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 fevral 2024-cü il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Sosial Müdafiə Fondunun Aparatında və digər struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriyalı şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması üzrə 28.11.2023-cü il tarixdə elanı verilmiş açıq tenderdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq tender təkliflərinin təqdim olunma tarixi və vaxtı 17.01.2024-cü il saat 17:00-dan 25.01.2024-cü il saat 17:00-a, təkliflərin açılış tarixi və vaxtı 18.01.2024-cü il saat 11:00-dan 26.01.2024-cü il saat 11:00-a dəyişdirilmişdir.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Hicran Hüseynova Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi Biznes və logistika kafedrasının müdiri Məhəmməd Əliyevə həyat yoldaşı

**TUTUXANIM xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLABATIN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Səbuhi Bayramova nənəsi

**BƏNÖVŞƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə əzizi

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLABATIN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elçin Hüseynov, Bəxtiyar Əzizli və Gül Qədirli TƏBİB-in İctimaiyyətlə əlaqələr və marketinq departamentinin rəhbəri Zamirə Ədilovaya atası

**KƏMALƏDDİN ƏDİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "AzərEnerji" ASC-nin kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağllğı verirlər.

---

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin kollektivi komitənin sədr müavini Fuad Hüseynova atası

**QUBAD BARAT OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLABATIN MƏSİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru





www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3684
Sifariş 96

Qiyməti 60 qəpik